# Xalq qəzeti

Xalqın qəzeti!

№ 169 (30285) 11 avqust 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Heç vaxt Azərbaycanda milli, dini zəmində ayrı-seçkilik olmayıb və olmayacaq. Ona görə Azərbaycanda yaşayan ermənilərin hüquqları, təhlükəsizliyi Azərbaycanda yaşayan digər xalqların təhlükəsizliyi, hüquqları qədər önəmlidir. Burada hansısa xüsusi imtiyazdan söhbət gedə bilməz.**

## Azərbaycan ilə Rusiya arasında dostluq münasibətləri uğurla inkişaf edir

### Prezident İlham Əliyev Rusiyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Rusiya Federasiyasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimovun etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Söhbət zamanı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyi bildirildi, siyasi, iqtisadi-ticari, energetika, nəqliyyat, humanitar sahələrdə, regional təhlükəsizliklə bağlı məsələlərdə fəal qarşılıqlı fəaliyyətin həyata keçirildiyi qeyd olundu.

(ardı 2-ci səhifədə)

## “Biz bu torpaqlarda əbədi yaşayacağıq”



Səhifə ⇨ 3

## Mingəçevirdə müstəqillik dövrünün ən böyük elektrik stansiyası tikilir

**Son 20 il ərzində respublikamızın energetika sistemində genişmiqyaslı layihələr gerçəkləşdirilib, bu sahədə böyük həcmdə yenidənqurma, tikinti layihələri icra olunub.**

Prezident İlham Əliyevin tapşırığı ilə hazırlanan Reabilitasiya Proqramı çərçivəsində energetika sistemi əsaslı şəkildə müasirləşdirilib, “itirilmiş” generasiya gücləri bərpa edilib. Dövlətimizin başçısının 25 oktyabr 2022-ci il tarixli “Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlərin həyata keçirilməsi haqqında” sərəncamı da ölkəmizin elektrik enerjisi ilə fasiləsiz təminatını daha da gücləndirmək, təhlükəsizliyin maksimal səviyyədə reallaşdırılmasına nail olmaq baxımından daim diqqət mərkəzində saxlanılıb.

(ardı 7-ci səhifədə)



## Moreno Okampo cəfəngiyyatı, yaxud Paşinyan-Kardaşyan “dueti”nin zay məhsulu

### Ermənistan hakimiyyəti Qarabağda “erməni soyqırımı” yalanını hüquqiləşdirməyə girişib

**Görünür, Ermənistanın “Mat Terezası”, erməni mənşəli amerikalı pornoulduz Kim Kardaşyanın müştərilərindən biri də Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş baş prokuroru Luis Moreno Okampodur. Axı, beynəlxalq hüquq sahəsində aparıcı ekspert olduğu deyilən bir şəxs nəyə görə “Ekspert rəyi: 2023-cü ildə ermənilərə qarşı soyqırımı” adlı cəfəng hesabat hazırlamağa vaxt tapsın?**

Əslində, Kim Kardaşyanın dünyada Okampodan daha çox tanındığı məlumdur. Hər halda, birinci ikincinin sarsaqlığını özünün sosial şəbəkə hesabında paylaşmasaydı, belə bir şəxsin mövcudluğunu, onun beynəlxalq hüquq üzrə çalışdığını, üstəlik, aparıcı ekspert olduğunu bilməyəcəkdik. Necə düşünək? Fikirləşək ki, Kardaşyan “qədim peşə”sinə Okamponun öz sahəsinə sərf etdiyi əməkdən daha çox zəhmət çəkir?

Amma belə düşünməyək. Elə zənn edək ki, əslən Argentinadan olan, paytaxt Buenes-Ayresdə doğulmuş, ölkəsində hüquq təhsili almış ekspert, həqiqətən, öz işinin bilicisidir. 1952-ci il təvəllüdlü Okamponun yaşca Kardaşyandan 28 il böyüklüyünü nəzərə alsaq, birincinin ikincinin deyil, ikincinin birincinin “müştərisi” olduğu ilə də razılaşaq. Nə etmək olar, müasir erməniliyi simvolizə edən Kardaşyanın adı çəkiləndə ağla ancaq pis-pis fikirlər gəlir...

***

Daha bir məqam da var. Okamponun hesabatını Los-Ancelesdəki Kaliforniya Universitetinin klinik professoru Erik İsraelyan paylaşıb. Yəni əslində, Kardaşyan, bilavasitə Luis Morenonun deyil, İsraelyanın sosial şəbəkə postunu bölüşüb.

(ardı 4-cü səhifədə)

## Dünya Bankı ilə əməkdaşlıq genişlənir




**İqtisadiyyat naziri Mikayıl Cabbarov Dünya Bankının (DB) Azərbaycan üzrə ölkə meneceri Ştefani Ştalmeyster ilə görüşündə respublikamızın bu beynəlxalq maliyyə qurumu ilə uğurla əməkdaşlıq etdiyini vurğulayaraq bankın göstərdiyi texniki yardım və maliyyə dəstəyi layihələrini yüksək qiymətləndirib.**

Nazir ölkəmizin DB ilə əlaqələrində özəl sektorun diaqnostikası, innovasiyalar, idarəetmə texnologiyalarının inkişafı, bərpaolunan enerji və digər sahələrdə əlaqələrin getdikcə möhkəmlənməsinə, qabaqcıl beynəlxalq təcrübənin tətbiqinə xüsusi önəm verdiyini bildirib.

(ardı 7-ci səhifədə)

## Bütün yollar Qarabağa aparır...



Səhifə ⇨ 10

## Fransız merindən “dəstək”: Ermənistana illüziya, separatçılara pampers

*Yaxud Daraqonun ermənipərəst “drakonluğu”na sözardı*

**Deyilənə görə, Laçın yolu üzərində qurduğumuz sərhədə yaxın ərazidə lövbər salmış erməni “tır” sürüsünə daha biri qoşulub.**



O da deyilir ki, həmin “tır”ın içindəkilər Fransadan gətirilib. Yüklərin konkret nədən ibarət olduğu bildirilməsə də, ehtimal var ki, orada digər avtomobillərdə yer alan və Qarabağdakı separatçı rejimin təmsilçilərinin hazırda daha çox ehtiyac duyduqları pampers və uşaq bezləri kimi təbii ehtiyac vasitələri yoxdur. Bir ehtimal da gedib Fransanın Ermənistana verdiyi silahlar üzərinə çıxır. Axı “tır şousunun”, bütövlükdə, İrəvanın Qarabağ erməniləri müstəvisində oynadığı “oyun”un ən böyük dəstəkçisi Parisdir.

Əlbəttə, Parisin separatçılara dəstəyinin silahdansa pampers olması vacibdir. Çünki ikincilər anormal qorxu içərisindədirlər, mədələri hər an nəzarətdən çıxa bilər. Humanistlik göstərib bunu nəzərə almaq lazımdır. Ancaq humanizm hissi nə Fransa hakimiyyətində var, nə də digər ermənipərəst dairələrdə...

Əlqərəz, Fransanın bir sıra rəsmiləri, eləcə də ictimai xadimləri hazırda Qarabağda “erməni soyqırımı baş verir” kimi deyimləri və başqa həyasızlıq elementlərini dünyanın ictimai rəyinin gündəminə çıxarıb, diqqəti əsl həqiqətlərdən uzaqlaşdırmaq, beynəlxalq hüquq normalarını heçə saymaq yolu tuturlar. Beləlіərindən biri də ölkənin Valens şəhərinin meri Nikola Daraqondur. Daraqonun sərsəmləmələrindən söz açacağıq. Hələlik isə digər məqamları vurğulayaq.

(ardı 3-cü səhifədə)

## İrəvanda ara qarışa bilər



Səhifə ⇨ 4

## Tehran-Bakı münasibətləri: buzlar əriyirmi?



Səhifə ⇨ 6

## Paşinyana “Sus!” deyən Oskanyan müharibəmi istəyir?

Səhifə ⇨ 6

# Prezident İlham Əliyev Rusiyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



(əvvəli 1-ci səhifədə)

Həm ikitərəfli müstəvidə, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığın olduğu vurğulandı, dövlət başçıları arasında təmasların əlaqələrimizin genişlənməsinə verdiyi töhfə bildirildi, ikitərəfli münasibətlərimizin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olundu.

Görüşdə Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsi üzrə aparılan danışıqlar prosesinin hazırkı vəziyyəti barədə danışıldı.

Energetika və nəqliyyat sahələrində həyata keçirilən layihələrin, o cümlədən Şimal-Cənub nəqliyyat dəhlizinin regional inkişaf üçün əhəmiyyəti vurğulandı.

*AZƏRTAC*

# Laçın yolu ilə bağlı reallığı bilərəkdən təhrif edən Okampo

**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan əleyhinə qərəzli hüquqi hesabatın müəllifi olan vəkil Luis Moreno Okamponun qeyri-qanuni fəaliyyətini ifşa edib. Bununla bağlı Hikmət Hacıyev "X" sosial şəbəkəsindəki səhifəsində paylaşım edib.**

H.Hacıyev qeyd edir ki, Beynəlxalq Cinayət Məhkəməsində baş prokuror vəzifəsində çalışarkən dünyanın ən bədnam vergi sığınacaqlarında yerləşən şirkətləri idarə edib.

"İrəvanda Okamponu Ermənistanın eks-prezidenti, Xocalı soyqırımını törədən hərbi cinayətkar, səhra komandiri Serj Sarkisyanın özü qarşılayıb. "European Investigative Collaborations" şəbəkəsi Moreno Okamponun Liviyada hərbi cinayətkarları dəstəkləməkdə şübhəli bilinən müştərisinin olduğunu bildirirdi.

Bu cür qaranlıq keçmişə malik olan şəxs öz qərəzli hesabatında Beynəlxalq Ədalət Məhkəməsinin qərarlarını və Laçın yolunun fəaliyyəti ilə bağlı real vəziyyəti bilərəkdən təhrif edir, ciddi səhvlərə yol verir. Sadəcə "Şərhsiz"!", - deyə H.Hacıyev bildirib.

H.Hacıyevin istinad etdiyi "MediaPart"ın məqaləsinə əsasən, Luis Moreno Okampo onun ofşor maliyyə fəaliyyəti ilə bağlı suala cavabında Beynəlxalq Cinayət Məhkəməsindəki maaşının onun üçün "kifayət olmadığını" bildirib.



"15 avqust 2012-ci ildə, Luis Moreno Okampo Haaqadakı Beynəlxalq Cinayət Məhkəməsinin baş prokuroru vəzifəsindən istefa verdikdən cəmi iki ay sonra onun Niderlanddakı "Abn Amro" bank hesabına 50 min dollar məbləğində vəsait köçürülüb.

Baş prokurorun örnək ola bilməsinin əsas səbəbi isə Beynəlxalq Cinayət Məhkəməsinin dünyanın ən qəddar kütləvi qətllər törədənləri təqib etməsidir. Bunlar istər insanlığa qarşı cinayət, istərsə də soyqırım törətməkdə şübhəli bilinən yüksək rütbəli kişilər və qadınlar, dövlət başçıları, hərbi rəhbərlər, casuslar və başqalarıdır", - deyə məqalədə bildirilir.

# Azərbaycanın XİN rəhbərinin telefon danışıqları



**Dünən xarici işlər naziri Ceyhun Bayramov ilə Şimali Makedoniyanın xarici işlər naziri və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) fəaliyyətdə olan sədri Buyar Osmani arasında telefon danışığı olub.**

Telefon danışığı zamanı ATƏT çərçivəsində əməkdaşlıq məsələləri, Azərbaycan və Şimali Makedoniya arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyi, Azərbaycan-Ermənistan sülh prosesi və bölgədə mövcud vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov Ermənistan tərəfindən Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı artan təxribatların sülh prosesinin irəliləməsinin qarşısının alınmasına hesablandığını diqqətə çatdırıb. Xüsusilə, Ermənistanın bölgədə sabitliyin bərqərar edilməsi, erməni sakinlərin Azərbaycan cəmiyyətinə reinteqrasiya səylərinə təhdid törədən Laçın sərhəd-keçid məntəqəsinə qarşı törətdiyi təxribatların bu ölkənin sülh prosesində maraqlı olmadığını göstərdiyi bildirilib.

Ceyhun Bayramov Ermənistanın "bölgədə gərgin humanitar vəziyyət", "blokada" kimi iddialar irəli sürməsinin heç bir əsasının olmadığını, erməni sakinlərin tələbatlarının ödənməsi üçün tərəfimizdən təklif olunan "Ağdam-Xankəndi" yolunun fəaliyyətinə manealər törədilməsinin də məsələnin Ermənistanın təqdim etdiyi kimi humanitar xarakterli deyil, siyasi olduğunu nümayiş etdirdiyini diqqətə çatdırıb.

Ermənistanın 30 ilə yaxın hərbi işğalının, postmünaqişə dövründə isə beynəlxalq hüquq normalarına və öhdəliklərinə zidd olaraq Laçın yolundan hərbi məqsədlər, təbii resurslarımızın Ermənistana daşınması, mina təhdidinin davam etdirilməsi məqsədilə istifadə etməsinin qəbuledilməzliyi, bu təxribatçı addımların qarşısının alınması üçün Laçın sərhəd-buraxılış məntəqəsinin əhəmiyyəti nazir C.Bayramov tərəfindən qeyd olunub.

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***

Avqustun 9-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifəsini icra edən Yuri Kim arasında telefon danışığı olub.

Nazir Ermənistanın bölgədə vəziyyəti qəsdən gərginləşdirdiyini, müxtəlif bəhanələrlə, habelə "blokada" və "humanitar böhran" kimi iddialar yaymaqla sülh prosesinə maneçilik törətdiyini bildirib. Bununla yanaşı, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı davam edən iddialarının, Azərbaycan ərazilərindən hələ də tam olaraq erməni silahlı qüvvələrini çıxarmaqdan imtina etməsinin və ölkəmizin daxili işlərinə qarışmasının qəbuledilməz olduğunu vurğulayıb.

Ermənistanın Azərbaycanın öz suveren ərazilərində yaratdığı Laçın sərhəd-buraxılış məntəqəsinə qarşı təxribatları davam etdirdiyi, buna baxmayaraq, ölkəmizin erməni sakinlərin hər iki istiqamətdə keçidi üçün şərait yaratdığını xatırladıb.

*Q.QASIMOV,*
*"Xalq qəzeti"*

# Ceyhun Bayramov Litvanın ölkəmizdəki səfiri ilə görüşüb

**Dünən xarici işlər naziri Ceyhun Bayramov Litvanın Azərbaycandakı səfiri Eqidius Navikası ölkəmizdəki diplomatik fəaliyyət müddətinin başa çatması ilə əlaqədar qəbul edib.**



Nazir Ceyhun Bayramov, ölkəmizdəki diplomatik fəaliyyəti dövründə Azərbaycan və Litva arasındakı münasibətlərin inkişafı istiqamətində göstərdiyi səylərə görə səfir Eqidius Navikasa təşəkkür edib, ona gələcək fəaliyyətində uğurlar arzu edib.

Nazir Ceyhun Bayramov postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, Azərbaycan və Ermənistan arasında normallaşma prosesi barədə qarşı tərəf məlumatlandırıb. Cari ilin iyunun 15-də Laçın sərhəd-buraxılış məntəqəsinə qarşı sərhədçimizin yaralanması ilə nəticələnmiş təxribat törədən Ermənistanın ölkəmiz ilə razılaşdırmadan ərazilərimizə "humanitar yük" adı altında konvoylar göndərməsinin beynəlxalq ictimaiyyəti yanlış yönləndirməyə hesablanmış növbəti təxribat olduğu diqqətə çatdırılıb. Erməni sakinlər üçün daha çox məhsulların tədarükü üçün tərəfimizdən "Ağdam-Xankəndi" yolundan istifadə ilə bağlı təklifin rədd olunmasının məsələnin humanitar deyil, tamamilə siyasi xarakter daşıdığını göstərdiyi vurğulanıb.

Səfir Eqidius Navikas səmimi qəbula görə nazir Ceyhun Bayramova təşəkkür edib.

*Qəzənfər QASIMOV,*
*"Xalq qəzeti"*

# Zakir Həsənovdan Yaşar Gülerə başsağlığı

**Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov Türkiyənin milli müdafiə naziri Yaşar Gülerə başsağlığı ünvanlayıb.**

**Başsağlığında deyilir:** "Bölgədəki terror təhlükəsini zərərsizləşdirmək, ərazidə yaşayan mülki insanları terror hücumlarından və təhdidlərindən qorumaq məqsədilə qardaş Türkiyə Silahlı Qüvvələrinin həyata keçirdiyi "Pençe-Kilit" antiterror əməliyyatlarının aparıldığı bölgədə şanlı türk ordusunun hərbi qulluqçularının şəhid olması və yaralanması xəbərləri məni çox kədərləndirdi.

Sizin kədəriniz bizim də kədərimizdir.

Şəhid hərbi qulluqçulara Allahdan rəhmət diləyir, yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm. Bütün yaralılara Tanrıdan şəfa diləyirəm.

**Allah rəhmət eləsin**".

# İcma: Fransa ikili standartlar siyasətindən çəkinməlidir

**Qərbi Azərbaycan İcması Fransanın bir sıra şəhər və regionlarından toplanmış "yardım"dan ibarət yükmaşınının Ermənistanın Azərbaycanla razılaşdırmadan "humanitar yük" adı altında Qarabağa göndərmək istədiyi avtomobil karvanına qoşulmasını pisləyir. Bu barədə İcmanın bəyanatında deyilir.**

"İslamofobiyanın və Azərbaycanofobiyanın tüğyan etdiyi və son vaxtlar Afrika qitəsində bir-birinin ardınca sarsıdıcı məğlubiyyətlərə uğrayan Fransa Cənubi Qafqaz regionunda gərginliyi artırmaq, onu geosiyasi rəqabət məkanına çevirmək istəyir. Qərbi Azərbaycan İcması Fransa şəhərlərini və regionlarını bu kimi ucuz və gülünc əməllərdən, beynəlxalq hüquqa həqarət olan ikili standartlar siyasətindən çəkinməyə çağırır", – bəyanatda vurğulanır.

# BNN: "Azərbaycan Özbəkistanın beynəlxalq iqtisadiyyata qapısıdır"

**Dənizə çıxışı olmayan Özbəkistan körpü rolunu oynayan Azərbaycan sayəsində dünya iqtisadiyyatına inteqrasiya məqsədlərinə çatır.**

Bu barədə "BNN Breaking" nəşrində dərc olunan "Avropaya doğru addım: Azərbaycan Özbəkistanın beynəlxalq iqtisadiyyata qapısı kimi" adlı məqalədə deyilir.

Qeyd olunub ki, son illər Azərbaycanla Özbəkistan arasında iqtisadi əməkdaşlıq getdikcə daha strateji xarakter alıb: "Özbəkistan Azərbaycanı Avropaya çıxış əldə etmək üçün əsas ölkə kimi nəzərdən keçirir. Söhbət Çin-Özbəkistan-Türkmənistan və Qazaxıstan-Azərbaycan marşrutu üzrə məhsulların Avropa bazarına tədarükündən gedir".

Məqalədə bildirilib ki, iki ölkə arasında əməkdaşlığın ən mühüm aspektlərindən biri hər hansı kommersiya fəaliyyətinin əsasını təşkil edən logistikanın inkişafıdır: "Şərqi Avropa ilə Qərbi Asiyanın kəsişməsində yerləşən Azərbaycan Özbəkistana coğrafi üstünlük verir. Özbəkistan müəssisələri Azərbaycandan keçən nəqliyyat dəhlizləri vasitəsilə öz mallarının Avropa bazarlarına daha sürətli və sərfəli şərtlərlə çatdırılmasını təmin edə bilər".

*"Xalq qəzeti"*

# Azərbaycan MN: Hərbi hissələrin hərtərəfli təminatına xüsusi diqqət yetirilir

**Azərbaycanın Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı nəticəsində ordunun maddi-texniki təminatı yüksək səviyyədə təşkil olunub.**

Bu barədə qəzetimizə Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, ən son texnologiyaya əsaslanan avadanlıqlarla təchiz olunmuş qazanxanalar sayəsində şəxsi heyət daimi isti su ilə, eləcə də camaşırxanalarda quraşdırılan paltaryuyan və quruducu maşınlar vasitəsilə istənilən vaxt təmiz paltar və yataq dəstləri ilə təmin edilir: "Şəxsi heyətin düzgün və keyfiyyətli qidalanması ən vacib məsələlərdən biridir. Bunun üçün hərbi hissələrin yeməkxanalarında hər bir şərait yaradılıb".

Hərbi qulluqçuların xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkili



və aparılması üçün zəruri olan təminat məsələləri daima diqqət mərkəzində saxlanılır", – məlumatda qeyd olunub.

*"Xalq qəzeti"*

# “Biz bu torpaqlarda əbədi yaşayacağıq”

## Yəni bəzi dairələrin terrorçuları Qarabağda saxlamaq cəhdi baş tutmayacaq

**Mənim bir çox xarici həmkarlarımla imzaladığım sənədlərdə Azərbaycanın ərazi bütövlüyünə böyük dəstək göstərilib. Avropa İttifaqı ilə imzalanmış Tərəfdaşlıq Prioritetləri Sənədində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı haqqında xüsusi bənd var. Beynəlxalq təşkilatlar, BMT, onun Baş Assambleyası, Təhlükəsizlik Şurası bizim xeyrimizə, yəni ədaləti əks etdirən qətnamələr qəbul ediblər. Qoşulmama Hərəkatının, İslam Əməkdaşlıq Təşkilatının, ATƏT-in və digər təşkilatların qəbul etdiyi qərarlar bizim mövqeyimizi möhkəmləndirir.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**



**Son günlər Ermənistan rəhbərliyi və onlara “vəkillik edən” bəzi siyasi dairələr Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərin hüquqlarını qorumaq bəhanəsilə oradakı minlərlə silahlı terrorçunun ölkəmizin ərazisindən çıxarılmasına mane olmağa çalışırlar. Tarix boyu yalan, uydurma, mif, saxta sənədlərlə yaşayan ermənilərin bu cəhdini başa düşmək olar. Çünki onlar millət kimi həqiqətən xəstədirlər. Bəs Azərbaycanın ərazi bütövlüyünü məhz 1991-ci ildəki şəkildə tanıyan BMT-nin ekspertləri niyə öz təşkilatlarının əleyhinə gedirlər? BMT Təhlükəsizlik Şurasının üzvü olan Fransa və Rusiya bu qurumun məlum qətnamələrindən xəbərsizdirlərmi? Əsla yox! Sadəcə, öz maraqlarını BMT maraqlarından üstün tutmağa çalışırlar, vəssalam!**

Nikol Paşinyan və onun komandası bütün beynəlxalq təşkilatlarda, siyasi dairələrdə və aparıcı dövlətlərdə olan riyakarları, ikili standartlarla işləyənləri, hətta hansısa ölkənin ərazisində fəaliiyət göstərən QHT rəhbərlərini və ya özfəaliyyət qurumlarını Azərbaycana qarşı çıxarmağa çalışırlar ki, Arayik Arutyunyanın terrorçularının ölkəmizdən çıxarılmasını əngəlləsinlər. Ancaq anlamırlar ki, siyasət aləmi də coğrafi məkan kimidir. Konkret məkanda külək həmişə eyni tərəfə əsmədiyi kimi, siyasi aləmdə də proseslər həmişə eyni istiqamətdə getmir. Ermənilər və onların havadarları hələ də anlamırlar ki, Cənubi Qafqazdakı siyasi prosesləri yeni məcraya yönəldə bilən dövlət də var, onun lideri də. Nikol Paşinyana müxalifətdə olan çoxsaylı siyasətçilər dönə-dönə deyiblər ki, İlham Əliyev nəyi etmək istəyirsə, onu da edəcək. Anlamayan öz bəxtindən küssün.

Yeri gəlmişkən, avqustun 9-da İrəvandan daha bir məlumat aldıq. İşğalçı ölkənin sabiq xarici işlər naziri Vardan Oskanyan öz ölkəsinin rəhbərliyinə xatırladır ki, Azərbaycanla danışıqlar prosesində bizim bircə rıçaqımız qalıb – sülh danışıqları. Başqa yolumuz yoxdur.

“Armİnfo” xəbər portalı yazır ki, Oskanyan bu fikirləri özünün xalqa videomüraciətində səsləndirib. Keçmiş baş diplomat xatırladıb ki, indiki şəraitdə sülh danışıqları prosesi xeyli zəifləyib. Çünki Ermənistan rəhbərliyi Azərbaycanın ərazi bütövlüyünü tanıdığını dəfələrlə təsdiq edib və bu, o deməkdir ki, Qarabağ artıq itirilib. Ancaq Oskanyan ümidlərin ölmədiyini də deyib. Çünki Ermənistan rəhbərliyi Azərbaycanın ərazi bütövlüyünü şifahi şəkildə tanıyıb. Ona görə danışıqlar prosesinə hələ ümid edə bilərik. Oskanyanın fikrincə, Nikol Paşinyanın Praqada səsləndirdiyi “biz Azərbaycanın 86,6 min kvadratkilometr ərazisini tanıyırıq” – deməsi Azərbaycanın əl-qolunu açıb.

Bəli, işğalçı ölkənin siyasi-diplomatik çöküşü onun hərb meydanında da məğlub olmasına gətirib çıxardı. Sonra beynəlxalq aləmdəki dəstəkləri kəsildi. Daha sonra isə istənilən istiqamətdəki addımları dalana dirəndi. Birinci dalan: Rusiyanın başı özünün yaratdığı problemlərə qarışdı. Yəni İrəvana hayan olmaq istəyi bir az soyudu. İkinci dalan: Son otuz ildə Ermənistanın daimi himayədarı və nəfəsverəni olmuş İran indi Türkiyə amilinə görə gündə bir addım geri çəkilir. Rəsmi Tehran Ermənistanın məğlubiyyətindən sonra milyard dollarlarla iqtisadi itkiyə məruz qalsa da, daha əvvəlki kimi ermənipərəst ola bilmir. Üçüncü dalan: Nikol Paşinyana doğma bacı-qardaşdan da yaxın görünən Emmanuel Makron son zamanlar “Mən bacardığımı etdim, indi zaman başqadır” – bəhanəsi ilə Ermənistanı ortada tək qoydu. Dördüncü dalan: Azərbaycanın iqtisadi imkanlarından, təbii sərvətlərindən və geosiyasi – üstünlüklərindən maksimum dərəcədə bəhrələnməyə çalışan Avropa özgə torpaqlarında yaradılmış oyuncaq Ermənistan dövləti ilə bir o qədər də maraqlanmağa cəhd etmir.

Bütün bunlar günün reallıqlarıdır və təbii ki, Ermənistan rəhbərliyi hər şeydən xəbərdardır, ancaq yenə də anti-Azərbaycan koalisiya yaratmaq istəyindən əl çəkmir. Yeri gəlmişkən, ermənilərin bir gün “Artsax respublikası”, o biri gün “Dağlıq Qarabağ respublikası” dedikləri ərazinin tarixi Azərbaycan torpaqları olduğunu bilməyən yoxdursa, onda rəsmi İrəvan Azərbaycandan hansı güzəştləri gözləyir? Üstəlik, ermənilər onu da yaxşı bilirlər ki, Prezident İlham Əliyevin dəfələrlə təkrarladığı “Ərazi bütövlüyü məsələsi heç zaman danışıqların mövzusu olmayıb, deyil və olmayacaq!” – qətiyyəti elə-belə söz deyil. Bu, həqiqətdir. Ona görə də Ermənistanın beynəlxalq aləmdə elan etdiyi anti-Azərbaycan işbirliyi haqqında səfərbərlik heç bir nəticə verməyəcək.

Xatırladaq ki, Prezident İlham Əliyev ötən ilin fevralında Ağdama səfəri zamanı demişdi ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi olmalıdır: “Beynəlxalq hüququn norma və prinsipləri əsasında qarşılıqlı surətdə ölkələrin ərazi bütövlüyünü tanımaq şərtilə bu sülh müqaviləsi imzalanmalıdır. Mən də onu demişəm. Ancaq heç vaxt Azərbaycan xalqı bu vəhşiliyi unutmamalıdır. Heç kim bu vəhşiliyi unutmamalıdır... Biz öz torpağımızdayıq. Biz bu torpağa qan tökərək, şəhidlər verərək qayıtmışıq. Bu torpaqda möhkəm dayanmışıq və bu torpaqlarda əbədi yaşayacağıq. Qarabağ Azərbaycandır!”

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***

# Gürcüstanda erməni təxribatı

**Gürcüstanda fəaliyyət göstərən, ermənipərəst mövqedə olan bir neçə qeyri-hökumət təşkilatı Ermənistan səfirliyi vasitəsilə "Qarabağın erməni sakinləri humanitar böhranla üzləşib" adlı bəyanat yayıblar. Bu bəyanatdan istifadə edən daha 6 qeyri-hökumət təşkilatı – “Sosial Ədalət Mərkəzi”; "Qafqaz evi"; "İnsan Hüquqları Mərkəzi"; "Sülh və Vətəndaş İnkişaf Mərkəzi" (CPCD); “Demokratiya Araşdırmaları İnstitutu” (DRİ); "Müsbət Dəyişiklik üçün İcma" təşkilatı Azərbaycan əleyhinə bəyanat imzalayıblar.**

Ermənipərəst təşkilatların ağ yalanla dolu bəyanatı isə Gürcüstanda fəaliyyət göstərən və sülhü dəstəkləyən QHT-lər və azərbaycanlı ziyalılar, həmçinin saytlar tərəfindən kəskin tənqid olunub. Gürcüstan parlamentinin sabiq deputatı Azər Süleymanov Ermənistan səfirliyi vasitəsilə yayılan bəyanata sərt münasibət bildirib. O, sənədi sərsəm təxribat adlandırıb və qeyd edib ki, bölgədə sülh müqaviləsinin bağlanmaq üzrə olduğu bir vaxtda bu təşkilatlar Azərbaycana qarşı mənfi imic yaratmağa çalışırlar.



Azərbaycandilli saytlar ölkəmizə mənfi münasibət səsləndirən bəyanatın gözə kül üfürmək olduğunu bildiriblər. Qeyd olunub ki, istər Ermənistanda, istərsə də Gürcüstanda yaşayan ermənilər yaxşı bilirlər ki, Ağdam-Xankəndi yolu vasitəsilə humanitar yüklərin daşınmasının qarşısının alınmasında başqa məqsədlər var. Məhz buna görə istər Ermənistan iqtidarı, istərsə də Qarabağdakı qondarma rəhbərlik əhali arasında cürbəcür əhvalatlar uydurub Azərbaycan Prezidentinin irəli sürdüyü sülh müqaviləsinin imzalanması təklifinə bilərəkdən mane olmağa cəhd göstərirlər.

Gürcüstan hakimiyyəti isə dəfələrlə Ermənistan və Azərbaycan nümayəndə heyətləri üçün Tbilisidə görüş təyin etmək və bölgədə əmin-amanlıq yaratmaq məqsədilə hər iki ölkə arasında sülh yaratmağa çalışıb.

Azərbaycan Prezidenti İlham Əliyevin “Euronews” televiziyasına müsahibəsində bu məsələlərə düzgün və cəsarətli cavabları dünyada əks-səda doğurub. Prezident ona verilən sualları cavablandırarkən bildirib ki, biz müharibə istəmirik, biz sülhün tərəfdarıyıq. Heç bir ölkənin torpaqlarında bizim gözümüz yoxdur.

Buna baxmayaraq, Ermənistan Azərbaycan Prezidentinin səsləndirdiyi sülh təkliflərini düzgün qiymətləndirmir. Təəssüf ki, Azərbaycanın sülh yaratmaq təşəbbüsünü qəbul etməyən Ermənistan Azərbaycan sərhədlərində yenə də hərbi təxribatlara əl atır. Gürcüstanda ermənipərəst QHT-lərin yaydığı bəyanat isə bu təxribatların müdafiə olunmasından xəbər verir.

Bütün dünya yaxşı bilir ki, Azərbaycan işğal olunmuş ərazilərini 44 günlük Vətən müharibəsində qalib gələrək azad edib. Tbilisidə erməniyönümlü təşkilatların yaydığı bəyanatda isə sülh müqaviləsinin imzalanmasının ləngidilməsi təbliğ olunur.

Belə çıxır ki, Ermənistan, eləcə də Qarabağda yaşayan ermənilər 44 günlük Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələrinin Qələbəsini hələ də həzm edə bilmirlər. Onlar gənc nəsli başqa cür tərbiyə edir, işğaldan azad olunmuş Azərbaycan ərazilərini Ermənistan torpağı sayırlar.

Qeyd edək ki, Gürcüstanda Ermənistan səfirliyinin yaydığı bəyanat da kəskin tənqid olunub. Gürcüstanda fəaliyyət göstərən "Gürcüstan-Azərbaycan Münasibətlərinin İnkişafı Fondu", "Tatsreli" Fondu, "Gürcüstan - Qafqaz Strateji Araşdırmalar İnstitutu", "Beynəlxalq Münasibətlər və Siyasi Elmlər Akademiyası", "Qələbə – Tərəfdaşlıq Alyansı", "Mülki Müdafiə Liqası" və "Gürcüstan Veteranlar Federasiyası" yaydıqları birgə bəyanatda Azərbaycanı dəstəkləyiblər. Bəyanatda qeyd edilib ki, Gürcüstan iki qonşu ölkə arasında tezliklə sülh müqaviləsinin imzalanmasında maraqlıdır.

***Nizami MƏMMƏDZADƏ,***
***Əməkdar jurnalist***

# Fransız merindən “dəstək”: Ermənistana illüziya, separatçılara pampers

**(əvvəli 1-ci səhifədə)**

Ümumiyyətlə, belə demək mümkünsə, “tır” təşəbbüsünün daha çox Fransanın başının altından çıxdığını təxmin etmək üçün əsaslar çoxdur. Birincisi, Ermənistanın baş naziri Nikol Paşinyan belə bir ideyanı gerçəkləşdirməyə başlar-başlamaz gördük ki, rəsmi Parisin əli ilə Azərbaycan – Ermənistan şərti sərhədinin Ermənistan tərəfinə yerləşdirilmiş Avropa İttifaqının mülki müşahidə missiyasının üzvləri əyinlərində təmsil etdikləri qurumun rəmzinin təsviri olan gödəkçələrlə hadisə yerində “monitorinqə” başladılar. Əlbəttə, onlar çox yaxşı bilirdilər ki, “tırlar” şərti sərhədi keçə bilməyəcəklər. Nəinki keçə bilməyəcəklər, heç qorxularından buna cəhd belə göstərməyəcəklər.

Bəli, plan “tır”ların Həkəri sərhəd postunu keçməsi üzərində deyildi. Əsas məqsəd göstərmək və qara-qışqırıq salmaq idi. İndinin özündə də Ermənistan hakimiyyəti dünyanın müxtəlif ölkələrdən olan diplomatları əraziyə gətizdirib, əllərinə durbin verib şərti sərhədin o biri tərəfinə baxış keçirtdirir. Guya ki, onlar orada nə isə fövqəladə şey görəcəklər. Gələnlər də yalandan başlarını yelləyib gedirlər. Nə etməlidirlər ki? Ermənistan hakimiyyətinin sırtıqlığına candərdi nəzakət jesti göstərməklə kifayətlənməkdən başqa yolları yoxdur. Nəticədə erməni avantürizmi özü üçün, obrazlı desək, ümid toxumları səpir. Fransadan danışırdıq, axı. Bir müddət əvvəl Ermənistan cəmiyyətinin nisbətən normal düşünən kəsiminin nümayəndələrindən biri bildirmişdi ki, Paris özünün qeyri-real, heç bir gerçək əhəmiyyətə malik olmayan dəstək jestləri və hərəkətləri ilə Ermənistana böyük ziyan vurur. Çünki hər dəfə yalançı dəstəklərdən, saxta təəssüf nümayişindən sonra Paşinyan administrasiyasının təmsilçiləri yeni illüziyalara qapılırlar. Həmin illüziyalara uyğun davranışlar isə Azərbaycanın əks addımlarına səbəb olur və Ermənistan ziyan görür. Yəni, İrəvan Parisin ucbatından zərərə uğrayır.

Zərər və ziyandan söz düşmüşkən, onu da deyək ki, Ermənistan Rusiyaya görə bu aqibətlə üzləşmək istəmədiyini aylar əvvəl açıq şəkildə bəyan etmişdi. N.Paşinyan Moskvanın hakim rol oynadığı və Ermənistanın da üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının ölkəsində hərbi təlimlər keçirməsinə qarşı çıxmışdı. Qərarını belə əsaslandırmışdı ki, KTMT hərbçiləri gəlib təlim keçirib çıxıb gedəcəklər. Azərbaycan bunu özünə təhlükə görüb, əks addımlar atacaq ki, bu da İrəvan üçün pis nəticələr doğuracaq. Deməli, məsələ hakimiyyətin seçimindədir. Seçim Fransadır, zərər isə qaçılmazdır. Ancaq Paşinyan iqtidarı bunu anlamayacaq qədər iflic durumdadır.

Bəli, hazırda Azərbaycan – Ermənistan münasibətləri kontekstində yaşananlar, o cümlədən haqqında söz açdığımız “tır şousu” Bakı-İrəvan danışıqlarının, xüsusən də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə hər iki ölkə liderlərinin iyulda Brüsseldə keçirilmiş görüşünün pozitiv ovqatı ilə tərs-mütənasibdir. Fransa ötən ilin sonlarına doğru Mişelin vasitəçiliyini bölgədə Aİ müşahidəçiləri yerləşdirməklə necə pozmuşdusa, indi də “tır şousunun” monitorinqini aparmaqla və beynəlxalq ictimaiyyətə yanlış siqnallar ötürməklə, eyni əməli gerçəkləşdirir.

***

Gələk, Fransanın Valens şəhərinin meri Nikola Daraqonun söylədiklərinə. Daraqon bildirib ki, Qarabağı və erməni xalqını dəstəkləməyə davam edəcəklər. Guya, bu dəstək bölgədə 1915-ci il hadisələrinin təkrarlanmasının qarşısını almaq naminədir. Çox güman ki, söhbətin saxta “erməni soyqırımı” iddiasından getdiyinin fərqinə vardınız...

Beynəlxalq strukturların vəziyyətə münasibətdə, guya, hərəkətsiz dayandığını dilə gətirən Valens merinin sözündən belə çıxır ki, Fransa Prezidenti Emmanuel Makronun durumu normallaşdırmaq cəhdləri yetərli olmadığından, yeni fəaliyyət istiqamətləri tapmaq lazımdır. Hansı fəaliyyət istiqamətləri, əlbəttə ki, Daraqon bunu bilmir, bilmək də istəmir. Həm də mer fəaliyyət dedikdə, böyük ehtimalla yeni həyasızlıq elementlərinin müəyyənləşdirilməsini nəzərdə tutur. Bir halda ki, beynəlxalq strukturların işi qənaətbəxş (?) deyil, deməli, gücü həyasızlığa vermək lazımdır ki, əslində, fransız merin “news.am”a açıqlaması bu “xarakterin” nümayişindən başqa bir şey deyildi.

Valens meri həyasızlığa baş vurarkən, özünün bu ilin aprelində Laçın-Xankəndi yoluna yaxın ərazidə müşahidə apardığını da yada salıb. Onun sözlərinə görə, həmin vaxt Rusiya buna çox pis reaksiya verib. Daraqonun çərənləmələrinin kulminasiya nöqtəsi də onun Moskvanın əleyhinə danışmasıdır. O deyib ki, Rusiya Ukrayna müharibəsinə fokuslanıb, mövcud səbəbdən ölkənin sülhməramlıları ilə Qarabağ erməniləri müstəvisində hansısa dialoq aparmaq mümkün deyil və hazırda onlar bölgənin erməni əhalisinin təhlükəsizliyini təmin etmək öhdəliyini üzərlərinə götürmürlər.

N.Daraqonun bu fikirlərinə Rusiyanın müvafiq qurumları hansı cavabı verəcək və ya cavab verəcəkmi, bu barədə söz açmaq istəməzdik. Çünki prinsip etibarilə, mümkün cavabın hansı tərzdə olacağı o qədər də maraqlı deyil. Həm də ona görə maraqlı deyil ki, Qarabağda sülhməramlı kontingentlə təmsil olunan Rusiyanın bölgə ilə bağlı öz oyunu var və bu oyunun ən müxtəlif qeyri-səmimi, əslində, erməni avantürizminə dəskət mahiyyəti daşıyan elementlərini görmüşük.

Başlıca məqamlardan biri Daraqonun Azərbaycan üçün, belə demək mümkünsə, məqsəd müəyyənləşdirməsidir. Onun sözlərindən belə qənaət hasil olur ki, ölkəmiz Zəngəzura hücum təhlükəsini qabartmaqla, Laçın dəhlizini tamamilə ələ keçirmək niyyətindədir.

***

Əlbəttə, Valens merinin nələrisə səhv salması mümkündür. Hətta Laçın dəhlizi məntiqindən danışması onun ermənipərəst mövqeyi nəzərə alınmaqla, başadüşüləndir. Adam nə isə deməlidir və deyir də. Ancaq bu qədərmi küt formada? Qəribəsi budur. O, başa düşmür ki, Azərbaycanın Laçın – Xankəndi yolunun başlanğıcında Həkəri çayı üzərindəki körpüdə təsis etdiyi sərhəd nəzarət-buraxılış məntəqəsi Laçın dəhlizi məntiqini tarixin arxivinə gömür. Artıq dəhliz-məhliz yox, şərti sərhəd var. Daraqon və onun kimilər onu da anlamırlar ki, hazırda həyata keçirdikləri “ermənipərəst” fəaliyyət həmin şərti sərhəd amilini də sıradan çıxaracaq.

İndiki halda vacib olan şərti sərhədi gerçək sərhədə çevirməkdir. Digər ərazilərdə də sərhəd zolağının leqallaşması vacibdir. Bunun üçün isə Azərbaycan və Ermənistan arasında normal danışıqlar getməlidir, hansısa çərənləmələr keçərsizdir. Daraqon və digər ermənipərəstlər çərənləmələri danışıqlardan daha ön plana daşıyırlar. Nəticədə Paşinyan hakimiyyətində illüziyalar dərinləşir, reallıq hissi tamamilə itirir. Bu durumda Ermənistan cəmiyyətində şovinist, anarxist və revanşist meyillər də güclənir. Belə qəbuledilməz tendensiyanın vüsət alması öz növbəsində yeni müharibə riskini formalaşdırır. Bəli, Daraqonu bu anlamda haqlı saymaq mümkündür. Çünki yeni müharibə başlasa, əvvəlki şərti sərhəd anlayışı qalmayacaq. Bu isə o deməkdir ki, Ermənistan adlı dövlətin də mövcudluğu sual altına düşəcək.

***Ə.CAHANGİROĞLU,***
***“Xalq qəzeti”***

# Moreno Okampo cəfəngiyyatı, yaxud Paşinyan-Kardaşyan "dueti"nin zay məhsulu

## *Ermənistan hakimiyyəti Qarabağda "erməni soyqırımı" yalanını hüquqiləşdirməyə girişib*

**(əvvəli 1-ci səhifədə)**

O İsraelyanın ki, Berkli şəhərinin Kaliforniya Universitetində təhsil görüb və hazırda ABŞ-dakı Ümumerməni Xeyriyyə İttifaqının (AGBU) mərkəzi şurasında yer alır. Onun erməni irsinin qorunması istiqamətində çalışdığı da məlumdur. Ən əsası isə İsraelyan Kardaşyanlar ailəsinə mənsub Robert Kardaşyanla birgə Kaliforniya Universitetində sağlam qida mərkəzinin açılışı layihəsi üzərində işləyib.

Deməli, Okampo cəfəng hesabatını, məhz Kardaşyan-İsraelyan "dueti"nin sifarişi əsasında hazırlayıb. Yəni, Qarabağ erməniləri ilə bağlı hazırda cərəyan edən proseslərə bu ikilinin istəyi ilə, belə demək mümkünsə, hüquqi rəy verib və bu qənaətə gəlib ki, Azərbaycanın Laçın yolu üzərində nəzarət tətbiqinə dair tədbirləri, guya, "erməni soyqırımı"-dır. Bəs, nəyə görə sifariş ritorikasından söz açırıq? Nə üçün ağlımıza məhz bu gəlir? Cavab Okamponun tərcümeyi-halındadır.

***

Deməli belə. Luis Moreno Okampo, kifayət qədər qalmaqallı hüquqşünasdır. 2017-ci ildə Fransanın rəqəmsal "Mediapart" nəşri naməlum mənbələrdən Morenonun bütün elektron poçt yazışmalarının surətini əldə etməyə müvəffəq olmuşdu. Almaniyanın "Der Spiegel" nəşri isə bu materiallar əsasında müəyyənləşdirmişdi ki, ekspert 2003-cü ildən bəri Argentinada vergi vermir.

Məsələ burasındadır ki, alman nəşri Moreno Okamponun ofşorlarda hesab və kampaniyalarının olduğunu üzə çıxarmışdı. Onun özü də həmin qeyri-leqal zonalarda "işlədiyini" etiraf etmək məcburiyyətində qalmış və demişdi ki, Argentinada yaşamadığı üçün vergi ödəmir. Bu da tanınmış hüquqşünas. Daha doğrusu, hüquqi dələduzluq.

Elə sözügedən tədqiqat əsasında Avropanın jurnalist şəbəkəsi olan EIC xəbər vermişdi ki, Moreno Okamponun Hasan Tatanaki adlı müştərisi olub. Tatanaki liviyalı maqnat idi və ölkəsindəki hərbi cinayətlərdə ittiham edilirdi. Necə alındısa, Beynəlxalq Cinayət Məhkəməsi heç vaxt maqnatı qeyri-insani əməllərdə şübhəli bilmədi. Əlbəttə, bu, Moreno Okamponun 2012-ci ilədək çalışdığı qurumdakı baş prokuror "fəaliyyətinin" nəticəsi idi və jurnalist şəbəkəsi də məhz mövcud məqamı vurğulamışdı.

Qaranlıq hüquqi fəaliyyətdə ad çıxarmış Luis Moreno Okamponun daha bir kriminal dələduzluğunu isə "Sunday Times" nəşri üzə çıxarmışdı. Nəşr müəyyənləşdirmişdi ki, Beynəlxalq Cinayət Məhkəməsindən çıxan elektron məktublarda Moreno məşhur kino ulduzu Ancelina Coli və çox güman, onun o zamankı həyat yoldaşı, tanınmış aktyor Bret Pittin köməyi ilə uqandalı hərbi rəhbər Cozef Konini nahara dəvət etmək istəmişdi. Məqsədin həmin əsnada ikincinin həbsi olduğu bildirilsə də, Okamponun uqandalı ilə gizli danışıq aparmaq istəməsinə dair şübhələr də dolaşmaqdadır.

***

Ümumən, Okampo karyerası ərzində dünyanın ayrı-ayrı yerlərində baş vermiş hadisələrin "soyqırımı" cinayəti kimi qiymətləndirilməsi üzrə çalışan şəxs olaraq ad çıxarıb. Onun fəaliyyətinin müxtəlif oliqarx kriminal dairələrlə iç-içə olduğu təsəvvürü formalaşır ki, bu təsəvvür çərçivəsindəki epizodlardan yuxarıda söz açdıq. Hazırda Okampo eyni fəaliyyətini hüquq şirkətlərində davam etdirir və daha çox müxtəlif olayların Beynəlxalq Cinayət Məhkəməsi müstəvisinə çıxarılmasını həyata keçirir. Əlbəttə, işini təmənnasız görmür. Təmənna predmeti olan maliyyə isə Kardaşyan-İsraelyan "birliyin"də nə qədər lazımdırsa, o qədər də var...

İsraelyandan söz düşmüşkən, onu da bildirək ki, erməni əsilli amerikalı professor 2019-cu ildə Ermənistan baş naziri Nikol Paşinyanın başlatdığı ümumerməni çağırışına qoşulduğunu bəyan etmişdi. Bu çağırışın "yeni ərazilər naminə yeni müharibə" kimi yaramaz şüarlar doğurduğunu, "Qarabağ Ermənistandır və nöqtə" bəyanatının verilməsi ilə aktuallaşdığını yaxşı bilirik. Onu da bilirik ki, Paşinyanın start verdiyi "erməni qladiatorluğu" 2020-ci ilin 44 günlük müharibəsi nəticəsində əzildi və acınacaqlı aqibət yaşadı.

***

Yeri gəlmişkən, bildirək ki, erməni avantürizmində Paşinyan-Kardaşyan "dueti" fəal rol oynayır. Professor İsraelyanın həmin fəallığın üçüncü qütbündə dayandığını söyləyə bilərik. Deməli, belə qənaətə gəlmək olar ki, Luis Moreno Okamponun hazırladığı "hesabat" Ermənistan hakimiyyətinin beynəlxalq ictimaiyyəti erməni yalanları ilə doldurmaq niyyətinin növbəti zay məhsuludur. Söhbət ki, zay məhsuldan düşdü, "Mat Tereza" Kardaşyanın sosial şəbəkə hesabındakı paylaşımına diqqət yetirək. Bəli, bildirdik ki, Kardaşyan İsraelyanın fikirlərini bölüşüb. Həmin fikirlərdə isə eyni zamanda, Azərbaycan hökumətinin regionu xristian ermənilərdən təmizləmək üçün neft və qaz rıçaqlarından istifadə etdiyinə dair sərsəm ideyalar yer alıb.

Göründüyü kimi, erməni avantürizmi Qarabağ erməniləri ilə bağlı məsələyə dini zəmin qazandırmaq kimi təhlükəli gedişə əl atıb. Bu gedişin bir neçə gün öncə Laçın yoluna doğru İrəvandan yürüş gerçəkləşdirən "Xaçlılar" hərəkatı timsalındakı bir "nümunəsindən" ötən sayımızda söz açmışdıq. Hazırda Kardaşyanın yadına xristianlıq düşüb. Necə deyərlər, o, indi də əlinə xaç alıb düşüb ortaya...

*Ə.RÜSTƏMOV,*
*"Xalq qəzeti"*

**"Environmental Protection First" Koalisiyası Ermənistanın Ətraf Mühit Nazirliyinin iki dövlət sərhədində yerləşən Vedibasar (Ararat) rayonunun Arazdəyən (Yerasx) ərazisində tikilməkdə olan metallurgiya zavodu ilə bağlı yaydığı cavab bəyanatını qınadığını bildirib.**

# Koalisiya Ermənistanda metallurgiya zavodu tikən şirkətləri insan hüquqlarına riayət etməyə çağırır



Koalisiyanın bəyanatında Ermənistanın sözügedən irimiqyaslı metallurgiya zavodunun tikintisi ilə beynəlxalq səviyyədə qəbul edilmiş standartlara və prinsiplərə, xüsusən də Transsərhəd Kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi üzrə BMT-nin Avropa İqtisadi Komissiyası Konvensiyasının (Espo Konvensiyasının) tələblərinə açıq şəkildə məhəl qoymadığı vurğulanır. Eyni zamanda, Koalisiya bəyanatda Espo Konvensiyasinın ekoloji problemlərin milli sərhədlərdən kənardakı ərazilərə də təsirini qəbul etdiyini xatırladaraq birdən çox ölkənin təsirləndiyi müəyyən vəziyyətlər üçün beynəlxalq dialoqun vacibliyini vurğulayır.

Bəyanatda daha sonra deyilir: "Azərbaycan tərəfi ilə qarşılıqlı razılaşma olmadan sərhəd boyu ərazidə belə bir obyektin tikintisi transsərhəd situasiyalarda ətraf mühitə təsirin qiymətləndirilməsinə yönəlmiş 1991-ci il Espo Konvensiyasının tələblərinin açıq şəkildə pozulması deməkdir. Həm Azərbaycan, həm də Ermənistan bu Konvensiyanı ratifikasiya ediblər. Espo Konvensiyasının təlimatlarına uyğun olaraq, tikinti ilə bağlı Ətraf Mühitə Təsirlərin Qiymətləndirilməsi sənədi tikinti olan əraziyə yaxın olan Azərbaycan ərazisində yaşayan sakinlərin, eləcə də ekofəalların rəyi nəzərə alınmaqla, Azərbaycanın müvafiq qurumları tərəfindən araşdırılmalıdır".

"Environmental Protection First" Koalisiyasının yaydığı bəyanatda haqlı olaraq qeyd edilir ki, belə bir böyük zavodun tikintisi nəticəsində transsərhəd kontekstdə yaranan ətraf mühitə müdaxilə ilə bağlı Ermənistan Azərbaycanın heç bir qurumu və ya təsirə məruz qalan əhali ilə kommunikasiya qurmayıb. Məşhur ekoloq Garrett Hardin qeyd edirdi ki, bütün su axarlarının çirklənmə təhlükəsi var, ümumi torpaqlardan istifadə hüququnun qanunlara əsasən idarəolunması və aidiyyəti şəxslərin təmkinli şəkildə qarşılıqlı razılaşma əldə etməsi vacibdir. Əks halda, bu, "hamı üçün facia"yə çevriləcək.

Ermənistan tərəfinin cavabı əməkdaşlığı inkar etmək, Espo Konvensiyasının tələblərini pozmaq və mövzudan yayınmaqdır. Ermənistan tikinti ilə bağlı dialoq və qərar qəbuletmə proseslərində fəal iştirak etmək, zərərin həcmini ölçmək və potensial həllərin müəyyən edilməsi üçün beynəlxalq QHT-lər və region ölkələrinin vətəndaş cəmiyyəti nümayəndələrini (Azərbaycan və Gürcüstandan olan QHT-lər də daxil olmaqla) cəlb etməli, eləcə də texniki ekspertiza, monitorinq və qiymətləndirmə aparmaq üçün əlverişli mühit yaratmalıdır.

*"Xalq qəzeti"*

# İrəvanda ara qarışa bilər

## *"GALLUP"un sorğusu paytaxt meri seçkilərinin saxtalaşdırılacağı barədə proqnoz verdi*

**Sentyabrın 17-də İrəvan şəhər meri vəzifəsinə seçki keçiriləcək. Ermənistan paytaxtında merin hansı siyasi düşərgəyə mənsub olması ölkə hakimiyyəti üçün mühüm əhəmiyyət kəsb edən məsələdir. Belə ki, paytaxtı "ələ keçirən" siyasi qüvvə hökuməti onunla hesablaşmağa məcbur etmək gücündədir. Hesablaşmayacağı təqdirdə isə hökumətin işini sabotaj edə bilər. Bu baxımdan baş nazir Nikol Paşinyanın lideri olduğu "Vətəndaş sazişi" partiyası seçkidə nəyin bahasına olursa-olsun qalib gəlməyə çalışacaq.**



Seçki günü yaxınlaşdıqca onunla bağlı İrəvanda keçirilən müxtəlif rəy sorğuları da açıqlanır. Belə sorğulardan birini mərkəzi ofisi Vaşinqtonda yerləşən ABŞ-ın "GALLUP International Association" analitika və məsləhət şirkətinin Ermənistan nümayəndəliyi keçirib. Yeri gəlmişkən, qeyd edək ki, 1935-ci ildə Corc Qallup tərəfindən əsası qoyulmuş şirkət bütün dünyada apardığı ictimai rəy sorğularının obyektiv, qərəzsiz və etibarlı olması ilə tanınıb. Şirkətin Ermənistan nümayəndəliyinin rəhbəri Aram Navasardyan keçirdiyi mətbuat konfransında sorğunun nəticələrini açıqlayıb. Bildirib ki, rəy sorğusu iyulun 27-dən avqustun 5-dək 809 respondent arasında keçirilib.

Sorğu zamanı vətəndaşlara "İrəvan meri seçkiləri ədalətli keçiriləcəkmi" sualı verilib. Respondentlərin 16,1 faizi "mütləq hə", 28,9 faizi "yəqin ki, hə", 19,5 faizi "yəqin ki, yox", 32,1 faizi "qətiliklə yox" cavabını verib.

Sorğuda iştirak edən İrəvan sakinlərinin 9,3 faizi hakim "Vətəndaş sazişi" partiyasının namizədi, bu partiyanın yaradıcılarından və ölkənin baş nazirinin sabiq müavini olan Tiqran Avinyana, 3,7 faizi Hayk Marutyana, 2,8 faizi "Ermənistan" blokuna, 2,2 faizi "Ermənistan Avropa Partiyası"na səs verəcəyini bildirib. Rəyi soruşulanların 2,2 faizi Mane Tandilyana, 2 faizi isə David Xazakyana, 1,4 faizi "İctimai səs" partiyasının sədri Artak Qalstyana, 1,2 faizi Respublika Partiyasına, 1,1 faizi Viktor Mnatsakanyana, 0,9 faizi Artak Zeynalyana, 0,7 faizi Natalya Rotenberqə səs verməyə hazırdır.

Maraqlıdır ki, respondentlərin 19,2 faizi seçkilərdə iştirak etməyəcəyini, 11 faizi namizədlərdən heç birinə səs verməyəcəyini bildirib. Bunun özü də vacib faktor hesab oluna bilər. Görünür ki, artıq Ermənistan əhalisi namizədlərin seçkiqabağı dövrdə verdikləri vədlərin yerinə yetirilmədiyini görərək, siyasi proseslərə biganəlik nümayiş etdirməyə başlayıb.

***

Bu arada İrəvanın keçmiş meri Hayk Marutyan seçkidə iştirak etməsi ilə bağlı yayımladığı videoda həm qərarının səbəblərini açıqlayıb, həm də hakimiyyəti sərt tənqid edib. Xüsusən də parlamentin sədri Alen Simonyanı hədəfə alıb. "Bizim komandanın böyük pulu, öz oliqarxları, mediası, inzibati rıçaqları yoxdur. Siz, irəvanlılar, bizim yeganə sərvətimizsiniz", – deyə Hayk Marutyan bildirib. Sabiq mer komanda yoldaşlarının kim olduğu barədə ətraflı məlumat verməyib.

Qeyd edək ki, İrəvan meri vəzifəsinə 2018-ci il sentyabrın 23-də keçirilən növbədənkənar seçkilər nəticəsində Hayk Marutyan şəhərin meri olub. 2022-ci ilin dekabrında İrəvan Ağsaqqallar Şurasının "Mənim addımım" fraksiyası Marutyana etimadsızlıq nümayiş etdirib. Merin səlahiyyətləri onun birinci müavini Hraçya Sarkisyana həvalə olunub.

"Erməni İnqilabi Federasiyası – "Daşnaksütyun" partiyası isə İrəvan meri vəzifəsinə keçirilən seçkidə iştirak etməyəcəyini bildirib. Partiyanın ali orqanının yaydığı bəyanatda deyilir ki, seçki "Ermənistan və Artsax respublikalarının", erməni xalqının üzləşdiyi mürəkkəb geosiyasi çağırışlar və təhlükələr şəraitində keçirilir: "Əvvəldən bizim yanaşmamız belə idi ki, müxalifət seçkidə vahid siyahı ilə iştirak etməlidir. Bu format həyata keçirilə bilmədiyi üçün "Daşnaksütyun" seçki üçün öz proporsional siyahısını irəli sürməyi məqsədəuyğun hesab etmir".

Bundan əvvəl isə Ermənistan Respublika Partiyası seçkilərdə iştirak etməyəcəyini açıqlamışdı.

"Joxovurd" qəzeti isə öz mənbələrinə istinadən yazır ki, "Vətəndaş sazişi" partiyasının seçki qərargahının rəhbərinin müavinləri ilə bağlı məsələ mübahisə predmetinə çevrilib: "Bildiyiniz kimi, "Vətəndaş sazişi"nin seçki qərargahına Fövqəladə Hallar Nazirliyinin keçmiş rəhbəri Armen Pambuxçyan rəhbərlik edəcək, ancaq seçki kampaniyasının koordinasiyasında ona kimlərin kömək edəcəyi qərarı verilməyib. Məsələ ondadır ki, bir tərəfdən merliyə namizəd Tiqran Avinyan öz yaxınlarını bu vəzifələrə yerləşdirməyə, digər tərəfdən isə Armen Pambuxçyan özünün sadiq dostlarını təyin etməyə çalışır".

Qeyd olunur ki, Avinyan seçki qərargahının rəhbərinin müavini vəzifəsinə Armen Qalçyanı, Pambuxçyan isə öz yaxın dostu, "Vətəndaş sazişi" fraksiyasının deputatı Vilen Qabrielyanı təyin etmək istəyir. "Bu mübarizənin necə bitəcəyinə Nikol Paşinyan qərar verəcək", – deyə qəzet yazır.

Göründüyü kimi, seçki yaxınlaşdıqca, Ermənistanda siyasi hərarət də yüksəlir. Bu isə son illərdə dəfələrlə qarşıdurma, toqquşma meydanına çevrilən İrəvanın yenidən bu aqibəti yaşayacağı riskini artırır. Seçki saxtalaşdıralacağı təqdirdə paytaxt əhalisinin küçələrə tökülərək öz etirazını bildirəcəyi şübhəsizdir. Onsuz da xalq arasında böyük nüfuza malik olmayan N.Paşinyan hazırda dilemma qarşısındadır: seçkini saxtalaşdırmasa müxalifət namizədi qalib gələ, saxtalaşdırsa xalqın ciddi etirazı ilə üzləşə bilər. Onun bu vəziyyətdən necə çıxacağını qarşıdakı dövr göstərəcək.

*Səxavət HƏMİD,*
*"Xalq qəzeti"*

**Ekspert rəyi**



**Zaur Məmmədov, politoloq**

– Təkcə "GALLUP"un deyil, digər sosioloji rəy sorğularının da nəticələrinə görə, Tiqran Avinyanın və Hayk Marutyanın seçkidə daha çox səs ala biləcəyi ehtimal olunur. Hazırda onlara qarşı müxalifət mediasında ciddi kampaniya aparılır, onlar təzyiqlərə məruz qalır. Eyni zamanda, müxalifət mediası tərəfindən onların şəxsi həyatlarının ictimailəşdirilməsi prosesinə, belə deyək, start verilib. Onların həyat tərzi, əyləncə məclislərində iştirakları ilə bağlı biz fotoşəkillərin, müxtəlif sosial şəbəkələrdə yayılmasına şahidlik edirik.

Amma ümumi götürdükdə sorğunun nəticələri də göstərir ki, irəvanlılar hələ tam olaraq kimə səs verəcəklərini müəyyənləşdirməyiblər. Hakim partiyanın və onlara yaxın olan dairələrin namizədləri hazırda üst-üstə 15-20 faizi keçə bilmirlər. Bu, çox aşağı göstəricidir. Biz bundan əvvəl İrəvanda keçirilən seçkinin nəticələri ilə müqayisə apardıqda bunu görə bilərik. Əvvəlki seçkilərdə hakim partiyanın namizədi seçki ərəfəsində minimum 35-40 faiz səslə öndə olurdu.

Görünən odur ki, seçkiyə həm iqtidar, həm də müxalifət ciddi yanaşır. Ona görə ki, qarşıdakı dövrdə Ermənistanda keçiriləcək parlament seçkilərinin nəticəsi, həm də, sentyabrın 17-də İrəvan şəhər meri vəzifəsinə keçirilən seçkinin aqibətindən asılı olacaq. Ölkənin paytaxtı, demoqrafik baxımdan ən böyük şəhər olan İrəvanda toplanan səslər olduqca mühüm əhəmiyyət daşıyır.

Ümumiyyətlə, baş nazir Nikol Paşinyan ölkəsində keçirilən bu və ya digər seçkiləri demokratik seçkilər adlandırır və Ermənistanı demokratik dövlət kimi qələmə verməyə çalışır. Əslində isə bu seçkilər onun nəticələrinə ciddi şəkildə təsir etmək metodlarından istifadə olunduğunu göstərir. Hadisələrə obyektiv yanaşan istənilən şəxs bunu görə bilər. Seçkidə yüksək səs toplaya biləcək namizədlər sıxışdırılır və biz onların təzyiqlər nəticəsində namizədliklərini geri götürmələrinə şahidlik edirik. Yəni, bu, Ermənistanda sınaqdan çıxmış siyasi texnologiyadır. Orada seçkilərin nəticələrinə müxtəlif vasitələrlə təsir edirlər. Paşinyan rəqiblərinin qarşısını rüşvətxorluq, çirkli pulların yuyulması və digər xoşagəlməz üsullarla alır. Ancaq görünən odur ki, İrəvan sakinləri daha Paşinyanın öz rəqibləri ilə bu metodlarla mübarizə aparmasına dözmək niyyətində deyil.

Bütün bunları ümumiləşdirdikdə sentyabr ayında haylar arasında qızğın siyasi mübarizənin baş verəcəyini gözləmək olar. Biz daha çox küçə yürüşlərinin və mitinqlərin şahidi ola bilərik. Əgər seçkilər saxtalaşdırılacaqsa, dinc mitinq və yürüşlərin xarakteri də dəyişərək qarşıdurma xarakteri ala, iğtişaşa çevrilə bilər. Biz bunun örnəyini hələ 2008-ci ilin martında görmüşük. Həmin iğtişaşlar zamanı 10 nəfər həlak olmuş, 230 nəfər yaralanmışdı. İndi isə müxalifət başa düşür ki, onlar üçün hakim partiyanı və şəxsən Nikol Paşinyanı zəiflətmək üçün əllərinə yaxşı fürsət düşüb. Əgər müxalifət İrəvanın meri seçkisini qazana bilməsə, o zaman çətin ki, yaxın perspektivdə siyasi hakimiyyətə gələ bilsin.

## Akademik Vladimir LUKYANENKO:

# Heydər Əliyev görkəmli rəhbər, xalqını ürəkdən sevən əsl vətənpərvər idi

**Ukraynanın qocaman müəssisəsi olan M.Frunze adına "Sumı Elmi-İstehsalat Birliyi" ASC-nin 110 illik yubileyində ölkəmizi "Azərikimya" İstehsalat Birliyinin, "Azəriqaz" Səhmdar Cəmiyyətinin və "Azəriqaznəql" İstehsalat Birliyinin nümayəndələri təmsil etmişdilər. Maraqlıdır ki, yubiley tədbirindən əvvəl dünyanın müxtəlif ölkələrindən gəlmiş qonaqları qəbul edən maşınqayırma müəssisəsinin baş direktoru, texnika elmləri doktoru, akademik Vladimir Matveyeviç Lukyanenko hər bir nümayəndə heyəti ilə ayaqüstü – cəmi 3-5 dəqiqə görüşdüyü halda, Azərbaycandan gəlmiş qonaqları daha yüksək səmimiyyətlə qarşılayaraq, onlarla yarım saatdan artıq söhbət etmişdi. Sən demə, bunun əsas səbəbi xalqımızın dahi rəhbəri Heydər Əliyev şəxsiyyətinə onun xüsusi ehtiramı imiş. Akademik həmin gün ulu öndərimiz haqqında ən isti ürək sözlərini, yüksək fikirlərini, dahi rəhbərlə görüşləri ilə bağlı işıqlı xatirələrini dilə gətirmişdi.**



Vladimir Lukyanenko kimdir? 1937-ci ildə dünyaya gəlib. 1961-ci ildə ali məktəbi bitirdikdən sonra M.Frunze adına Sumı Elmi-İstehsalat Birliyində usta köməkçisi kimi əmək fəaliyyətinə başlayıb. Sonra baş usta, sex rəisi, baş mühəndis və baş direktor vəzifələrində çalışıb. 1986–1989-cu illərdə – Heydər Əliyev SSRİ Nazirlər Soveti Sədrinin 1-ci müavini olan dövrdə o, SSRİ Neft və kimya maşınqayırması sənayesi naziri vəzifəsində çalışmışdır. Ukraynanın Mühəndis Elmləri və Kibernetika Elmləri akademiyalarının akademiki, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət Mükafatı laureatı və Ukraynanın






Milli Qəhrəmanıdır. Neft və kimya maşınqayırması sənayesinin inkişafındakı böyük xidmətlərinə görə SSRİ-nin və Ukraynanın ən yüksək orden və medallarına layiq görülmüşdür.

Akademikin xatirələrindən bir qismini təqdim edirik:

– 1986-cı ildə SSRİ-nin Neft və kimya maşınqayırması sənayesi naziri təyin olunmuşdum. Mənim üçün çox xoş idi ki, bu sahəyə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi məhz Heydər Əliyev nəzarət edirdi.

Çox prinsipial, qətiyyətli və işgüzar bir rəhbər, yüksək daxili enerjiyə, iti zəkaya və düşüncəyə malik geniş intellektli bir adam olduğu haqqında müəyyən məlumatım olsa da, hələ görüşməmişdik. Bir gün məni yanına dəvət etdi. Gülərüzlə qarşıladı və rəhbərlik etdiyim nazirliyin işi, problemləri ilə maraqlandı. Dedi ki, Siz SSRİ-nin maşınqayırma sənayesinin ən vacib sahələrindən birinə rəhbərlik edirsiniz, orada isə hələ istifadə olunmamış böyük potensiallar var.

Və o, bizim nazirliyin fəaliyyətində elə ciddi sahələrə və məqamlara toxundu ki, düzü, bundan yalnız sahənin yüksək ixtisaslı və səlahiyyətli rəhbərlərinin xəbəri ola bilərdi.

Mən həqiqətən hiss etdim ki, bu şəxs heç də Siyasi Büronun qabaqcadan hazırlanmış yazılı çıxışlara əsasən danışan, mövzunun qoyuluş çərçivəsindən kənara çıxanda çaşıb qalan hər hansı bir üzvü deyil, geniş təfəkkürə, çevik düşüncəyə, möhkəm özüllü dərin və hərtərəfli biliyə malik, erudisiyalı bir rəhbərdir. Onun hər bir sözü, cümləsi konkret fikirlə yüklənmişdi. Bu sözlər, fikirlər mənə hər vaqonu, hər bir sisterni qiymətli məhsulla dolu olan ağır yük qatarlarını xatırladırdı.

Heydər Əliyev nazirliyə dair bəzi təklif və mülahizələrini bildirdikdən sonra dedi:

– Vladimir Matveyeviç, bilirsiniz ki, mən neçə illər Azərbaycana rəhbərlik etmişəm, respublikanın iqtisadiyyatının qaldırılması üçün bir çox geniş miqyaslı, səmərəli tədbirlər həyata keçirilib. Ancaq mənə elə gəlir ki, respublikanın maşınqayırma sənayesində hələ istifadə olunmamış xeyli potensial var, ancaq, təəssüf ki, Bakıdakı müəssisələrin maşın parkı bugünün tələblərinə uyğun deyildir. Sizdən xahiş edirəm, vaxt tapıb, Azərbaycana gedəsiniz, respublikanın maşınqayırma kompleksinin vəziyyəti və fəaliyyəti ilə daha yaxından, bilavasitə tanış olub, fikir və təkliflərinizi mənə bildirəsiniz. Bu, son dərəcə vacibdir, çünki Bakı və Sumqayıtda neft-kimya sənayesi sürətlə inkişaf edir, maşınqayırma sənayesi də ona paralel irəliləməlidir.

– Baş üstə, Heydər Əliyeviç, – dedim. Həmin anda onun əsl insanlıq göstəricisi olan sadəliyi, səmimiyyəti büsbütün fikrimə hakim kəsilmişdi. Axı elə ali vəzifədə çalışan adam "xahiş edirəm" demədən də öz rəsmi göstərişini verə bilərdi və işin tam yerinə yetirilməsi üçün bu, kifayət idi. Ancaq, yəqin ki, yüksək elitar mədəniyyəti, sadəliyi və səmimiyyəti onu amiranə tərzdə danışmağa qoymurdu.

Şübhəsiz ki, bir müddət sonra mən Heydər Əliyevin tapşırığına əməl edərək, ilk dəfə Bakıya gəldim. Azərbaycan həm də mənim nazir kimi işgüzar səfərə çıxdığım ilk ittifaq respublikası idi. O zaman Azərbaycanın Nazirlər Soveti sədrinin birinci müavini işləyən Artur Rasizadə və respublikanın maşınqayırma kompleksinin rəhbəri Əli Qaraxanovla görüşərək, Heydər Əliyev tərəfindən qarşıya qoyulmuş vəzifələr barədə məlumat verdim. Onlarla birgə Bakının maşınqayırma zavodlarını gəzdik, hər bir müəssisənin texniki-iqtisadi göstəriciləri, istehsal potensialı, maşın parkının vəziyyəti və s. ilə yaxından tanış oldum. Gördüklərim, şahidi olduqlarım məni xeyli təəccübləndirdi və təəssüfləndirdi. İlk növbədə ona görə ki, bu müəssisələrdə güclü mütəxəssis potensialı var idi, ancaq texniki tərəqqi və yeniləşmə sanki Böyük Qafqaz dağlarına "ilişərək" qalmış, bura gəlib çatmamışdı. Həm də ona təəccübləndim ki, bu cür mənəvi və fiziki cəhətdən köhnəlmiş texnoloji avadanlıqlarda Bakı müəssisələri neft sənayesi üçün kifayət qədər böyük həcmdə və keyfiyyətli neftçıxarma avadanlıqları istehsal edirdi. Bunu da başa düşmək çətin deyildi ki, 1950–1960-cı illərin artıq sıradan çıxmaqda olan dəzgah parkında, texnoloji xətlərdə yüksək keyfiyyətli məhsul əldə etmək hansı əziyyətlər, çətinliklər bahasına başa gəlir.

Pərişan halda Moskvaya qayıtdım. Ertəsi gün nazirlik aparatının geniş müşavirəsini keçirdim. Maşınqayırma müəssisələrinin yenidən qurulması, dəzgah parkının təzələnməsi zərurətini önə çəkdim. Texniki tərəqqiyə cavabdeh olan baş idarələrin rəhbərlərini ciddi tənbeh edərək, Azərbaycanın maşınqayırma sənayesinə olan laqeyd münasibətin səbəblərini araşdırmağa çalışdım. Fikirlər səsləndi ki, Bakıda işlərimiz çoxdandır zəif gedir, guya, həmin müəssisələrdə texniki tərəqqiyə o qədər də meyil yoxdur və s. Soruşdum ki, axı hansı zəiflikdən, perspektivsizlikdən söhbət gedə bilər ki, Azərbaycan müəssisələri SSRİ-nin neft avadanlıqlarının təxminən 70 faizə qədərini verir. Bəs, siz hara baxırsınız? Müşavirə iştirakçılarına göstərilən səbəblərin və gətirilən dəlillərin özünümüdafiədən başqa bir şey olmadığını söyləyərək, Azərbaycanın neft və kimya maşınqayırmasının gücünü artırmaq, orada texniki tərəqqinin daha geniş tətbiqinə nail olmaq, zavodların texnika parkının təzələnməsi, modernləşdirilməsi üçün qəti tədbirlər görərək, təxirə salmadan ciddi işə başlamaq barədə müvafiq göstərişlər verdikdən sonra Heydər Əliyevin görüşünə getdim.

Heydər Əliyeviç məni kabinetində çox mehribanlıqla qarşıladı və səbrlə, lakin hiss olunacaq intizarla Bakıya səfərimin nəticələri haqqında fikir və təkliflərimi dinlədi. O, Bakı müəssisələrinin texniki səviyyəsinin həqiqətən aşağı və zəif olmasından açıq-aşkar təəssüf hissi keçirərək məyus oldu. Lakin vəziyyəti dəyişmək, həmin müəssisələrin ən son və mütərəqqi texnologiya əsasında yenidən qurulması üzrə nəzərdə tutduğum tədbirlər onda bir qədər nikbinlik yaratdı. Buna baxmayaraq, hələ də fikirli halda dedi:

– Vladimir Matveyeviç, mən Sizdən xahiş edirəm, Bakıdakı vəziyyəti, zavodların rekonstruksiyası, avadanlıqlarını təzələnməsi işlərini şəxsi nəzarətinizə götürün. Sizə hansı kömək lazımdırsa, edəcəyəm, təki Azərbaycanın maşınqayırma kompleksi müasir tələblər səviyyəsində yenidən qurulsun. Və hər rübdə Bakıya gedib, bütün işlərin gedişinə şəxsən özünüz rəhbərlik eləyin.

Şübhəsiz ki, məndə özünə və Azərbaycan xalqına qarşı xüsusi ehtiram və rəğbət hissi oyatmış belə bir görkəmli şəxsiyyətin göstərişini yüksək səviyyədə yerinə yetirməyə çalışırdım. Bir neçə ay ərzində Bakının əksər maşınqayırma zavodlarını həm SSRİ, həm də xarici ölkə müəssisələrinin istehsalı olan ən mütərəqqi texnologiyaya malik alət və avadanlıqlarla təmin etmək üçün nazirliyimizin bütün qüvvələrini səfərbərliyə aldım.

– Və biz qısa bir müddətdə Bakı müəssisələrini o qədər həcmdə avadanlıqla təmin etmişdik ki, məndə olan məlumata görə, hətta SSRİ dağıldıqdan xeyli sonra da həmin avadanlıqların göndərildiyi konteynerlərin bir qismi zavodların həyətində, açılmamış vəziyyətdə qalmışdı. Onu da deyim ki, bütün İttifaq üzrə işimin çoxluğuna və gərginliyinə baxmayaraq, hər 4-5 aydan bir nazirliyin mütəxəssisləri ilə birgə Azərbaycana gedib, maşın və dəzgah parklarının yeniləşdirilməsi, rekonstruksiya işləri ilə yerindəcə tanış olurdum. Maşınqayırma zavodlarının texniki cəhətdən yenidən qurulduğunu gördükcə sevinir və bu barədə hər dəfə Heydər Əliyevə məlumat verirdim. Hiss edirdim ki, o, istəyinin yerinə yetməsindən nə dərəcədə böyük fərəh duyur. Azərbaycanı, doğma xalqını necə böyük ürəklə, kövrək duyğularla sevir, buradakı hər bir uğura necə qəlbən sevinir.

Bəli, Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi görkəmli övladı, zirvə fatehi olub. Heydər Əliyevin də ruhu şaddır ki, dahi rəhbər kimi onun xatirəsini yaşadan, qədirbilən xalqı var.

***Qələmə aldı:***
***Rəhman ORXAN,***
***Əməkdar jurnalist***

## Dövlət idarəçiliyində Heydər Əliyev fenomeni

**Ümummilli lider Heydər Əliyevin 100 illiyi ilə əlaqədar olaraq gömrük əməkdaşları üçün Prezident yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov "Dövlət idarəçiliyində Heydər Əliyev fenomeni və müasir Azərbaycanın davamlı inklüziv inkişafı" mövzusunda mühazirə ilə çıxış edib.**



Qeyd edilib ki, dövlət idarəçiliyi sahəsində fenomen şəxsiyyət olan Ümummilli lider Azərbaycana rəhbərlik etdiyi ilk illərdən etibarən ölkəmizin gələcək inkişaf strategiyası ilə bağlı mühüm addımlar atıb. Məhz onun uzaqgörənliyi, strateji düşünmə bacarığına əsaslanan idarəçilik modeli qısa zaman kəsiyində ölkəmizin dayanıqlı və davamlı inkişafı üçün zəmin yaradıb.

Həmçinin Ümummilli liderin layiqli davamçısı Prezident İlham Əliyevin dövlət idarəçiliyində tətbiq etdiyi müasir prinsiplərin, qabaqcıl təcrübələrin beynəlxalq aləmdə nümunə olduğu vurğulanıb.

Sonda gömrük əməkdaşlarını maraqlandıran suallar cavablandırılıb.

## Ulu öndərin 100 illiyinə həsr edilən tədbir

**Hərbi Prokurorluq Dövlət Sərhəd Xidməti ilə birgə Ulu öndərin 100 illik yubileyi münasibətilə tədbirlər keçirib.**

Lənkəran və Cəlilabad rayonlarında yerləşən "N" saylı hərbi hissələrdə keçirilən tədbirlərdə Hərbi prokurorluğun mətbuat xidmətinin rəhbəri Firad Əliyev, Lənkəran Hərbi prokuroru Elşən Əli-Məmmədov və başqaları çıxış edərək Ulu öndər Heydər Əliyevin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, dövlətimizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.



# Paşinyana "Sus!" deyən Oskanyan müharibəmi istəyir?

## Ermənistanın keçmiş xarici işlər naziri indiki baş naziri "səhvini düzəltməyə" çağırıb

**Sülh danışıqlarındakı müvəqqəti fasilə Ermənistanın siyasi dairələrində vurnuxma və cəmiyyətdə hissolunan təlaşla müşayiət olunur. Bu zaman indiki iqtidarın tərəfdarları kimi, müxalif qüvvələrin, xüsusilə sabiq hərbçilərin, diplomatların da səsi daha gur çıxmaqdadır. Onlardan biri də 1998-2008-ci illərdə, Robert Koçaryanın prezidentliyi dövründə xarici işlər naziri işləmiş Vardan Oskanyandır. O, Hayastanın baş naziri Nikol Paşinyanın sülh danışıqlarının gedişində Azərbaycanın Qarabağ daxil ərazi bütövlüyünü tanıdığını söyləməklə "tarixi səhvə" yol verdiyi barədə özünün "Facebook" səhifəsində bunları yazıb: "Paşinyan böyük səhvə yol verib və indi, o, səhvini etiraf etməli və düzəltməlidir. Onun məhz bu günün situasiyasından çıxış edərək, həmin bəyanatından geri çəkilmək imkanı var. O, dəqiq deyə bilər ki, mən sülh üçün nəsə etmək istəyirdim, amma görürəm rəqib bundan sui-istifadəyə çalışır. Bu səbəbdən əvvəlki sözlərimdən imtina edirəm və bu gün buna tam hüququm çatır".**



Ermənistan XİN-in keçmiş şefi hesab edir ki, belə bir bəyanatına görə Paşinyana heç kim heç nə edə bilməz. Oskanyan keçən ilin oktyabrında Praqada Azərbaycanın ərazi bütövlüyünü etiraf etməklə Paşinyanın Moskvanı da çıxılmaz vəziyyətə saldığına diqqəti yönəldir: "Rusiya bu barədə açıq şəkildə fikrini bəyan etdi. Onlar dedilər ki, Paşinyan Praqada verdiyi bəyanatla bu sənədin altına imzasını qoydu və onun bu məsələdə razılığı 10 noyabr bəyanatının bütün mahiyyətini köklü şəkildə dəyişdi. Rusiya artıq heç nə edə bilməz. Qərb də bu barədə açıq danışmır. Amma pərdəarxası görüşlər zamanı eyni cür davranır".

Oskanyan yazır ki, Paşinyan rəqibə daim nəsə vəd edir, fəqət onu yerinə yetirmir: "Əgər sən düşmənin iştahasını qaldırırsan və istədiyini etmirsənsə, son nəticədə, o, konkret fəaliyyətə keçəcək. Və bu zaman vasitəçilər də heç nə edə bilməyəcəklər".

* * *

Biz Oskanyanın buna qədər də İrəvan iqtidarına "ekzotik təkliflərinin" şahidi olmuşuq. Misal üçün, o, liderlərin may ayında Brüssel görüşü ərəfəsində "Dağlıq Qarabağın" sovet dönəmində muxtar vilayət statusu faktını danışıqların gündəliyinə salınmasını irəli sürmüşdü. Hayların eks baş diplomatı bu ideyanı gündəmə gətirməyə çalışmaqla yəqin Avropa Şurasının prezidenti Şarl Mişelin yaxın keçmişdə Belçikanın baş naziri postunda olmasını nəzərə alıbmış. Axı Belçika çoxsaylı icmaların bərabər hüquqlara malik olduğu federativ dövlətdir. Yəni məhz bu kontekstdə Şarl Mişelin onun təklfini yaxşı başa düşəcəyini, ona "isti yanaşacağını" hədəfləyirmiş. Ənənəvi "erməni gedişi".

Ardınca onun Paşinyanın üzərinə ittihamla hücum çəkməsi isə daha maraqlı mətləbdən xəbər verir: "Sən Artsaxı (Qarabağ-red) təhvil verirsən, Azərbaycana bağışlayırsan. Sən vətəni, bizim "tarixi torpaqlarımızı" verirsən. Bu, sənin eşitməzliyə vuracağın və qulaq asmayacağın bir məsələ deyil".

Burada təəccüblü heç nə yoxdur. Oskanyan Paşinyana bu "məsləhəti" verməklə, əlbəttə ki, ənənəvi hay xislətini ortaya qoymuş olur. Verdiyi vədə əməl etməmək, dünən dediyini bu gün danmaq, çətinə düşəndə yalanı həqiqət donuna bürüyüb ictimai rəyi çaşdırmaq, onunla manipulyasiya etmək. Oskanyan baş nazir Paşinyana bundan əvvəlki müraciətində isə özünün "bir qrup diplomatla üç ay ərzində danışıqlar prosesində dəyişikliyə nail ola bilər, amma həmin müddətdə Paşinyan susaraq heç bir bəyanat verməməlidir", – demişdi.

Onda hakim partiyadan olan deputat Lilit Minasyan sabiq baş diplomatın bu "strateji məsləhətinə" olduqca maraqlı sualla cavab vermişdi: "Cənab Oskanyan deyir ki, cənab Paşinyandan rica edirəm, danışıqlar prosesinə muxtar vilayət ideyasını daxil etsin". Üzr istəyirəm, cənab Oskanyan, dediyiniz muxtar vilayəti hansı dövlətin tərkibində nəzərdə tutursunuz?".

Əlbətə, bu, əlavə şərhə ehtiyac duymayan ritorik sual idi.

* * *

Diqqət yetirsək, görərik ki, Hayastanın sabiq xarici işlər nazirinin indiki iqtidara yönəlik təklif, məsləhət, o cümlədən ittihamları Kremlin sülh prosesi ilə bağlı bəzi açlqlamaları ilə üst-üstə düşür. Yəni, onun Paşinyanın "başına ağıl qoymaq" istiqamətində təşəbbüsləri Rusiya XİN-in sülh danışıqlarının konkret raundu ərəfəsində, yaxud sonra məhz İrəvanı nəzərdə tutmaqla verdiyi açıqlama və bəyanatlarındakı tezisləri xatırladır. Misal üçün, 15 iyul Brüssel zirvə görüşünün davam etdiyi məqamda Rusiya xarici diplomatiya idarəsi yaydığı bəyanatında ərz edirdi ki, Ermənistan rəhbərliyi keçən ilin oktyabrında Praqada Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etməklə, faktiki olaraq 2020-ci il 10 noyabr tarixli Bəyanatı ilə ortaya çıxan münaqişəni nizamlama prosesinin istiqamətini dəyişib. Daha doğrusu, həmin bəyanatla Kreml tərəflərin diqqətinə çatdırırdı ki, Paşinyan məlum açıqlaması ilə onun qurduğu və yeritdiyi sülhə nail olma mexanizminə zərbə vurdu.

İndi gedən qatarın arxasınca özünü ağıllı diplomat kimi göstərməyə, gərəksiz məsləhətlər verməyə, hətta ittihamlar irəli sürməyə qalxan, Paşinyana reallıqdan uzaq "fəaliyyət proqramı" təklif edən cənab Oskanyanın özünə "Sus!" deyən lazımdır.

Artıq bölgədə, eləcə də, bütövlükdə, Cənubi Qafqazda yeni reallığın yarandığı danılmaz həqiqətdir. Ola bilsin ki, bu reallığı "Dağlıq Qarabağ Azərbaycanın tərkibində ola bilməz" – deyən və İrəvan ətrafındakı villasında oturub Paşinyana dəlləklik edən Oskanyan görmür, yaxud görmək istəmir. Yəqin kimsə Vardan Oskanyana izah etməlidir ki, onun "Dağlıq Qarabağ Azərbaycanın tərkibində ola bilməz" kimi məsuliyyətsiz açıqlaması yeni müharibəyə çağırış deməkdir. Və həmin müharibənin qalibi yenə eyni ölkə olacaq. Amma bu dəfə onun on il baş diplomatı kimi sülhə mane olmuş Ermənistanı daha böyük itkilərlə üzləşməli olacaq.

***İmran BƏDİRXANLI,***
***"Xalq qəzeti"***

### Ekspert rəyləri



**Orxan AMAŞOV,**
**siyasi şərhçi**

Rusiya həm əsas vasitəçi kimi sülh danışıqlarına, həm də hökumətlərarası üçtərəfli işçi qrupunu yaratmaqla sərhədin delimitasiya və demarkasiya prosesinə nəzarəti əlində cəmləməyi hədəfləyirdi. Onda Qərb bu prosesdə iştirak etmirdi. Moskvanın istədiyi o idi ki, normallaşma prosesi sırf dövlətlərarası müstəvidə, kommunikasiyalar və sərhəd mövzuları üzərində cəmləşsin, Qarabağ məsələsi isə sonrakı mərhələyə qalsın. Əsas niyyət Qarabağın taleyinin həll olunmamış saxlanması idi. Kremlin anlamında situasiya belə qalmalıydı.

Bəli, Rusiya XİN-in bəyanatı ilə Oskanyanın dedikləri arasında oxşarlıq var. Moskva deyir ki, normallaşma prosesində öz işimizi görürük, amma siz həmin etirafınızla bu prosesin istiqamətini dəyişdiniz və burada bizi də kömək etməməkdə günahlandırırsınız. Kreml İrəvanın bu yanaşmasını tənqid etməklə yanaşı, həm də mesaj verir ki, bundan sonra Rusiyadan yardım gözləməyin. Oskanyan vurğunu bunun üzərinə gətirir və bu baxımdan onun sözlərində məntiq var.

Bu məqamda Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovun iyun ayında mediaya verdiyi müsahibəsini xatırlatmaq istərdik. Həmin müsahibəsində cənab nazir dedi ki, nəyə görə Paşinyan İkinci Qarabağ müharibəsindən bu qədər müddət keçəndən sonra Azərbaycanın Qarabağ daxil ərazi bütövlüyünü tanıdığını açıqladı? Əslində, bu, ritorik sual idi. Çünki artıq yeni dəyişikliklər baş vermiş, Azərbaycan Qarabağda rus sülhməramlılarının nəzarətində olan suveren ərazisində strateji yüksəkliklərə yiyələnmiş, Laçın yolunun girişində sərhəd postunu təsis etmişdi. Yəni, Bakının atdığı legitim addımlar dinamikanı şərtləndirən əsas amil oldu. Oskanyan demək istəyir ki, İrəvanın taktikanı dəyişməsi üçün şərait yaranıb. "Azərbaycanın sülhə aparan yoluna mane ola bilsək, o, istədiyinə başqa üsulla nail olmağa çalışacaq". Guya, İrəvan sülhdən qaçmaqla qısa vədə üçün üstünlük əldə edə biləcək. Məntiq aydındır. Amma səmərəsiz cəhddir. Məgər həmin Koçaryan-Oskanyan siyasi xətti sonda müharibəyə səbəb olmadımı?



**Fikrət SADIXOV,**
**politoloq**

Kənardan görünən odur ki, Ermənistandakı mövcud siyasi qüvvələr arasında qarşıdurma var, qalmaqal yaranıb. Təbii ki, keçmiş rejimin nümayəndələri indiki iqtidarla razılaşa bilmirlər. Çünki Paşinyan iki dəfə Qarabağ daxil Azərbaycanın ərazi bütövlüyünü tanıdı və bunu de-fakto etiraf elədi. Bu, bizi tam qane edən etirafdır. Eyni zamanda onu demək lazımdır ki, Oskanyanın açıqlamasının həmin hissəsi həqiqətə uyğundur. Düzdür, bu halda proseslər müəyyən mənada Moskvanı neytrallaşdırır, amma burada maraqlı nüans var. Ola bilsin ki, bu, paradoksal səslənsin, Oskanyanın dediyi variant Rusiyanı qane edir. Çünki Kremlin marağındadır ki, İrəvanın siyasi isteblişmentində qalmaqal yaransın və bunun nəticəsində də Paşinyanın mövqeyi zəifləsin. Axı Moskva Paşinyan rejimini əvvəldən qəbul etmir, onun özünü Soros Fondunun "parlaq nümayəndəsi" sayırdı. Beləliklə, Kreml onu elə daxildəki ermənilərin əli ilə hakimiyyətdən kənarlaşdırmağa çalışırdı.

Digər tərəfdən, bu, həm də onu göstərir ki, Azərbaycan ən müxtəlif müstəvilərdə özünün legitim diplomatik, siyasi addımlarını atır. Xankəndidəki rejimə isə son xəbərdarlığımızı çatdırmışıq ki, ağlınızı başınıza yığın və təslim olun. Onsuz da sizi heç kəs dəstəkləməyəcək. Düşünürəm ki, bölgədəki sülhməramlı kontingent də onların Bakı tərəfindən layiqincə "cəzalandırılmasına" göz yumacaq. Əgər Paşinyan da bu vəziyyətlə razılaşırsa, deməli, Qarabağın Azərbaycan ərazisi olduğunu bir daha tanıyır. Qalır erməni silahlı quldur dəstələrinin suveren ərazimizdən ya xoşluqla çıxması, ya da xüsusi əməliyyatla oradan qovulması məsələsi. Bu prosesin də konkret nöqtəsi olacaq. Qondarma rejim də, İrəvandakı daşnak-revanşistlər də artıq bunu yaxşı dərk edirlər. Onların son vaxtlar bərk təşvişə düşmələrinin səbəbi də elə budur.

# Tehran-Bakı münasibətləri: buzlar əriyirmi?

## Qarşılıqlı inamı artıran xoşniyyətli addımlardan əməli nəticələr gözləyirik

**Avqustun 8-də İran İslam Respublikası baş prokurorunun təhlükəsizlik və siyasi məsələlər üzrə müavini Mehdi Əmiri İsfahaninin rəhbərliyi ilə xarici işlər və digər aidiyyəti dövlət qurumlarının əməkdaşlarından ibarət nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri başlayıb. Səfər əsnasında İran nümayəndə heyəti ümummilli lider Heydər Əliyev və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarlarını, o cümlədən Şəhidlər xiyabanını ziyarət edib. Daha sonra Azərbaycan və İran nümayəndə heyətləri arasında bir sıra məsələlər, eləcə də cari ilin 27 yanvar tarixində İrandakı səfirliyimizə edilən terror hücumu haqqında fikir mübadiləsi aparılıb, terror aktı ilə əlaqəli bütün şəxslərin məsuliyyətə cəlb edilməsinin vacibliyi vurğulanıb.**

### İrandan "U" dönüşü

İran nümayəndə heyətinin respublikamıza səfəri və iki dövlət arasında gərginliyə səbəb olan məsələlərin müzakirəsi, şübhəsiz, təqdirəlayqidir. Bu, rəsmi Tehranın ölkəmizlə münasibətləri normallaşdırmaq arzusundan xəbər verir.

Xatırladaq ki, 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanla bağlı təhdidedici bəyanatlar səsləndirən İran, bu il yanvarın 27-də bu ölkədəki səfirliyimizə edilən terror hücumuna adekvat reaksiya verməmiş, hətta baş verənləri terror aktı adlandırmaqdan və ölkəmizdən üzr istəməkdən imtina etmişdi. İranın məhz bu addımı Azərbaycanın səbrini daşıran son damla olmuş, rəsmi Bakı Tehranı məsuliyyətli olmağa, iki dövlət arasındakı tarixi dostluq və qonşuluq siyasətinə uyğun addım atmağa səsləmişdi. Lakin rəsmi Tehran bu olaydan sonra da Azərbaycanın haqlı tələblərinə Ermənistana siyasi-mənəvi baxımdan dəstək olmaqla cavab vermişdi.

Bütün bunların ardınca İranın öz siyasətində "U" dönüşü edərək yenidən Azərbaycana üz tutması, problemlərin səmimi həllində maraqlı olduğunu bəyan etməsi müsbət addımdır. Və bu addım, eyni zamanda özü ilə belə bir sualı da gətirmiş olur: Rəsmi Tehranın birdən-birə yön dəyişməsinə səbəb nədir? Niyə son üç ildir ki, açıq ermənipərəst siyasət yürüdən İran indi Azərbaycanın yenidən rəğbətini qazanmağa, dostluq əlaqələrini möhkəmləndirməyə çalışır?

Şübhəsiz, İranın birdən-birə yön dəyişməsinin bir sıra ciddi səbəbləri mövcuddur ki, onlardan ən əsası rəsmi Tehranın Azərbaycanın real gücünü, imkan və potensialını düzgün qiymətləndirməsi, ölkəmizlə konfiliktə girməyin İran üçün faydalı olmadığını dərk etməsidir. Görünür, Tehran yetkililəri gec də olsa, başa düşüblər ki, Azərbaycanla Ermənistanı eyni tərəziyə qoymaq olmaz və bu, İranın öz maraqları üçün perspektiv vəd etmir. Məhz bu səbəbdən də Tehran Azərbaycanla münasibətlərdə yeni bir başlanğıca start verməyi lazım bilib.



### Bakı ilə ziddiyyət Tehrana əlavə problem yaratmaq deməkdir

Tehranın Azərbaycanla münasibətləri yaxşılaşdırmaq cəhdinin digər bir səbəbi isə ölkəmizin İran üçün siyasi-iqtisadi və mənəvi-psixoloji önəmi ilə bağlıdır.

Məlumdur ki, İran Qərblə ziddiyyət fonunda bütün sivil dünyadan təcrid edilib. ABŞ-ın bu ölkəyə tətbiq etdiyi çoxsaylı sanksiyalar enerji resursu ilə zəngin olan İranın inkişafı yolunda bu gün də ən başlıca əngəl olaraq qalmaqdadır. Uzun illərdir davam edən sanksiyalar səbəbi ilə yalnız iqtisadi deyil, həm də psixoloji baxımdan sarsılan İran üçün Azərbaycanla münasibətləri canlı tutmaq hər mənada vacibdir.

Onu da qeyd edək ki, Azərbaycan bugünə qədər İrana qarşı tətbiq edilən heç bir sanksiyaya qoşulmayıb, hər hansı plan və fəaliyyətdə yer almayıb. Bütün bunlar rəsmi Bakının tarixi qonşusu kimi İranla münasibətlərə ciddi önəm verdiyini göstərir. Bu fakt həm də onu göstərir ki, Azərbaycan bir qonşu kimi də etibarlıdır və öz dövləti mənafeyini qorumaqla yanaşı, qonşu dövlətlərin maraqlarına da hörmətlə yanaşmağı bacarır. Odur ki, İranın Azərbaycanı itirməsi onu əhatə edən təcrid zəncirinin bir qədər də daralması demək olar ki, bunun da İran üçün böyük problemlərə yol açacağı şübhəsizdir.

### Azərbaycan, həm də etibarlı müttəfiqləri ilə güclüdür

İranın ölkəmizlə bağlı siyasətində müşahidə edilən yumşalmanın digər bir səbəbi isə Azərbaycanın malik olduğu güclü müttəfiqlər, beynəlxalq aləmdə qazandığı nüfuzdur. 44 günlük Vətən müharibəsi Azərbaycanın tək olmadığını, güclü müttəfiqlərə malik olduğunu göstərdi. Türkiyə, Pakistan, İsrail, İtaliya və digər dövlətlərin ölkəmizlə həmrəylik nümayiş etdirməsi, Ermənistanın təmsil olunduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı kimi qurumların belə rəsmi Bakının mövqeyinə ehtiram göstərməsi Azərbaycanın qlobal miqyasda söz sahibi olduğunu sübut etdi.

Xatırladaq ki, Prezident İlham Əliyev hələ 2020-ci il oktyabrın 6-da Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən bu fakta xüsusi diqqət çəkmiş, ölkəmizin Türkiyə kimi güclü müttəfiqə sahib olduğunu qürurla vurğulamışdır: "Azərbaycan tək deyil. Azərbaycanın yanında Türkiyə kimi dünya miqyasında böyük bir güc olan dövlət var, qardaş ölkə var. Bu dəstək bizi ruhlandırır, bizə əlavə güc verir və eyni zamanda, bölgədə sabitliyin, əmin-amanlığın təmin edilməsi üçün önəmli rol oynayır".

Təbiidir ki, rəsmi Tehranın ölkəmizlə münasibətləri hansı səbəbdən yaxşılaşdırmağa cəhd göstərməsindən asılı olmayaraq, Azərbaycan İranın bu səylərini müsbət qiymətləndirir. Eyni zamanda, ölkəmiz hesab edir ki, İranın Azərbaycana sözdə elan etdiyi xoş məramı əməli baxımdan sərgiləməsinə ehtiyac var. Yalnız bu halda İranın səmimiyyətinə inanmaq, onun sözlərinə etibar etmək mümkündür.

***Seymur ƏLİYEV***

# Mingəçevirdə müstəqillik dövrünün ən böyük elektrik stansiyası tikilir

## Bu nəhəng obyektin istismara verilməsi ilə il ərzində 1 milyard kubmetr qaza qənaət ediləcək

(əvvəli 1-ci səhifədə)

Yuxarıda adıçəkilən sənəddə "Azərbaycan" İstilik Elektrik Stansiyasının (İES) modernləşdirilməsi respublikanın enerji dayanıqlığının təmin olunması, əlavə generasiya güclərinin yaradılması, enerji tələbatının qarşılanması, ixrac imkanlarının artırılması, ətraf mühitin qorunması, elektrik enerjisinin istehsalında təbii qaza qənaət edilməsi, iqlim dəyişiklikləri ilə bağlı baş verən kataklizmlərin qarşısının alınması və regionda yeni iş yerlərinin açılması baxımından xüsusi əhəmiyyətə malik olduğu bir daha öz ifadəsini tapıb.

Prezident İlham Əliyev vurğulanan bu mühüm məsələlər barədə cari il fevralın 13-də Bakıda "Gülüstan" sarayında müstəqillik dövrünün 1280 MVt gücündə ən böyük İstilik Elektrik Stansiyasının təməlqoyma mərasimindəki çıxışında ətraflı bəhs edib. Dövlətimizin başçısı nitqində belə bir nəhəng infrastrukturun – Mingəçevir Elektrik Stansiyasının gələcəkdə – 2025-ci ildə istifadəyə veriləcəyini, bununla da ölkəmizin enerji potensialının böyük dərəcədə gücləndiriləcəyini, şəhərin isə Azərbaycanın elektroenergetika mərkəzi kimi önəminin daha da artacağını bildirib. "Onsuz da Mingəçevir hazırda elektroenergetika sahəsində bizim əsas şəhərimizdir. Mingəçevirdə fəaliyyət göstərən elektrik stansiyası bu gün ölkəmizin elektrik enerjisinə ehtiyacının böyük hissəsini ödəyir", – deyə ölkə rəhbəri vurğulayıb.

Hazırda Mingəçevir şəhərində cari ilin fevral ayında təməli qoyulan və müstəqillik dövründə tikilən ən böyük yeni İstilik Elektrik Stansiyasında işlər "AzərEnerji" ASC tərəfindən sürətlə davam etdirilir. ASC-dən redaksiyamıza verilən məlumatda bildirilir ki, "Azərbaycan" İstilik Elektrik Stansiyasının ərazisində inşa olunan 1280 meqavatlıq bu stansiyanın tikinti işləri Azərbaycanın ixtisaslaşmış yerli şirkətləri tərəfindən həyata keçirilir. Stansiyanın tikintisinə isə İtaliyanın "AFRY" məsləhətçi və İspaniyanın "İDOM" layihələndirmə şirkətləri nəzarət edir.

"AFRY" məsləhətçi şirkətinin nümayəndəsi Salih Turanın verdiyi məlumata əsasən, hazırda işlər sürətlə davam edir və qrafiki 2 ay qabaqlayır. Yaxın vaxtlarda İtaliyanın "Ansaldo Energia" şirkətinin istehsalı olan qaz turbinləri və generatorların gəmiyə yüklənərək Azərbaycana göndəriləcəyi gözlənilir.



İndiyədək 4 ədəd qaz turbininin, generatorların və qazanların bünövrə, betonlanma işləri yekunlaşdırılıb, qaz kompressor binası və digər sahələrdə binaların inşası, o cümlədən stansiya üzrə metal-konstruksiya işləri isə davam edir.

Soyutma su sistemlərinin dövran nasoslarının, o cümlədən soyutma borularının yenilənməsi, 500 və 330 kilovoltluq yarımstansiyaların genişləndirilməsi işləri sürətlə aparılır. Paralel olaraq ümumi effektivliyi artırmaq üçün Mingəçevirdəki "Azərbaycan" İstilik Elektrik Stansiyasının mövcud 7 və 8-ci enerji bloklarının buxar turbinlərinin zəmanətli əsaslarla modernləşdirilməsi işləri həyata keçirilir.

Yüz tondan artıq çəkisi olan turbin, generator və başqa avadanlıqların çıxarıdaraq əsaslı təmir olunması və yeni tikilən elektrik stansiyasına inteqrasiya edilməsi üçün işlər yekunlaşdırılıb və hazırda köməkçi avadanlıqların yenisi ilə əvəzlənməsinə başlanılıb.

ASC-dən redaksiyamıza verilən məlumatda da vurğulanır ki, 1280 meqavatlıq yeni elektrik stansiyası və "Azərbaycan" İES-in mövcud 7 və 8-ci bloklarının əlaqələndirilməsi nəticəsində ümumi güc 1880 meqavat olacaq. Bununla da faydalı iş əmsalı 18 faiz artırılaraq 56 faizə çatdırılacaq. Daha dəqiqi 1280 meqavatlıq yeni elektrik stansiyasının qaz turbinlərində bir dəfə işlənmiş qaz, utilizasiya yolu ilə suyu buxara çevirəcək və "Azərbaycan" İES-in 7 və 8-ci bloklarının buxar turbinlərində əlavə qaz işlətmədən enerji almağa imkan verəcək. Əlaqələndirmə nəticəsində ildə 800 milyon kubmetr qaza qənaət olunacaq.

Yeni stansiyanın tikilməsi əlavə generasiya güclərinin yaradılması, enerjiyə artan tələbatın qarşılanması, ixrac imkanlarının artırılması, bərpaolunan enerji mənbələrinin enerji sisteminə inteqrasiyasının əks təsirlərinin balanslaşdırılması, elektrik enerjisinin istehsalında təbii qaza qənaət edilməsi və regionda yeni iş yerlərinin açılması baxımından xüsusi əhəmiyyətə malikdir.

**Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"**

### Ekspert rəyi



**Nihat ƏLİYEV,**
**iqtisadçı-ekspert**

Sovet dönəmində olduğu kimi, hazırda da Mingəçevir Azərbaycanın, eləcə də Qafqazın enerji mərkəzi kimi tanınır. Şübhəsiz ki, bu şəhərin belə bir adla tanınması, eləcə də respublikamızın enerji təhlükəsizliyinin gerçəkləşməsində müstəsna rol oynaması Ümummilli lider Heydər Əliyevin misilsiz xidmətinin nəticəsidir. Ulu öndərin uzaqgörənliyi, təşəbbüsü və rəhbərliyi sayəsində Mingəçevirdə 1981-ci ildə istifadəyə verilən "Azərbaycan" İstilik Elektrik Stansiyası ölkəmizin ən ağır dövründə səmərəli fəaliyyəti ilə xatırlanır. Mən bu sözləri deyəndə, ilk növbədə, göz önünə, ötən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəlləri gəlir. Başqa sözlə, Sovet İttifaqının süqutu ilə baş verən hadisələr zamanı "Azərbaycan" İstilik Elektrik Stansiyasının Azərbaycanı işıqsız qoymaması xatırlanır.

Ötən illər ərzində sözügedən stansiyada yenidənqurma işləri görülüb. Dövlətimizin başçısının göstərişi ilə 2018-ci ildə onun tamamilə yenidən qurulması prosesi həyata keçirilib, qısa müddətdə–iki il ərzində 8 blok tamamilə təzələnərək istismara buraxılıb. Nəticədə stansiya ilkin gücü ilə fəaliyyətə başlayıb və generasiya gücü 2400 meqavata çatdırılıb. Beləliklə, Mingəçevir Elektrik Stansiyasının bərpa–yenidənqurma layihəsinin uğurla icrası nəticəsində təqribən 600 meqavatdan çox itirilmiş güc "geri qaytarılıb". Prezident İlham Əliyev tərəfindən belə bir fəaliyyət böyük bir stansiyanın yenidən tikilməsi kimi dəyərləndirilib.

Yeri gəlmişkən, bu məqamda diqqətçəkən bir məsələni də xatırlatmaq istərdim. Hamımız yaxşı xatırlayırıq ki, ikinci Qarabağ müharibəsində erməni faşizminin hədəfində olan obyektlərdən biri də "Azərbaycan" İstilik Elektrik Stansiyası idi. Düşmən Vətən savaşında uduzduğuna görə, bu nəhəng stansiyanı dağıtmaqla qisas almağa cəhd göstərdi, bu son dərəcə əhəmiyyətli infrastrukturu uzaqmənzilli raketlərlə atəşə tutdu. Həmin raketlərin bir çoxu Azərbaycanın hava hücumuna qarşı müdafiə sistemləri tərəfindən məhv edildi, bəziləri isə hədəfə dəymədi.

Hazırda "Azərbaycan" İstilik Elektrik Stansiyasının ərazisində inşa olunan 1280 meqavatlıq yeni elektrik stansiyasının tikilməsi ilə Azərbaycanın enerji potensialı böyük dərəcədə güclənəcək. Dövlətimizin başçısı çıxışlarının birində bu barədə vurğulandığı kimi, bu, respublikamızın enerji təhlükəsizliyinə verilən növbəti töhfə olacaq, yüzlərlə yeni iş yeri yaranacaq və beləliklə, ölkəmiz öz imkanlarından tam yararlanaraq həm daxili tələbatı ödəyəcək, həmçinin elektroenergetikanın inkişafını yeni inkişaf mərhələsinə qaldıracaq.

## Gömrük xətti ilə büdcə daxilolmaları 3 milyard manatı ötüb

**Dövlət Gömrük Komitəsinin (DGK) məlumatına əsasən, bu ilin yanvar-iyul aylarında DGK xətti ilə büdcə daxilolmaları 3 milyard 606,579 milyon manat təşkil edib.**



Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 19,4 faiz çoxdur.

Son 1 ildə gömrük rüsumları üzrə daxilolmalar 21,5 faiz artaraq 909,151 milyon manat, əlavə dəyər vergisi (ƏDV) üzrə daxilolmalar 18,5 faiz artaraq 2 milyard 549,144 milyon manat, aksizlər üzrə daxilolmalar 42,7 faiz artaraq 121,83 milyon manat, yol vergisi üzrə daxilolmalar isə 24,2 faiz azalaraq 26,455 milyon manat olub.

## İqtisadiyyata investisiya qoyuluşu 21 faiz artıb

**Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-iyul aylarında Azərbaycanda əsas kapitala 9 milyard 114,9 milyon manat və yaxud ötən ilin müvafiq dövrü ilə müqayisədə 20,8 faiz çox vəsait yönəldilib.**



Məlumata görə, son 1 ildə neft-qaz sektoruna investisiyalar 15 faiz, qeyri-neft-qaz sektoruna investisiyalar isə 24,3 faiz artıb.

7 ay ərzində istifadə olunmuş vəsaitin 5 milyard 45 milyon manatı və yaxud 55,3 faizi məhsul istehsalı sahələrinə, 3 milyard 600 milyon manatı və yaxud 39,5 faizi xidmət sahələrinin, 469,4 milyon manatı və yaxud 5,2 faizi isə yaşayış evlərinin tikintisinə sərf olunub.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 6 milyard 877,5 milyon manatını və yaxud 75,5 faizini daxili vəsaitlər təşkil edib, 6 milyard 679 milyon manatı və yaxud 73,3 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

Əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların öz vəsaitləri 44,7 faiz, büdcə vəsaitləri 39,7 faiz, əhalinin şəxsi vəsaitləri 6,7 faiz, bank kreditləri 3 faiz, sair vəsaitlər isə 5,9 faiz paya malik olub.

**"Xalq qəzeti"**

# Dünya Bankı ilə əməkdaşlıq genişlənir

(əvvəli 1-ci səhifədə)

Ştefani Ştalmeyster isə respublikamızın strateji inkişaf məqsədlərinə nail olunması istiqamətində bankın Azərbaycan hökuməti ilə sıx əməkdaşlığı davam etdirəcəyinə əminliyini vurğulayıb, tərəfdaşlığın yeni istiqamətləri barədə fikirlərini bölüşüb.

Xatırladaq ki, hələ bu ilin iyun ayında iqtisadiyyat naziri Mikayıl Cabbarov DB-nin Cənubi Qafqaz üzrə yeni regional direktoru Rolande Praysla görüşündə də Azərbaycanın bu maliyyə təşkilatı ilə uğurla əməkdaşlıq etdiyini, respublikamızda bankın göstərdiyi texniki yardım və maliyyə dəstəyi layihələrinin yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. Nazir ölkəmizin DB ilə əməkdaşlığında ölkə iqtisadiyyatının prioritetləri, o cümlədən iqtisadi diversifikasiya, qeyri-neft sektorunun inkişafı, investisiyaların təşviqi və biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərə daha çox diqqət yetirildiyini qeyd edib.




Azərbaycanın DB ilə əməkdaşlığında xüsusi önəm verildiyi məsələlərdən biri iqtisadiyyatın rəqəmsallaşması ilə bağlı layihələrin uğurla reallaşdırılmasıdır. Qeyd edək ki, rəqəmsallaşma respublikamızın investisiya cəlbediciliyinə mühüm təsir göstərən amillərdən biri olduğu üçün investorlar tərəfindən bu sahəyə aid infrastrukturun qurulması, eləcə də elektron ticarətin inkişaf etdirilməsi daim diqqət mərkəzində saxlanılır. Məhz bunun nəticəsidir ki, Azərbaycanda təhlükəsiz rəqəmsal ödəniş həllərinin genişləndirilməsi, etibarlı logistik şəbəkələrin təkmilləşdirilməsi kimi güclü rəqəmsal infrastruktur yaradılmasına böyük maraq göstərilir və bu sahədə müsbət göstəricilər əldə olunur.

Bu iqtiqamətdə gerçəkləşdirilən tədbirlər sayəsində Azərbaycan BMT-nin "Ticarət prosedurlarının sadələşdirilməsi məsələləri üzrə qlobal tədqiqat"nda 2019-cu illə müqayisədə 2021-ci ildə şəffaflıq indikatoru üzrə 6,67 faiz, sərhədlərarası kağızsız ticarət indikatoru üzrə isə 16,67 faiz artma nail olub. Ümumilikdə isə respublikamız DB-nin hazırladığı "GovTech Yetkinliyi İndeksi"nin (GovTech Maturity Index - GTMI) 2022-ci il üzrə hesabatında yüksək rəqəmsallaşma səviyyəsinə görə, ölkələrin daxil ola bildiyi birinci qrupda yer alıb.

Yeri gəlmişkən, DB-nin Azərbaycandakı əməliyyatlarının yeni mərhələsi 2015-ci ildə təsdiqlənən və 2016-2020-ci illəri əhatə edən Tərəfdaşlıq Çərçivəsi Proqramı (CPF) ilə tənzimlənib. Lakin bu proqramın 2020-ci ildə səmərəliliyi nəzərə alınaraq onun uzadılması qərara alınıb. Bu zaman iki prioritet istiqamət də təsdiq edilib. Belə ki, adıçəkilən proqramda dövlət sektorunda idarəetmə və xidmətlərin göstərilməsi, ölkənin neft-qaz asılılığının azaldılması və insan kapitalına, fiziki infrastruktura, həmçinin daha güclü institutlara investisiyalar yatırmaq yolu ilə iqtisadiyyatın xarici şoklara davamlılığının artırılması kimi strateji hədəflərə cavab verən iqtisadi rəqabətqabiliyyətliliyin böyük əhəmiyyəti önə çəkilib.

Qeyd edək ki, 1992-ci ildən DB-nin üzvü olan Azərbaycana bu maliyyə qurumu tərəfindən ötən müddətdə 50-dən çox layihə üzrə 4 milyard ABŞ dollarından çox kredit ayrılıb.

DB indiyədək respublikamızda təhsil və səhiyyə sisteminin yaxşılaşdırılması, nəqliyyat və su–kanalizasiya sisteminin təkmilləşdirilməsi, kənd təsərrüfatının, enerji sektorunun inkişafı, ətraf mühitin, həmçinin mədəni irsin qorunması kimi bir sıra sahələrdə həyata keçirilən layihələrə dəstək verib, neft sektoru üzrə iri layihələr hökumətlə birgə həyata keçirilib. Bankın fəaliyyətində Azərbaycan üçün strateji layihələrə, o cümlədən Cənub Qaz Dəhlizi təşəbbüsünə verdiyi dəstək xüsusi yer tutub.

DB-nin Azərbaycan iqtisadiyyatının inkişafını obyektiv qiymətləndirməsi də daim diqqət çəkib. Bu nüfuzlu beynəlxalq maliyyə qurumunun hesabatlarında ölkəmizdə strateji yol xəritələrinin ötən illər üçün nəzərdə tutulan müddəaların uğurla icra olunduğu, o cümlədən, mikro, kiçik və orta sahibkarlığın meyarlarının müntəzəm yeniləndiyi, "yaşıl dəhliz"in qaydalarının qəbulu, biznesə başlama, lisenziya və icazələr, yoxlamalar, elektrik təchizatı şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, əmlakın qeydiyyatı və xarici ticarət üzrə islahatlar aparıldığı, həmçinin yeni sənaye, aqro və texnoparklar, habelə sənaye məhəllələrinin yaradıldığı xüsusi vurğulanıb.

Bankın hesabatlarında respublikamızın vergi və gömrük strukturlarında mühüm yeniliklərə imza atılması, reallaşdırılan islahatlarda əsas məqsədin sahibkarların vergi yükünün optimallaşması, vergi bazasının genişləndirilməsi, leqallaşma, rəqəmsallaşma və vergi-gömrük administrasiyası ilə sahibkarların münasibətlərinin daha da sivil səviyyəyə qaldırılması kimi məsələlər də öz ifadəsini tapıb.

DB ilə Azərbaycanın əlaqələri son illər xeyli genişlənib. "Azərbaycanda məşğulluğa dəstək" layihəsi üzrə bu beynəlxalq maliyyə qurumu tərəfindən respublikamızda özünüməşğulluq proqramının icrası ilə bağlı mühüm göstəricilər əldə edilib. Belə ki, 2020-2025-ci illəri əhatə edən həmin layihə 22 min işsiz şəxsin özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə təsərrüfatının yaradılması, eləcə də məşğulluq xidmətləri və proqramlarının təkmilləşdirilməsinə dəstək verilməsi məqsədi daşıyır.

**"Xalq qəzeti"**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 274**

**Bakı şəhəri, 5 avqust 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dövlət qulluğu vəzifələri üzrə test imtahanından keçmək barədə Sertifikatın Forması"nın təsdiq edilməsi haqqında" 2017-ci il 10 mart tarixli 87 nömrəli və "1-5-ci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin birinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulmasının Ümumi Şərtləri"nin təsdiq edilməsi haqqında" 2017-ci il 8 dekabr tarixli 545 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 658-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 29 dekabr tarixli 435 nömrəli, "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunun təsdiq edilməsi haqqında" 2003-cü il 4 avqust tarixli 911 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 12 yanvar tarixli 1962 nömrəli Fərmanının 4-cü hissəsinin icrası ilə bağlı Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 10 mart tarixli 87 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 3, maddə 486, № 11, maddə 2176; 2018, № 2, maddə 366; 2022, № 3, maddə 274, № 6, maddə 684) ilə təsdiq edilmiş "Dövlət qulluğu vəzifələri üzrə test imtahanından keçmək barədə Sertifikatın Forması"na 1 nömrəli əlavə - "Dövlət qulluğu vəzifələri üzrə Sertifikatın verilməsi üçün inzibati vəzifələrin növləri, qrupları və alt qrupları" cədvəlində aşağıdakı dəyişikliklər edilsin:

1.1. "AB2" sətrində "şöbə müdirinin müavini;" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət xidmətləri və dövlət agentliklərinin aparat rəhbərləri və onların müavinləri;";

1.2. "AB4" sətrində "şöbə müdirinin müavini" abzasından sonra nöqtəli vergül işarəsi və aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət xidmətləri və dövlət agentliklərinin rəhbərlərinin müşavirləri, köməkçiləri".

**2** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 dekabr tarixli 545 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2493; 2018, № 7 (II kitab), maddə 1661, № 9, maddə 1938; 2022, № 3, maddə 274, № 6, maddə 684, № 9, maddə 1083) ilə təsdiq edilmiş "1-5-ci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin birinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulmasının Ümumi Şərtləri"nə aşağıdakı məzmunda 8.4.10-1-ci, 8.4.10-2-ci və 8.5.5-1-ci yarımbəndlər əlavə edilsin:

"8.4.10-1. aparat rəhbəri

Təhsilə dair tələblər: ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq dövlət qulluğunda 5 il qulluq stajı və yaxud 8 il iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" qanunlarını, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin aidiyyəti maddələrini, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1627 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası"nı, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;

8.4.10-2. aparat rəhbərinin müavini

Təhsilə dair tələblər: ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq dövlət qulluğunda 5 il qulluq stajı və yaxud 7 il iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" qanunlarını, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin aidiyyəti maddələrini, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1627 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası"nı, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;

8.5.5-1. dövlət orqanı rəhbərinin müşaviri

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq dövlət qulluğunda 1 il qulluq stajı və yaxud 3 il iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" qanunlarını, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin aidiyyəti maddələrini, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 273**

**Bakı şəhəri, 5 avqust 2023-cü il**

***"Notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimatın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693; 2001, № 11, maddə 722; 2002, № 3, maddə 148, № 7, maddə 455, № 10, maddə 635; 2003, № 10, maddə 629; 2005, № 4, maddə 386, № 6, maddə 534, № 8, maddə 782, № 10, maddə 977, № 11, maddə 1061, № 12, maddələr 1228, 1231; 2006, № 3, maddə 297, № 8, maddə 731, № 9, maddə 830, № 10, maddə 902, № 11, maddə 994; 2008, № 2, maddə 108, № 4, maddə 316, № 8, maddə 787; 2009, № 2, maddə 148, № 10, maddələr 846, 849, № 12, maddə 1079; 2010, № 6, maddə 555; 2011, № 10, maddə 971; 2012, № 3, maddə 263, № 5, maddələr 489, 495, № 7, maddə 777, № 11, maddə 1206, № 12, maddə 1354; 2013, № 4, maddə 444, № 5, maddə 578; 2014, № 1, maddə 76, № 5, maddələr 552, 589, № 6, maddə 746, № 8, maddə 1019, № 12, maddə 1685; 2015, № 12, maddə 1580; 2016, № 3, maddə 611, № 4, maddələr 777, 814, № 6, maddə 1226, № 8, maddə 1449, № 11, maddə 1937; 2017, № 1, maddə 135, № 3, maddə 493, № 6, maddə 1245, № 7, maddə 1491, № 9, maddə 1721, № 10, maddə 1883, № 12 (II kitab), maddə 2545; 2018, № 2, maddə 347, № 3, maddə 628, № 4, maddə 789, № 5, maddə 1122, № 6, maddələr 1360, 1367, № 9, maddə 1929, № 10, maddə 2166; 2019, № 1, maddə 169, № 3, maddələr 513, 564, № 5, maddələr 938, 967, № 6, maddə 1172, № 7, maddələr 1325, 1338, № 10, maddə 1674; 2020, № 6, maddə 783, № 10, maddələr 1282, 1299, № 12 (V kitab), maddə 1580; 2021, № 3, maddə 302, № 12, maddə 1509; 2022, № 4, maddə 414; 2023, № 5, maddə 723; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 6 iyun tarixli 188 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4-cü hissənin birinci abzasına "zidd olmayan" sözlərindən sonra "Azərbaycan Respublikası Prezidentinin," sözləri əlavə edilsin.

**2.** 7-ci hissə üzrə:

2.1. beşinci abzasda "Ərizədə müraciət edən şəxsin imzasının həqiqiliyi notariat qaydasında təsdiqlənir və" sözləri "Ərizə" sözü ilə əvəz edilsin və həmin abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Həmin ərizə yazılı formada bilavasitə notariusun yanında imzalanaraq verilir, notarius tərəfindən ərizə üzərində tarix və onun yanında verildiyi qeyd edilməklə imzalanır, həmçinin şəxsi gerbli möhürlə təsdiq edilir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır.";

2.2. on səkkizinci abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu arayışın əldə edilməsi ayrıca notariat hərəkəti hesab edilmir və buna görə dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır.";

2.3. on doqquzuncu abzas aşağıdakı redaksiyada verilsin:

"Notarius tərəfindən daşınmaz əmlak üzərində sərəncam verilməsinə dair notariat qaydasında təsdiq edilmiş müqavilənin Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Elektron notariat" informasiya sistemi vasitəsilə real vaxt rejimində Elektron Hökumət İnformasiya Sistemi üzərindən ötürülmüş elektron nüsxəsi əsasında müvafiq hüquqlar daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınır. Belə müqavilə ondan irəli gələn mülkiyyət və digər əşya hüquqlarının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatının aparılması üçün ərizə hesab olunur.";

2.4. iyirmi üçüncü abzas ləğv edilsin.

**3.** Aşağıdakı məzmunda 7-1-ci və 7-2-ci hissələr əlavə edilsin:

"7-1. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə uyğun olaraq daşınmaz əmlak üzərində hüquqların "bir pəncərə" prinsipi əsasında həyata keçirilməsi üçün notarius müraciət etmiş şəxslərin həqiqi niyyətinə uyğun şərtlər əsasında müqavilə layihəsini tərtib edir və layihə tərəflərlə razılaşdırıldıqdan sonra müqavilənin rəsmiləşdirilməsi və daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı ilə bağlı həmin notariusun depozit hesabına mədaxil ediləcək bütün xərcləri (daşınmaz əmlakın dövlət reyestrində hüquqların qeydiyyatı və daşınmaz əmlaka dair çıxarışın hazırlanması, daşınmaz əmlakın təsvirinin, bu əmlak üzərində qeydiyyata alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayışın alınması, dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqqı, bank xidmət haqqı, habelə sadələşdirilmiş verginin ödənilməsi və əmlakın dəyəri) əks etdirən mədaxil bildirişini hazırlayır. Mədaxil bildirişi çap edilərək tərəflərə təqdim olunur.

Tərəflərin bu ödənişlərlə razı olması onların həmin mədaxil bildirişi və bu şərtlər əsasında müqavilə bağlamaq istəyi barədə birgə ərizələrində notariusun iştirak etdiyi imzaları ilə təsdiq olunur. Bu ərizə notarius tərəfindən üzərində tarix və onun yanında verildiyi qeyd edilməklə imzalanır, həmçinin şəxsi gerbli möhürlə təsdiq edilir (bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır).

Tərəflər müqaviləni kağız daşıyıcıdakı nüsxədə bilavasitə imzalayırlar.

İmzalanmış müqavilənin kağız daşıyıcıdakı nüsxəsində "müqavilə notariusun elektron imzası ilə təsdiq edildikdən sonra qüvvəyə minir" qeydi aparılmaqla yalnız ödənişlər edildikdən sonra kağız daşıyıcıdakı nüsxəsi notariat qaydasında təsdiq edilir.

Tərəflər müqavilənin bütün nüsxələrini imzaladıqdan sonra bu Təlimatın 7-1-ci hissəsinin birinci abzasında nəzərdə tutulmuş xərclərin Hökumət Ödəniş Portalı (HÖP) vasitəsilə aidiyyəti üzrə həyata keçirilməsi üçün "Elektron notariat" informasiya sistemində ödəniş tapşırığı hazırlanaraq elektron qaydada notariusun depozit hesabı olduğu banka göndərilir, bir nüsxəsi isə çap edilərək bank şöbəsinə təqdim etmək üçün tərəflərə təqdim edilir.

Bu Təlimatın 7-1-ci hissəsinin birinci abzasında nəzərdə tutulmuş xərclərin notariusun depozit hesabına ödənilməsi barədə məlumat notariusa "Elektron notariat" informasiya sistemi vasitəsilə daxil olduqda, müqavilənin elektron daşıyıcıdakı nüsxəsi real vaxt rejimində notariusun elektron imzası ilə təsdiq edilməklə daşınmaz əmlakın dövlət reyestrinin informasiya sisteminə ötürülür, kağız daşıyıcıdakı nüsxəsi isə təsdiq edilməklə notariat işinə əlavə edilir.

7-2. Notarius daşınmaz əmlak barəsində aparılmış notariat hərəkətinin nəticəsi olaraq tərtib və (və ya) təsdiq edilmiş digər sənədlərin (o cümlədən müqavilə, ər-arvadın ümumi əmlakdakı paya mülkiyyət hüququ haqqında şəhadətnamə, qanun və ya vəsiyyət üzrə vərəsəlik şəhadətnaməsi, bölgü planı, nisyə alqı-satqı müqaviləsi üzrə son ödəniş barədə bildiriş və s.) elektron nüsxəsini "Elektron notariat" informasiya sistemi vasitəsilə hüquqların dövlət qeydiyyatı üçün daşınmaz əmlakın dövlət reyestrinin informasiya sisteminə ötürür. Bu zaman bu Təlimatın 7-1-ci hissəsi ilə müəyyən edilmiş göstərişlər müvafiq qaydada tətbiq edilir.".

**4.** 10-cu hissə üzrə:

4.1. ikinci abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu Təlimatın 10-cu hissəsinin dördüncü və altıncı abzaslarında nəzərdə tutulan hallar istisna olmaqla, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən notariat hərəkətlərinin aparılması üzrə dövlət rüsumunun ödənilməsindən azadolmalar tətbiq edilən hallarda xüsusi notariuslar tərəfindən bu haqq və notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq tutulmur.";

4.2. aşağıdakı məzmunda on ikinci abzas əlavə edilsin:

"Notariat hərəkətlərinin aparılması üçün müraciət etmiş şəxsə verilməsi nəzərdə tutulmayan, o cümlədən notariat işinə əlavə edilməsi məqsədilə sənədlərin surətlərinin təsdiqinə, habelə digər notariat hərəkətinin aparılması çərçivəsində elektron informasiya sistemləri və ya ehtiyatları vasitəsilə əldə edilmiş məlumat və ya sənədlərin surətinin kağız daşıyıcısına keçirilərək təsdiqinə görə dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq tutulmur. Bu zaman onların üzərində notarius tərəfindən tarix göstərilməklə "Əsli ilə düzdür" sözləri yazılır, imzalanır və şəxsi gerbli möhürlə təsdiq edilir və notariat işinə tikilir.".

**5.** 13-cü hissənin on ikinci abzasının üçüncü cümləsindən "notariat qaydasında təsdiqlənmiş" sözləri çıxarılsın, həmin abzasa aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin və dördüncü cümlə beşinci cümlə hesab edilsin:

"Həmin ərizə bilavasitə notariusun qarşısında imzalanaraq yazılı formada verilir, notarius tərəfindən ərizə üzərində tarix və onun yanında verildiyi qeyd edilməklə imzalanır, həmçinin şəxsi gerbli möhürlə təsdiq edilir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır.".

**6.** 13-1-ci hissə üzrə:

6.1. ikinci abzasın birinci cümləsinə "barkod" sözündən sonra "və QR-kod" sözləri əlavə edilsin;

6.2. üçüncü abzasa "sənəddə" sözündən sonra "və "Elektron notariat" informasiya sistemi vasitəsilə aparılan "Notariat hərəkətlərinin qeyd edilməsi üçün elektron reyestr"-də" sözləri əlavə edilsin.

**7.** 23-cü hissə üzrə:

7.1. birinci abzasda "kadastrının məlumatlarının alınması ilə bağlı əsaslandırılmış yazılı və ya elektron sorğular vermək hüququ vardır" sözləri "kadastrı və Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş fiziki şəxslərin sadələşdirilmiş verginin tutulması üçün yaşayış və qeyri-yaşayış sahələrinin və torpağın yerləşdiyi ərazi üzrə zona məlumatlarını real vaxt rejimində əldə etmək hüququ vardır" sözləri ilə əvəz edilsin və aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"Notariat hərəkətlərinin aparılması və bununla əlaqədar xidmətlərin göstərilməsi üçün tələb olunan sənəd və (və ya) məlumatın Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə olunması mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi bu Təlimatdakı sənəd və məlumatlardan Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olanlarının siyahısını müəyyən edir və rəsmi internet saytında yerləşdirir.";

7.2. ikinci abzasda "kağız daşıyıcısına keçirilərək" sözləri "kağız daşıyıcıya keçirilərək bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla" sözləri ilə əvəz edilsin.

**8.** 29-cu hissə üzrə:

8.1. birinci abzasdan "kağız və" sözləri çıxarılsın, həmin abzasa "elektron" sözündən sonra "və bu abzasın ikinci cümləsində nəzərdə tutulmuş hallarda kağız" sözləri və aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"Hərbi vəziyyətin elan edilməsi, habelə təbii fəlakətlər, texnoloji qəzalar və fövqəladə xarakter daşıyan digər hallar zamanı dövlət orqanlarının elektron informasiya sistemlərinin, o cümlədən "Elektron notariat" informasiya sisteminin fəaliyyətində fasilələr baş verdiyi halda notariat hərəkətləri bu Təlimatda nəzərdə tutulmuş qaydada kağız formada aparılan notariat reyestrində qeyd edilməli və hər bir hərəkətə müstəqil nömrə verilməlidir. Kağız formada aparılan reyestrlərin tətbiqi tarixi və müddəti Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən müəyyən edilir.";

8.2. ikinci abzasa "tərəfindən" sözündən sonra "Elektron notariat" informasiya sistemində" sözləri, "olunur" sözündən sonra "və hər bir hərəkətə avtomatlaşdırılmış qaydada vahid reyestr nömrəsi verilir" sözləri əlavə edilsin.

**9.** 31-ci hissə üzrə:

9.1. ikinci abzasdan " onların notariat qaydasında təsdiq edilmiş" sözləri çıxarılsın və həmin abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu zaman həmin sənədlər bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq tutulmur.";

9.2. dördüncü abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu zaman həmin sənədlər bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır.";

9.3. beşinci abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu zaman həmin sənədlər bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq tutulmur.";

9.4. səkkizinci abzasda "notariat qaydasında" sözləri "notarius tərəfindən" sözləri ilə əvəz edilsin və həmin abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu zaman həmin sənədlər bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq tutulmur.".

**10.** 33-1-ci hissənin ikinci abzasına "saxlayır" sözündən sonra "(bu zaman həmin sənədlər bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq tutulmur)" sözləri əlavə edilsin.

**11.** 39-cu hissənin beşinci abzasının ikinci cümləsində "notariat qaydasında təsdiq edilməli" sözləri "notarius tərəfindən üzərində tarix və onun yanında verildiyi qeyd edilməklə imzalanmalı, həmçinin şəxsi gerbli möhürlə təsdiq edilməli (bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır)" sözləri ilə əvəz edilsin.

12. 41-ci hissənin dördüncü abzasında "notariat qaydasında" sözləri "notarius tərəfindən" sözləri ilə əvəz edilsin və həmin abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu zaman həmin sənədlər bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır.".

**13.** 42-ci hissənin səkkizinci abzasında "notariat qaydasında" sözləri "notarius tərəfindən" sözləri ilə əvəz edilsin və həmin abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu zaman həmin sənədlər bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır.".

**14.** Aşağıdakı məzmunda 45-1-ci hissə əlavə edilsin:

"45-1. Daşınmaz əmlak barəsində sərəncam verilməsi ilə bağlı müqavilənin rəsmiləşdirilməsi və hüquqların dövlət qeydiyyatı ilə bağlı müqavilə üzrə tərəflərin qanunvericiliklə müəyyən edilən xərcləri notariusun ödəniş tapşırığında təyinatı göstərilməklə, bankda açdığı depozit hesabından eyni vaxtda ödənilir.".

**15.** 47-ci hissə aşağıdakı redaksiyada verilsin:

"47. Qeydiyyatdan keçməli olan əmlaka sərəncam verilməsi haqqında müqavilələri təsdiq edərkən, notarius tərəfindən əmlaka mülkiyyət hüquqlarının dövlət qeydiyyatı haqqında müvafiq reyestrdən çıxarışın informasiya sistemi vasitəsilə əldə edilərək surəti (bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır) kağız daşıyıcısına keçirilərək təsdiq edilir və notariat işinə əlavə olunur.".

**16.** 48-ci hissənin birinci, dördüncü və beşinci abzasları aşağıdakı redaksiyada verilsin:

"48. Notarius tərəfindən daşınmaz əmlak barəsində notariat hərəkətlərinin aparılması ilə bağlı daşınmaz əmlaka dair dövlət reyestrindən çıxarış, həmin əmlakın təsviri, bu əmlak üzərində qeydiyyata alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindəki məlumatlar notarius tərəfindən dövlət reyestrindən Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə real vaxt rejimində əldə edilir. Həmin sənəd və məlumatlar notariusun istifadə etdiyi müvafiq informasiya sistemində elektron formada avtomatlaşdırılmış qaydada əks olunur.

Avtonəqliyyat vasitələrinin özgəninkiləşdirilməsi və ya ipoteka qoyulmasına dair müqavilələr, avtonəqliyyat vasitələrinə dair mülkiyyət hüququnu təsdiq edən sənəd, onların müayinədən keçməsi barədə arayış Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin informasiya sistemindən "Elektron notariat" informasiya sistemi vasitəsilə real vaxt rejimində əldə edildikdən sonra təsdiq edilir.".

Əmlak üzərində qadağa olduqda əmlakın özgəninkiləşdirilməsi haqqında müqavilə yalnız borcun əmlakı əldə edənin adına keçirilməsinə dair kreditorun və əldə edənin razılığı olduqda təsdiq edilə bilər.".

**17.** 49-cu hissə üzrə:

17.1. birinci abzasda "qeydiyyatda olması barədə məlumatı" sözləri "qeydiyyatda olan şəxslərin soyadı, adı və atasının adı haqqında elektron sənədi" sözləri ilə əvəz edilsin;

17.2. yeddinci abzasa "tikir" sözündən sonra "və həmin məlumatın surəti bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilməlidir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır " sözləri əlavə edilsin;

17.3. on birinci abzasda "nikahın qeydə alınmasından sonra əldə edilən və ər-arvadın ümumi (birgə) mülkiyyətində olan əmlakın özgəninkiləşdirilməsi və ya ipoteka qoyulması haqqında müqavilələr o zaman təsdiq oluna bilər ki, əmlaka sərəncam verilməsi barədə ər-arvadın digərinin yaşayış yeri üzrə harada qeydiyyatda olmasından asılı olmayaraq notariat qaydasında təsdiq edilmiş razılığı olsun" sözləri "ər-arvaddan birinin ümumi mülkiyyətdə olan daşınmaz əmlak üzərində sərəncam vermək barədə notariat qaydasında təsdiq edilən və (və ya) qeydiyyata alınan müqavilələrin bağlanılması üçün digər tərəfin notariat qaydasında təsdiq edilmiş razılığı tələb olunur" sözləri ilə əvəz edilsin;

17.4. on yeddinci abzasın ikinci cümləsinə "halı" sözündən sonra "müvafiq informasiya sistemləri vasitəsilə əldə edilmiş" sözləri əlavə olunsun və həmin cümlədə "şəxslər haqqında arayış" sözləri "şəxslərin soyadı, adı və atasının adı haqqında elektron sənəd" sözləri ilə əvəz edilsin;

17.5. aşağıdakı məzmunda on doqquzuncu abzas əlavə edilsin:

"Qeydiyyatdan keçməli olan əmlakın özgəninkiləşdirilməsi ilə bağlı beh müqaviləsi təsdiq edilərkən bu hissənin on birinci abzasında nəzərdə tutulmuş razılıq tələb olunur.".

**18.** 77-ci hissənin birinci abzasına "surəti" sözündən sonra "(həmin sənədlərin surəti bu Təlimatın 10-cu hissəsinin on ikinci abzası nəzərə alınmaqla təsdiq edilir və bununla bağlı dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır)" sözləri əlavə edilsin.

**19.** 160-1-ci hissə üzrə:

19.1. birinci abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Notarius belə müqavilələri pul məbləği bankda açılmış depozit hesabına ödənildikdə təsdiq edir.";

19.2. beşinci, yeddinci, doqquzuncu, on ikinci və on üçüncü abzaslar ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 272** **Bakı şəhəri, 5 avqust 2023-cü il**

***“Notariat hərəkətlərinin qeydi üçün reyestrlərin, notariat şəhadətnamələrinin, əqdlərdə və təsdiq edilən sənədlərdə təsdiq qeydlərinin formalarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 23 avqust tarixli 148 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 653-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

“Notariat hərəkətlərinin qeydi üçün reyestrlərin, notariat şəhadətnamələrinin, əqdlərdə və təsdiq edilən sənədlərdə təsdiq qeydlərinin formalarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 23 avqust tarixli 148 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 652; 2005, № 8, maddə 782, № 12, maddə 1228; 2006, № 2, maddə 203; 2008, № 8, maddə 787; 2013, № 5, maddə 577; 2014, № 10, maddə 1314; 2016, № 11, maddə 1936; 2018, № 3, maddə 627; 2019, № 1, maddə 169, № 3, maddələr 513, 564, № 5, maddə 967; 2020, № 4, maddə 482) ilə təsdiq edilmiş “Notariat hərəkətlərinin qeydi üçün reyestrlərin, notariat şəhadətnamələrinin, əqdlərdə və təsdiq edilən sənədlərdə təsdiq qeydlərinin formaları”-na 1-1 nömrəli forma əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

*Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 275** **Bakı şəhəri, 5 avqust 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə” 2012-ci il 5 dekabr tarixli 278 nömrəli, “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin Siyahısı”nın təsdiq edilməsi barədə” 2019-cu il 12 aprel tarixli 163 nömrəli, “Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası”nın təsdiq edilməsi haqqında” 2020-ci il 23 iyun tarixli 213 nömrəli, “Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası”nın təsdiq edilməsi haqqında” 2021-ci il 23 dekabr tarixli 406 nömrəli və “Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı”nın təsdiq edilməsi haqqında” 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

“Səhiyyə və tibbi sığorta sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə” 2006-cı il 25 may tarixli 413 nömrəli, “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli, “Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” 2018-ci il 20 dekabr tarixli 418 nömrəli, “Milli Hematologiya və Transfuziologiya Mərkəzinin yaradılması haqqında” 2019-cu il 23 dekabr tarixli 895 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 13 may tarixli 1677 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 5 dekabr tarixli 278 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1342; 2019, № 4, maddə 771) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - “Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin dövlət tibb müəssisələrində müayinə və müalicəsinin maliyyələşdirilməsi Qaydası”nın 3-cü hissəsinə “Nazirliyi” sözündən sonra “, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 aprel tarixli 163 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 757; 2020, № 5, maddə 641; 2021, № 4, maddə 408) ilə təsdiq edilmiş “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin Siyahısı”nın 1-ci hissəsi və 2.1-ci bəndi ləğv edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyun tarixli 213 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 803; 2022, № 7, maddə 810) ilə təsdiq edilmiş “Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. aşağıdakı məzmunda 1.2.10-1-ci yarımbənd əlavə edilsin:

“1.2.10-1. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi;”;

3.2. 6.1.7-ci yarımbənd üzrə:

3.2.1. “Nazirliyi” sözündən sonra “, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” sözləri əlavə edilsin;

3.2.2. 2-ci abzasda “tabeliyində olan tibb müəssisələri vasitəsilə onların” sözləri “tabeliyində tibb müəsisələri olduqda onlar vasitəsilə həmin vəsaitlərin” sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 406 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1530) ilə təsdiq edilmiş “Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci, 2.2-ci və 3.2-ci bəndlərdə ismin müvafiq hallarında “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri ismin müvafiq hallarında “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” sözləri ilə əvəz edilsin;

4.2. 4.1-ci bənddə “işləməyən” sözü “işləyən” sözü ilə əvəz edilsin.

**5.** “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084, № 12, maddə 1566) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı”na aşağıdakı məzmunda 18-ci hissə əlavə edilsin:

“18. Birliklər

18-1/ Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 277** **Bakı şəhəri, 5 avqust 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikası ərazisində əhali ilə nağd pul hesablaşmalarının aparılmasında nəzarət-kassa aparatlarının tətbiq olunması haqqında” 1995-ci il 18 iyul tarixli 168 nömrəli, “Azərbaycan Respublikasında bəzi tünd spirtli içkilərin istehsalına və satışına dövlət nəzarətinin gücləndirilməsi haqqında” 1998-ci il 7 aprel tarixli 71 nömrəli, “Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamənin və Nəqliyyat vasitəsini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi və onlara sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 1999-cu il 15 mart tarixli 41 nömrəli və “Vergi ödəyicilərinə eyniləşdirmə nömrəsinin verilməsi və tətbiq edilməsi Qaydasının təsdiq edilməsi barədə” 2000-ci il 21 dekabr tarixli 222 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında” 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli Fərmanının 4.4-cü bəndinin, “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə”nin təsdiqi və “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və “Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanının 3.3-cü bəndinin və “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə”nin təsdiqi və “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və “Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının 9.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Azərbaycan Respublikası ərazisində əhali ilə nağd pul hesablaşmalarının aparılmasında nəzarət-kassa aparatlarının tətbiq olunması haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 18 iyul tarixli 168 nömrəli Qərarının 8-ci hissəsində “Vergilər Nazirliyi” sözləri “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə” sözləri ilə əvəz edilsin.

**2.** “Azərbaycan Respublikasında bəzi tünd spirtli içkilərin istehsalına və satışına dövlət nəzarətinin gücləndirilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 7 aprel tarixli 71 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 279; 1999, № 6, maddə 374; 2004, № 3, maddə 193; 2009, № 1, maddə 32, № 6, maddə 499; 2018, № 8, maddə 1817) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2-ci hissədə “Vergilər Nazirliyinə” sözləri “İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə” sözləri ilə əvəz edilsin;

2.2. 3-cü hissədən “, Vergilər Nazirliyinə və Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə” sözləri çıxarılsın.

**3.** “Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamənin və Nəqliyyat vasitəsini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi və onlara sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 197; 2003, № 6, maddə 342; 2006, № 9, maddə 822, № 11, maddə 989; 2008, № 2, maddələr 116, 125, № 9, maddə 853, № 10, maddə 928; 2009, № 6, maddə 491; 2010, № 8, maddə 764; 2011, № 6, maddə 566; 2012, № 1, maddə 36, № 5, maddə 488, № 12, maddə 1352; 2013, № 5, maddə 576, № 7, maddə 876, № 8, maddə 998, № 10, maddə 1211, № 11, maddə 1463; 2016, № 4, maddə 778, № 5, maddə 965; 2017, № 2, maddələr 276, 299, № 5, maddələr 978, 982; 2018, № 5, maddə 1120, № 11, maddə 2443, № 12 (II kitab), maddə 2737; 2019, № 1, maddə 154, № 3, maddə 569, № 12, maddə 2094; 2020, № 10, maddə 1291; 2021, № 4, maddə 411, № 7, maddə 881; 2022, № 4, maddə 385, № 12, maddə 1552; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 17 may tarixli 159 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Qərarla təsdiq edilmiş “Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamə”nin 1.2-ci bəndinin birinci cümləsində “Vergilər Nazirliyindən” sözləri “İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xİdmətindən” sözləri ilə əvəz edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş “Nəqliyyat vasitəsini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi və onlara sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında Əsasnamə”nin 2.3-cü bəndində “Vergilər Nazirliyindən” sözləri “İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən” sözləri ilə əvəz edilsin.

**4.** “Vergi ödəyicilərinə eyniləşdirmə nömrəsinin verilməsi və tətbiq edilməsi Qaydasının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 21 dekabr tarixli 222 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 12, maddə 873; 2002, № 2, maddə 112; 2003, № 4, maddə 214, № 7, maddə 390; 2004, № 4, maddə 296; 2005, № 5, maddə 456) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 4-cü hissədə “Vergilər Nazirliyinə” sözləri “İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə” sözləri ilə əvəz edilsin;

4.2. 5-ci hissədə “Vergilər Nazirliyi tərəfindən müəyyən olunmuş qaydada” sözləri “İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 278** **Bakı şəhəri, 5 avqust 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Texnoloji biznes inkubatoru rezidentlərinin qeydiyyatının, həmçinin texnologiyalar parkı rezidentlərinin və texnoloji biznes inkubatoru rezidentlərinin reyestrinin aparılması Qaydası”nın, “Texnologiyalar parkının və texnoloji biznes inkubatorunun qeydiyyat şəhadətnamələrinin Forması”nın və “Texnologiyalar parkının rezidenti kimi qeydiyyatdan keçmək üçün ərizənin Forması və ona əlavə edilən sənədlərin Siyahısı”nın təsdiq edilməsi haqqında” 2015-ci il 8 iyul tarixli 257 nömrəli, “Nəzarət markalarının alınmasına görə ödənilən vəsaitlərin dövlət büdcəsinə daxil olmasına nəzarət edilməsi və uçotunun aparılması Qaydası”nın təsdiq edilməsi haqqında” 2015-ci il 8 iyul tarixli 258 nömrəli, “İri dövlət şirkətlərinin gəlirlər və xərclər smetaları haqqında” 2016-cı il 30 dekabr tarixli 534 nömrəli, “Elektron qaimə-fakturanın formasının, tətbiqi, uçotu və istifadəsi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2017-ci il 14 mart tarixli 89 nömrəli, “Vergi ödəyicisinin siyahıya alınmış əmlakının satışı məqsədi ilə elektron hərracın təşkili və keçirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2017-ci il 4 may tarixli 196 nömrəli, “Balıqçılıq subyektlərinin uçotunun forması və aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2017-ci il 12 may tarixli 202 nömrəli və “İnternet telekommunikasiya xidməti göstərən operatorların və provayderlərin uçotunun aparılması Qaydası”nın təsdiq edilməsi haqqında” 2017-ci il 12 oktyabr tarixli 427 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında” 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli Fərmanının 4.4-cü bəndinin, “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə”nin təsdiqi və “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və “Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanının 3.3-cü bəndinin və “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə”nin təsdiqi və “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və “Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının 9.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 iyul tarixli 257 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 888) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - “Texnoloji biznes inkubatoru rezidentlərinin qeydiyyatının, həmçinin texnologiyalar parkı rezidentlərinin və texnoloji biznes inkubatoru rezidentlərinin reyestrinin aparılması Qaydası”nın 3.14-cü bəndində “Vergilər Nazirliyinə” sözləri “İqtisadiyyat Nazirliyi yanından Dövlət Vergi Xidmətinə” sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 iyul tarixli 258 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 889; 2019, № 3, maddə 551) ilə təsdiq edilmiş “Nəzarət markalarının alınmasına görə ödənilən vəsaitlərin dövlət büdcəsinə daxil olmasına nəzarət edilməsi və uçotunun aparılması Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bənddə “Vergilər Nazirliyinə (bundan sonra - Vergilər Nazirliyi)” sözləri “İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə (bundan sonra - Dövlət Vergi Xidməti) sözləri ilə əvəz edilsin;

2.2. 2.2-ci bəndin birinci və ikinci cümlələrində, 2.3-cü, 3.2-ci və 3.4-cü bəndlərdə ismin müvafiq hallarında “Vergilər Nazirliyi” sözləri ismin müvafiq hallarında “Dövlət Vergi Xidməti” sözləri ilə əvəz edilsin.

**3.** “İri dövlət şirkətlərinin gəlirlər və xərclər smetaları haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 30 dekabr tarixli 534 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2249; 2017, № 7, maddə 1497; 2018, № 1, maddə 124, № 7 (II kitab), maddə 1621, № 12 (II kitab), maddə 2757; 2019, № 3, maddə 553; 2021, № 12, maddə 1515) 4-cü hissəsindən “Azərbaycan Respublikasının vergilər naziri” sözləri çıxarılsın.

**4.** “Elektron qaimə-fakturanın formasının, tətbiqi, uçotu və istifadəsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 14 mart tarixli 89 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 3, maddə 488; 2021, № 2, maddə 191) 3-cü və 4-cü hissələrində ismin müvafiq hallarında “Vergilər Nazirliyi” sözləri ismin müvafiq hallarında “İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti” sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 4 may tarixli 196 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 967) ilə təsdiq edilmiş “Vergi ödəyicisinin siyahıya alınmış əmlakının satışı məqsədi ilə elektron hərracın təşkili və keçirilməsi Qaydaları”nın 3.5-ci bəndində “Vergilər Nazirliyi” sözləri “İqtisadiyyat Nazirliyi” sözləri ilə, “Nazirliyə” sözü “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin yanında Dövlət Vergi Xidmətinə” sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 12 may tarixli 202 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 973; 2018, № 12 (II kitab), maddə 2722; 2019, № 1, maddə 165; 2022, № 4, maddə 377) ilə təsdiq edilmiş “Balıqçılıq subyektlərinin uçotunun forması və aparılması Qaydaları”nın 2.1.3-cü yarımbəndində “Vergilər Nazirliyində” sözləri “İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətində” sözləri ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 12 oktyabr tarixli 427 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1891; 2018, № 4, maddə 836, № 8, maddə 1916; 2021, № 6 (IV kitab), maddə 672; 2022, № 4, maddə 388) ilə təsdiq edilmiş “İnternet telekommunikasiya xidməti göstərən operatorların və provayderlərin uçotunun aparılması Qaydası”nın 5.2-ci bəndində “Vergilər Nazirliyi” sözləri “İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 286** **Bakı şəhəri, 5 avqust 2023-cü il**

***“Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 829-VIQD nömrəli Qanunu-nun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155; 2019, № 3, maddələr 528, 534, 544, 563, 566, 568, № 4, maddə 753, № 5, maddələr 935, 945, 971, № 7, maddə 1325, № 8, maddə 1475, № 10, maddə 1677, № 11, maddə 1878, № 12, maddələr 2091, 2095; 2020, № 3, maddə 344, № 4, maddə 479, № 5, maddə 643, № 6, maddə 784, № 8, maddə 1134, № 9, maddə 1222, № 10, maddə 1273, № 11, maddələr 1403, 1408, № 12 (V kitab), maddələr 1589, 1597; 2021, № 2, maddə 203, № 3, maddələr 278, 288, 293, 300, 302, № 4, maddələr 395, 399, 404, 416, 417, 418, № 6 (IV kitab), maddə 695, № 7, maddələr 871, 874, № 8, maddələr 966, 973, № 9, maddə 1064, № 10, maddələr 1181, 1187, 1192, № 11, maddələr 1256, 1274, 1280, 1283; 2022, № 1, maddələr 53, 70, № 4, maddələr 377, 388, 398, 415, № 5, maddə 577, № 7, maddə 811, № 8, maddə 1026, № 9, maddələr 1085, 1101, № 10, maddə 1210, № 12, maddə 1552; 2023, № 2, maddə 320, № 4, maddə 588, № 5, maddə 737; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 11 iyul tarixli 226 nömrəli və 19 iyul tarixli 233 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı”nın 1.1.4.7.3.0-cı yarımmaddəsində “Xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri sahibləri” sözləri “Azərbaycan Respublikasının ərazisinə daxil olan və Azərbaycan Respublikasının ərazisindən tranzit keçən xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələrinin sahibləri və ya həmin nəqliyyat vasitəsini idarə edən şəxslər” sözləri ilə əvəz edilsin.

**2.** Həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatına əlavə”nin 1.1.4.7-ci yarımbəndində “həmin ərazidən sərnişin və yük daşınması üçün istifadə edən avtonəqliyyat vasitələrinin sahibləri olan qeyri-rezident” sözləri “Azərbaycan Respublikasının ərazisindən tranzit keçən xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələrinin sahibləri və ya həmin nəqliyyat vasitəsini idarə edən” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Aqroparklar ölkəmizin inkişafına əsaslı töhfə verir

## Bu təsərrüfatlar aqrar sektorun sənayeləşməsini sürətləndirir

**İqtisadiyyatın səmərəliliyinin artırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində qeyri-neft sektorunun inkişafının təmin edilməsi dövlətimizin əsas iqtisadi prioritetlərindəndir. Bu məqsədlə ölkədə aparılan uğurlu iqtisadi siyasət nəticəsində iqtisadiyyatın diversifikasiyasına nail olunması ilə yanaşı, qeyri-neft sektorunun da ümumi daxili məhsulda xüsusi çəkisi getdikcə artır.**



Ölkənin sosial-iqtisadi həyatında xüsusi əhəmiyyət kəsb etdiyi üçün qeyri-neft sektorunun prioritet sahələrindən olan kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektoru son 20 il ərzində iqtisadiyyatın əsas sektorlarından biri kimi müəyyənləşdirilib və görülmüş məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda bu sektorun inkişafı üçün əlverişli şərait yaradılıb.

Kənd təsərrüfatının ənənəvi sahələrindən olan pambıqçılığın, tütünçülüyün, baramaçılığın sürətli inkişafı, kənd təsərrüfatı məhsullarına tələbatın ödənilməsi, emal müəssisələrinin xammal təminatının yaxşılaşdırılması və emal sənayesinin genişlənməsi istiqamətində dövlət dəstəyinin gücləndirilməsi ilə əlaqədar bir sıra hüquqi aktlar, o cümlədən dövlət proqramları qəbul edilib. Eləcə də, ölkənin ixrac potensialının yüksəldilməsi, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarların innovativ qabiliyyətlərinin artırılması, yüksək məhsuldarlığın əldə olunması, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı prosesində intensiv metodların geniş tətbiqində istehsalçı, emalçı və istehlakçı arasında inteqrasiyanın formalaşmasında önəmli rolu olan aqroparkların yaradılması istiqamətində mühüm addımlar atılıb.

Respublikamızda son illər ərzində kənd təsərrüfatının modernləşdirilməsi, aqrar sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşılması istiqamətlərində mühüm uğurlar əldə edilib. Prezident İlham Əliyev tərəfindən aqrar islahatların müasir mərhələsi ilə bağlı qəbul olunan qərarlar, bu sahənin institusional, iqtisadi və texnoloji inkişaf mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində kompleks layihələrin icrası kənd təsərrüfatının keyfiyyətcə yeni inkişaf dövrünə keçməsini şərtləndirib. Bütün bu tədbirlərin nəticəsində isə yerli istehsal potensialı güclənib və ərzaq məhsullarının rəqabət qabiliyyətliliyi artıb, həmçinin ərzaq təhlükəsizliyinin dayanıqlılığının təmin olunması və əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəlməsi gerçəkləşib.

Qeyd edək ki, aqroparklar torpaq sahələrindən səmərəli istifadə, məhsuldarlığın yüksəldilməsi, yeni istehsal və emal sahələrinin yaradılması, müasir suvarma sistemlərinin tətbiqi üçün innovativ və əlverişli mexanizmdir. Bu baxımdan həmin müəssisələrin ərzaq təhlükəsizliyinin möhkəmlənməsində rolu getdikcə gücləndirilir, sahibkarlığın inkişafı, kiçik, orta və iri təsərrüfatların qarşılıqlı faydalı əməkdaşlığı üçün əlverişli platformaya çevrilməsinə xüsusi önəm verilir.

Ümumiyyətlə, son illərdə iqtisadiyyatın dayanıqlı inkişafının təmin olunması məqsədilə həyata keçirilən tədbirlər çərçivəsində elmi yanaşma, qabaqcıl texnologiya və təcrübənin tətbiqi ilə yaradılan aqroparklar ölkəmizdə ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə, idxaldan asılılığın azaldılmasına, regionların tarazlı inkişafının və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə, həmçinin emal sənayesinin yerli xammalla təminatının yaxşılaşdırılmasına mühüm töhfələr verir. Aqroparkların yaradılması aqrar sahədə inkişafı sürətləndirməklə bərabər, ixracyönümlü məhsulların sayının artmasında və ölkənin ixrac potensialının güclənməsində də əhəmiyyətli rol oynayır.

Respublikada aqroparkların yaradılması ilə kənd təsərrüfatının inkişafı sürətlənib. Bu, ərzaqlıq buğda istehsalının artımında özünü daha qabarıq büruzə verib. Belə ki, 2021-2022-ci illər ərzində bu təsərrüfatlarda 147 min hektar torpaq sahəsi əkin dövriyyəsinə daxil edilib. Bunun 16,4 min hektarında təkrar əkin aparılıb. Becərilmə zamanı suvarma suyuna qənaət edilməsi və müasir suvarma sistemlərinin tətbiqi diqqət mərkəzində saxlanılıb. Belə yanaşma həmin dövrdə aqroparklarda 156 min ton buğda istehsalının reallaşması ilə nəticələnib.

Cari ildə də respublikada fəaliyyət göstərən aqroparklarda yüksək nəticələr əldə olunub. Məsələn, Qax rayonu üzrə ən yüksək məhsuldarlıq "Qax Aqroparkı"nda qeydə alınıb. Belə ki, builki mövsümdə aqroparkın arpa sahələrinin hər hektarından 36,2 sentner məhsul götürülüb.

Sabirabaddakı "Pilot Aqropark"ın ilk rezidentlərindən olan "Fructus Aqropark" MMC tərəfindən cari ildə 539 hektar sahədə ərzaqlıq buğda, 26 hektar sahədə arpa, 80 hektar sahədə isə pambıq əkini aparılıb. Təsərrüfatda arpa sahəsində biçin işləri artıq yekunlaşıb və biçilən sahənin hər hektarından 4 tondan çox arpa yığılıb. Hazırda ərazidə buğda biçini aparılır və artıq biçilmiş 150 hektar sahənin hər hektarından 4 tondan çox keyfiyyətli buğda əldə edilib.

"Ağcabədi taxıl Aqropark" da fəaliyyəti dövründə yüksək göstəricilər əldə edib. Yeri gəlmişkən, təsərrüfatda sudan səmərəli istifadə etmək üçün ABŞ-dan gətirilən pivot suvarma sistemləri qurulub. Əkin sahələrinin suvarılmasında ən müasir müasir metodlardan istifadə edilib. Pivot suvarma sistemləri elmi və müasir yanaşmaların tətbiqi ilə kənd təsərrüfatı məhsullarının məhsuldarlığının yüksəldilməsinə, maya dəyərinin aşağı salınmasına və eyni zamanda, ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayıb. Eyni zamanda, bu aqroparkda 41-i daimi olmaqla 150 iş yeri yaradılıb.

Ötən il aqroparkda buğdanın məhsuldarlığı 50 sentner, arpanın məhsuldarlığı təqribən 60 sentner, pambıqda isə bu göstərici 45 sentner olub. Nəzərə alaq ki, respublikada buğda üzrə orta məhsuldarlıq hektara 31,9 sentner, pambıq üzrə isə 30,92 sentner təşkil edib, o zaman aradakı fərqin kifayət qədər yüksək olduğunu görmək mümkündür.

Bu il 509 hektarda arpa, 587 hektarda buğda əkilib. 690 hektarda da pambıq səpini həyata keçirilib. Buğda biçinindən sonra ikinci məhsul üçün qarğıdalı əkini nəzərdə tutulub. 2023-cü ildə həm də 120 hektar sahədə salınmış badam bağından ilk məhsul yığılacaq.

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***

**Ekspert rəyi**



**Vəkil HÜSEYNOV,**
**iqtisadçı-ekspert**

Dövlətimizin başçısının çıxışlarının birində əminliklə vurğuladığı kimi, azad edilmiş ərazilərdə kənd təsərrüfatının müasir planlı şəkildə ixtisaslaşma əsasında təşkili yaxın gələcəkdə həmin torpaqlarda məskunlaşacaq əhalimizin əkin-biçinlə məşğul olmasına müsbət təsir göstərəcək, bu, eyni zamanda, ölkəmizin ərzaqla təminatının güclənməsini və ixrac imkanlarının böyük dərəcədə artmasını şərtləndirəcək.

Ölkə rəhbərinin bu fikri artıq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında öz təsdiqini tapır. İşğaldan azad edilən ərazilərdə kənd təsərrüfatının bərpası və yenidən inkişaf etdirilməsi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Düşməndən təmizlənən torpaqlarda məhsul istehsalının artırılması məqsədilə əkin dövriyyəsinə yeni ərazilər daxil edilir.

Zəngilan rayonunda yaradılan "Dost Aqropark" da bunun bariz ifadəsidir. Parkın sürətlə inkişaf etdirilməsi məhz düşməndən təmizlənən ərazilərdə aqrar sektorun inkişafı, kənd təsərrüfatının sənayeləşdirilməsi məqsədi daşıyır.

Xatırladaq ki, üç mərhələdə həyata keçirilən layihənin təməli 2021-ci il oktyabrın 26-da dövlətimizin başçısı İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub. Artıq aqroparkda birinci mərhələ üzrə görüləcək bütün işlər başa çatdırılıb. İnzibati binalar, 5200 kvadratmetrlik qapalı, 113 min kvadratmetrlik açıq tipli heyvandarlıq kompleksləri, xidməti heyətin yaşayış binaları tikilib. Kompleksə 3500 baş cins qaramal gətirilib və əkinçilik məhsullarının istehsalı reallaşdırılıb.

Bu gün "Dost Aqropark"ın ikinci və üçüncü mərhələləri üzrə işlər davam etdirilir. Layihənin hər 3 mərhələsinin başa çatdırılması nəticəsində 6 min hektar sahədə bitki mənşəli istehsal və texnika sahələri yaradılacaq, 10 min baş cins heyvanın yetişdirilməsi üçün maldarlıq, eləcə də toxumçuluq və şitilçilik sahələri salınacaq. Bununla yanaşı, bütün bölgəyə hədəflənən inteqrasiya olunmuş ət emalı və qablaşdırma müəssisəsi qurulacaq, tutumu 100 min ton olan anbar inşa ediləcək. İstehsal olunan məhsullar yerli tələbatı ödəməklə yanaşı, "Made in Qarabağ" brendi ilə dünya bazarına çıxarılacaq.

# Naxçıvan xəbərləri

## Xidmət Mərkəzinin fəaliyyəti genişlənir



**Sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin daha da yaxşılaşdırılması, vergi ödəyicilərinə göstərilən xidmətlərin daha əlçatan olması məqsədilə Naxçıvan Şəhər Vergilər İdarəsinin Vergi ödəyicilərinə xidmət mərkəzi fəaliyyət dairəsini genişləndirir.**

Naxçıvan Muxtar Respublikası dövlət Vergi Xidmətindən verilən məlumata görə, Naxçıvan Şəhər Vergilər İdarəsinin xidmət strukturu tərəfindən 2023-cü ilin yanvar-aprel aylarında göstərilən xidmətlərin orta günlük sayı 46 olduğu halda, may ayında istifadəyə verilən xidmət mərkəzi tərəfindən may-iyul aylarında xidmətlərin orta günlük sayı 114, yəni 2,4 dəfə çox olub. May-iyul ayları ərzində Vergi ödəyicilərinə xidmət mərkəzində ümumilikdə 4 min 328 vətəndaş qəbul edilib və onlara 6 min 955 xidmət göstərilib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə qəbul edilmiş vətəndaşların sayından 1,8 dəfə, göstərilən xidmətlərin sayından isə 2,8 dəfə çoxdur.

Xidmətlər, əsasən, vergi qanunvericiliyi və inzibatçılığı ilə əlaqədar sualların cavablandırılması, vergi uçotu və vergi orqanlarında qeydiyyat, bəyannamələrin, cari vergi ödəmələrinin hesablanması barədə arayışın təqdim edilməsi, elektron sənəd mübadiləsinin aparılması üçün istifadəçi kodu, şifrə və parolun, "Asan İmza" sertifikatının verilməsi və digər məsələlərlə bağlı olub.

## Sosial sığorta haqları üzrə daxilolmalar 12,1 faiz təşkil edib



**Muxtar respublikada 2023-cü ilin yanvar-iyul ayları ərzində muzdlu işçi sayının və əməkhaqqı fondunun şəffaflaşdırılması prosesi nəticəsində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 86,6 milyon manatdan çox olub. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,1 faiz və ya 9,4 milyon manat çoxdur. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 2022-ci ilin eyni dövrünə nisbətən 17,2 faiz artaraq 24,5 milyon manat təşkil edib.**

Cari ilin 7 ayında işsizlikdən sığorta haqları üzrə daxilolmalar ötən ilin müvafiq dövrü ilə müqayisədə 17,9 faiz artaraq 2,3 milyon manatdan çox olub. Həmin dövrdə icbari tibbi sığorta haqları üzrə daxilolmalar 14 milyon manat olmaqla, ötən ilin eyni dövrünə nisbətən 8,3 faiz artıb.

## Banklara qoyulan əmanətlərin həcmi 20 faizdən çox artıb

**Azərbaycan Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin məlumatına əsasən, bu il iyulun 1-ə Naxçıvanda fəaliyyət göstərən banklarda əhalidən cəlb edilmiş müddətli əmanətlərin həcmi 15 milyon 228,5 min manat təşkil edib. Bu isə 2022-ci ilin eyni dövrü ilə müqayisədə 20,2 faiz çoxdur. Bunun 95,3 faizi və ya 14 milyon 507,8 min manatı milli valyutada, 4,7 faizi və ya 720,7 min manatı isə xarici valyutada qoyulub. Bu da illik müqayisədə 22,1 faiz çox və 7,7 faiz azdır.**

## Muxtar respublika Maliyyə Nazirliyinin saytı AzStateNet şəbəkəsinə köçürülüb

**Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən muxtar respublikada fəaliyyətdə olan dövlət orqanlarında elektron xidmətlərin göstərilməsi, o cümlədən qurumların köhnə versiyalı informasiya resurslarının müasir dizaynda yenidən hazırlanaraq təhlükəsizlik tələblərinə uyğunlaşdırıldıqdan sonra "GOV.AZ" domen zonasına köçürülməsi istiqamətində tədbirlər həyata keçirilir. Nazirlikdən verilən məlumata görə, bu tədbirlərin davamı kimi artıq Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin veb-saytı da "nmaliyye.gov.az" domen adı ilə AzStateNet şəbəkəsinə köçürülüb. Təhlükəsizlik və istifadəçi rahatlığını nəzərə alaraq sayt müasir proqramlaşdırma dillərindən istifadə edilərək yenidən hazırlanıb.**




Həmçinin, saytın optimizasiyası, axtarış sistemlərinə uyğunlaşdırılması, təhlükəsizliyinin təmin olunması, Google axtarış sistemində qeydiyyatdan keçirilməsi və axtarış sistemlərində ön sıralarda tapılması üçün də nazirliyin mütəxəssisləri tərəfindən zəruri texniki tədbirlər həyata keçirilib.

Məlumatda bildirilir ki, nazirliyin yeni internet səhifəsinin domen ünvanı da müvafiq qaydada yenilənməklə gov.az domeninə bağlı e-poçt adresləri ilə təmin ediləcək.

Qeyd edək ki, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən muxtar respublikada dövlət orqanlarının internet səhifələrinin "GOV.AZ" zonasında qeydiyyatdan keçirilməsi və təhlükəsizliyinin gücləndirilməsi ilə bağlı müvafiq tədbirlər davam etdirilir.

## Vergi daxilolmalarında yüksək göstərici əldə olunub

**Dövlət Vergi Xidmətinin məlumatına görə, 2023-cü ilin 7 ayında muxtar respublikanın Dövlət Vergi Xidmətinin xətti ilə büdcəyə 90,7 milyon manatdan çox vergi daxil olub ki, bu da ötən ilin eyni dövrünə nisbətən 38 faiz və ya 25 milyon manat çoxdur.**



Dövlət Vergi Xidmətində qeydiyyatda olan vergi ödəyiciləri üzrə vergi daxilolmaları ötən ilin müvafiq dövrü ilə müqayisədə 46,4 faiz və ya 28,1 milyon manat artıb.

Cari ilin iyul ayı üzrə vergi daxilolmalarında 2022-ci ilin müvafiq dövrünə nisbətən 49,1 faiz və ya 4,9 milyon manat artım qeydə alınıb.

***Səbuhi HƏSƏNOV,***
***"Xalq qəzeti"***

# Bütün yollar Qarabağa aparır...

## Toğanalı-Kəlbəcər-İstisu yolunun inşası davam edir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan mühüm əhəmiyyətə malik yol infrastrukturu layihələrindən biri 82 kilometr uzunluğa malik Toğanalı-Kəlbəcər-İstisu avtomobil yoludur.**

Göygöl və Kəlbəcər rayonlarını birləşdirən avtomobil yolunun layihə uzunluğu Toğanalı-Kəlbəcər istiqamətində 56 kilometr, Kəlbəcər-İstisu marşrutu üzrə isə 26 kilometr təşkil edir. Toğanalı-Kəlbəcər layihənin 16-cı kilometrlik hissəsindən Murovdağ silsiləsi başlanır və yüksəklik 1700 metrdən Murovdağ zirvəsinədək 3 250 metrə qədər artır.

Bu hissədə dünyanın ən uzun avtomobil tunellərindən biri olacaq Murovdağ tunelinin inşası davam etdirilir. Tunel bir istiqamət üzrə 2 hərəkət zolaqlı və 12 metr enində olacaq. Əlavə olaraq 561,2 metr, 626,9 metr, 480 metr və 947,90 metr uzunluğunda 4 tunelin tikintisi də həyata keçirilir.

Sol və sağ hissələrdən ibarət olan, sol hissəsi 11 min 699,6 metr, sağ hissəsi isə 11 min 678,7 metr (ümumi uzunluğu 23 min 378,3 metr) uzunluğa malik olacaq Murovdağ tunelinin sol hərəkət istiqaməti üzrə ümumilikdə 5 min 780 metr qazma və püskürtmə işləri, 2 min 937 metr isə kəmər betonu işləri tamamlanıb, sağ istiqamət üzrə isə ümumilikdə 5 min 990 metr qazma və püskürtmə işləri, 896 metr isə kəmər betonu işləri tamamlanıb. Bundan başqa, Murovdağ tunelinin daxilində sağ və sol hissələri birləşdirən 18 bağlantı yolu (keçid tunel) inşa edilib və yeni bağlantı yolların inşası istiqamətində işlər davam etdirilir.

Dövlət başçısının tapşırığına əsasən, Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu 2, 3 və 4 hərəkət zolaqlı olmaqla I, II və III texniki dərəcəyə uyğun olaraq inşa edilir. Belə ki, layihənin keçdiyi ərazinin sərt dağlıq və qayalıq relyefinin olmasını nəzərə alaraq, yolun əsas hissəsinin II texniki dərəcəyə uyğun, yeni hərəkət hissəsinin 2 zolaqlı, yoxuşlarda isə əlavə zolaq verilməklə tikintisi nəzərdə tutulub. Murovdağ tuneli olan hissədə isə 1-ci texniki dərəcəyə uyğun 4 hərəkət zolağının inşası planlaşdırılır. Layihə üzrə I dərəcəli yolun ümumi uzunluğu 14,2, II dərəcəli yolun ümumi uzunluğu 34,8 kilometr , III dərəcəli yolun ümumi uzunluğu isə 33 kilometr təşkil edir.



Layihə üzrə ümumi uzunluğu 2 min 968 metr olan 6 qovşağın və ümumi uzunluğu 5 min 600 metr olan 36 bağlantı yolun tikintisi də nəzərdə tutulub. Yolun Toğanalı-Kəlbəcər hissəsində hazırda ərazi təmizlənməsi, bitki qatının çıxarılması, qazma və dolğu, həmçinin süni qurğuların tikintisi işləri davam edir. Qazma və dolğu işləri 56 faiz tamamlanıb. Tamamlanmış hissələrdə yol əsasının tikintisi və asfalt-beton örtüyünün döşənməsi işləri icra olunur.

Yolun Kəlbəcər-İstisu hissəsində isə müəyyən hissələr üzrə ərazi təmizlənməsi, bitki qatının çıxarılması, qazma və dolğu işləri, süni qurğuların tikintisi işləri davam edir.

Qeyd edək ki, tikinti işləri Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin nəzarəti altında "İnşaat Norma və Qaydaları"na əsasən aparılır. Tərtib olunmuş qrafikə uyğun layihənin vaxtında yekunlaşdırılması məqsədilə agentlik tərəfindən əraziyə lazımi sayda qüvvə cəlb olunub.

Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu başlanğıcını Göygöl rayonunun Toğanalı kəndindən götürməklə işğaldan azad edilmiş Kəlbəcər rayonunun ərazisindən keçir. Bu üzdən sözügedən rayonun birçox yaşayış məntəqələri ilə yanaşı rayon mərkəzinə və məşhur İstisu ərazisinə qədər rahat gediş-gəlişi təmin edəcək.

Bütün yollar Qarabağa aparır...

***"Xalq qəzeti"***

BEYNƏLXALQ HƏYAT

# Qazın qiyməti qeyri-normal sürətlə yüksəlib

## Neftin qiyməti isə yanvardan bəri ilk dəfə bir barrel üçün 88 dolları ötüb

**Əsas neft hasil edən ölkələrdə tədarükün azaldılması fonunda dünya bazarlarında qiymət artımı müşahidə edilir. Londondakı qitələrarası ICE birjasında Brent markalı neftin oktyabr fyuçerslərinin qiyməti 0,62 faiz artaraq 1 barrelə görə 88,06 dollar olub. Son 6 ayda ilk dəfə Brendin barreli 88 dolları keçib. Sonuncu dəfə bu göstərici yanvarın 27-də qeydə alınmışdı.**



Nyu-York əmtəə birjasında isə WTI markalı neftin sentyabr fyuçersləri 0,67 faiz artaraq bir barrel üçün 84,85 dollar təşkil edib.

“XM” broker şirkətinin baş investisiya analitiki Xarlampos Pissuros “Reuters” agentliyinə bildirib ki, neft qiymətlərinin əvvəlki səviyyədə bərpası, əsasən, Səudiyyə Ərəbistanı və Rusiya kimi böyük neft istehsalçılarının hasilatı azaltmaq öhdəliyi ilə bağlıdır. Onlar ən azı bir ay hasilatı aşağı saxlayacaqlar. Xarlampos Pissuros deyib: – Biz artan tələb fonunda hasilatın azaldılmasının qiymətlərə təsir edəcəyini gözləyirik. Proqnozumuza görə, Brent markalı neftin orta qiyməti 2023-cü ilin ikinci yarısında 86 dollar/barrel olacaq, noyabr və dekabr aylarında 88 dollar/barrelə çatacaq və 2024-cü ilin birinci rübündə də bu səviyyəyə yaxın qalacaq.

"SberCIB” analitika mərkəzindən isə bildirilib ki, dünya bazarları ABŞ-ın neft ehtiyatlarının həftə ərzində gözlənildiyindən daha çox artmasına baxmayaraq, geosiyasi risklər səbəbindən tədarükün azaldılmasından qorxur.

Xatırladaq ki, ABŞ-da kommersiya məqsədli neft ehtiyatları bir həftə ərzində 5,9 milyon barrel artaraq avqustun 4-nə 445,6 milyon barrel təşkil edib. Bu barədə ABŞ-ın Energetika Nazirliyi məlumat yayıb. Amma ehtiyatların hazırkı səviyyəsi ilin bu dövrü üçün xarakterik olan son beş ildəki orta səviyyədən bir qədər aşağıdır. Aydındır ki, bu cür xəbərlər bazara təsirsiz ötüşmür.

Dünya bazarlarında neftlə yanaşı, təbii qazın qiyməti də yüksəlir. London qitələrarası birjası ICE-nin məlumatına görə, avqustun 9-da Avropa İttifaqında əsas qaz sövdələşməsi olan Hollandiya mərkəzi TTF-də qazın birja qiyməti dörd saat ərzində 33 faizdən çox artaraq hər min kubmetr üçün 492,5 dollara çatıb.

Xatırladaq ki, gündəlik qiymət artımları 2022-ci ildə Rusiya qazının Aİ-yə tədarükünün ani dayandırılması qorxusu səbəbindən bir neçə dəfə baş vermişdi – o dönəmdə Avropa iqtisadiyyatı ehtiyac duyduğu bütün qazın təxminən 45 faizini Rusiyadan alırdı. Tədarükün azalması isə təbii qazın qiymətini kəskin artırmışdı.

Bəs bu dəfə qazın bahalaşmasının səbəbləri nədir? Birinci səbəb Avropa İttifaqında (40 dərəcə və yuxarı) və dünyanın qalan hissəsində anomal istilərdir. Bu barədə Ümumdünya Meteorologiya Təşkilatı xəbərdarlıq edib: Yeddi ildə ilk dəfə Sakit okeanın tropik hissəsində El Nino şərtləri hakim olub və bu, qlobal temperaturun kəskin artmasına, hava və iqlim şərtlərinin pozulmasına zəmin yaradıb. İsti havalarda isə elektrik enerjisi istehsalı artır və Aİ-də elektrik enerjisi istehsalında qazın payı təxminən 20 faiz təşkil edir. İstilər artıqca qaza da tələbat artır.

İkinci səbəb isə Asiyada qaza tələbatın artmasıdır. Asiya bazarlarında təbii qaz Avropa bazarlarından baha olur. Aİ-də qazın qiymətinin anomal artımını şərh edən BCS World Investments şirkətinin baş analitiki Ronald Smit bildirib ki, Aİ-nin qaz anbarları dolu olduğundan idxal azalır, bu səbəbdən də qiymət yaxın günlərdə yenidən aşağı düşəcək: Çox güman ki, qazın indiki qiymət artımı texniki artımdır, çünki son aylarda Avropada qazın qiyməti kəskin şəkildə aşağı düşmüşdü (331 dollaradək). Keçən ilin sonunda isə bu rəqəm hər min kubmetr üçün 1500 dollar idi.

Deməli, qazın qiymət artımı müvəqqəti xarakter daşıyır. Avropa qaz bazarında profisit var və qiymətlərin ciddi şəkildə artması üçün heç bir əsas yoxdur. İndiki qiymət artımı havaların isti keçməsi ilə bağlıdır.

***Pünhan ƏFƏNDİYEV,***
***“Xalq qəzeti”***

İDMAN

# “Qarabağ” və “Sabah”dan qələbə, “Neftçi”dən isə məğlubiyyət



**Azərbaycan təmsilçiləri “Qarabağ”, “Neftçi” və “Sabah” komandaları Konfrans Liqasının üçüncü təsnifat mərhələsinin ilk oyunlarında mübarizə aparıblar.**

Tofiq Bəhramov adına Respublika Stadionunda uzun fasilədən sonra ilk dəfə matça çıxan “Qarabağ” UEFA Çempionlar Liqasının II təsnifat mərhələsinin cavab oyununda Norveç “Molde”sinə 6:2 hesabı ilə uduzan Helsinki təmsilçisi HİK ilə üz-üzə gəlib.

Rəqib qapısından 55-ci dəqiqədə ilk qolu keçirən Leandro Andrade Azərbaycan çempionunu önə keçirib. Lakin qonaqlar 77-ci dəqiqədə Entoni Olusanyanın qolu ilə tarazlığı bərpa ediblər - 1:1. Qələbə qolunu isə 85-ci dəqiqədə Juninyo rəqib qapısına göndərib (2:1).

Beləliklə, Çempionlar Liqası turnirinin ikinci təsnifat mərhələsində Polşanın “Rakuv” klubu ilə mübarizədə məğlub olan “köhlən atlar”ın qələbəsi göstərdi ki, futbolçularımız nəinki ruhdan düşməyiblər, əksinə daha əzmkar oyun sergiləmək üçün bütün qüvvələrini səfərbər etməyə nail olublar. Azarkeşlər bir daha sevimli komandalarında qələbə ruhunun sarsılmazlığına şahid olublar.

Doğma meydanda Serbiyanın “Partizan” klubunu qəbul edən “Sabah” da inamlı mübarizəsi ilə azarkeşləri sevindirib. Oyunun 70-ci dəqiqəsində Azərbaycan təmsilçisinin sol cinah müdafiəçisi Boyan Letiç baxımlı qolla komandasının üstünlüyünü təmin edib. 74-cü dəqiqədə Letiç rəqibin qapısına daha bir qol vurmaqla dubl müəllifi olub. Beləliklə, “Sabah” rəqib üzərində iki cavabsız qolla inamlı qələbə qazanıb. Görüşü gürcüstanlı FIFA referisi Giorgi Kruaşvili idarə edib.

“Neftçi” isə Türkiyənin “Beşiktaş” klubu ilə mübarizədən 1:3 hesabı ilə məğlub ayrılıb. Qeyd edək ki, hər üç komandanın cavab oyunu avqustun 17-də keçiriləcək.

***L.QURBANOVA,***
***“Xalq qəzeti”***

# Bayden ABŞ-ın Çin texnologiyasına sərmayəsini məhdudlaşdırır

**2022-ci il oktyabrın ortalarında ABŞ Prezidenti Co Bayden Amerika mikroçiplərinin, eləcə də hər hansı Amerika texnologiyasından istifadə etməklə yaradılmış çiplərin Çinə satışını qadağan etmişdi. Qadağa, həmçinin yarımkeçiricilərin istehsalı üçün avadanlıq və süni intellekt texnologiyalarından istifadə edən proqramlar üçün qrafik prosessorlara da aiddir. Ancaq bu, hamısı deyil. Bayden administrasiyası öz vətəndaşlarına yarımkeçirici sənayesi ilə hansısa şəkildə əlaqəli olan Çin şirkətlərində işləməyi də qadağan etmişdi. Dünən isə Ağ ev Çinlə bağlı növbəti qərarını açıqladı. ABŞ Çin texnologiyasına sərmayə qoyuluşunu məhdudlaşdırdı.**



Çin ilə ABŞ arasında bütün sahələrdə gərginlik davam edir. Tayvan problemi ətrafındakı gərginliyin qalması ikitərəfli iqtisadi münasibətlərə təsir göstərir. Pekinin timsalında qlobal rəqib görən ABŞ Çinin texnoloji sahədə güclənməsinin qarşısını alacaq bir sıra qərarlar qəbul edir. Ötən il oktyabr ayının ortalarında Vaşinqton ABŞ mikroçiplərinin, eləcə də hər hansı ABŞ texnologiyasından istifadə etməklə yaradılmış çiplərin Çinə satışını yasaqlamışdı. Bu qərarla Megvii Technology, Dahua Technology və IFLYTEK, Sunway Microelectronics, Yitu Technologies və başqaları ABŞ qadağaları ilə üzləşdi.

Dünən isə məlum oldu ki, Co Bayden hökuməti Çinin texnologiya sahəsinə sərmayə qoyuluşunu məhdudlaşdırmağa hazırlaşır. ABŞ Maliyyə Nazirliyi məlumat verir ki, Prezident Co Bayden yarımkeçiricilər, mikroelektronika, kvant texnologiyaları və süni intellektin inkişafı da daxil olmaqla Çinin texnologiya sənayesinə investisiyaların məhdudlaşdırılmasını nəzərdə tutan sərəncam imzaladı. Sənəddə deyilir ki, bu addım ABŞ-a “kəşfiyyat, müşahidə və ya kiber imkanlar baxımından əsas olan” məxfi və qabaqcıl texnologiyaların inkişafını məhdudlaşdırmağa imkan verəcək. Fərman maliyyə nazirinə Çin sənayesinin üç sektoruna investisiyaları tənzimləməyə şərait yaradacaq: yarımkeçiricilər, mikroelektronika, kvant informasiya texnologiyaları və bəzi süni intellekt sistemləri. ABŞ səlahiyyətliləri texnologiya şirkətlərini bu cür investisiyalar barədə məlumat verməyə məcbur edəcəklər. Onların bəzilərinə qadağa qoyulacaq.

Yarımkeçirici sənaye 2030-cu ilə qədər trilyon dolları keçəcəyi proqnozlaşdırılan sürətlə böyüyən böyük bazardır. Belə ki, çip istehsal zəncirində bir çox tərəf iştirak edir: tədqiqat laboratoriyaları, avadanlıq istehsalçıları, kimyəvi maddələr və digərləri. Buna görə də ABŞ-ın Çinə qarşı yeni qadağaları qlobal İT sənayesinə təsirsiz ötüşməyəcək. Çünki Çin də cavab tədbirləri görür. Cari il mayın sonunda Pekin yerli bazardan ciddi şəkildə asılı olan ABŞ çip istehsalçısı “Micron”u “ölkənin təhlükəsizliyinə təhdid elan edilərək” şirkətə qarşı ciddi məhdudiyyətlər tətbiq etdi. ABŞ hakimiyyəti xaricdəki tərəfdaşlarından da dəstək alaraq Çinə sanksiyalara ilk başlasalar da, onlara qarşı bu cür tədbirlərə dözməyəcəklərini bildirdilər. Qərb sənayesi rəsmiləri Ağ evdən Pekini cavab tədbirlərinə və daha çox idxal əvəzlənməsinə sövq etməmək üçün yeni qadağalara qarşı daha diqqətli olmasını xahiş edirdilər. Amma Co Bayden hökuməti bu dəfə yenə də “kötəyə” əl atdı və Çinin texnologiya sahəsinə kapital qoyuluşlarını nəzarətə götürdü. Bundan sonra Çinin texnologiya sahəsinə sərmayə qoyuluşuna Vaşinqton qərar verəcək.

“Associated Press” (AP) sənədi şərh edərək bildirir ki, “sərəncamla tanış olan rəsmilər Çinin ABŞ investisiyalarından silah qüvvələrinin inkişafını dəstəkləmək və silahlı qüvvələrini modernləşdirmək üçün istifadə etdiyini” vurğulayırlar. Agentliyin fikrincə, yeni məhdudiyyətlər “Çin iqtisadiyyatını pozmaq üçün tətbiq olunmur, onlar Çinə qabaqcıl kompüter çiplərinin ixracına nəzarət etmək üçün keçən il tətbiq olunan tədbirləri tamamlamaq məqsədilə həyata keçirilir. Agentlik keçmiş xəzinədarlıq rəsmisi Filip Lüdviqsondan sitat gətirir: “Əvvəlcə yarımkeçiricilər və mikroelektronika, kvant informasiya texnologiyaları və süni intellektlə məhdudlaşsa da, sərəncam açıq şəkildə gələcəkdə digər sektorlara da yayılmasını nəzərdə tutur”.

Ağ evin mətbuat ofisinin bəyanatında deyilir ki, Bayden-Harris Administrasiyası gələcək nəsil hərbi innovasiyalar üçün kritik əhəmiyyət kəsb edən texnologiyaların qorunması ilə ABŞ-ın təhlükəsizliyini qorumağa sadiqdir. Ancaq Pekin Ağ evin narahatlığını bölüşmür. Çin Xarici İşlər Nazirliyi Co Baydenin qərarından narazılığını bildirərək vurğulayır ki, ABŞ milli təhlükəsizliyi qorumaq bəhanəsi ilə əslində “Çini inkişaf hüququndan məhrum etməyə və öz hegemonluğunu və eqoist maraqlarını qorumağa” çalışır. “Bu, açıq iqtisadi məcburiyyət və texnoloji hədə-qorxudur. ABŞ-ın hərəkətləri bazar iqtisadiyyatı və ədalətli rəqabət prinsiplərini ciddi şəkildə pozur, beynəlxalq iqtisadi və ticarət nizamını ciddi şəkildə sarsıdır”, - Çin Xarici İşlər Nazirliyinin bəyanatında qeyd olunur. Eyni zamanda, Pekin ABŞ-ı iqtisadi, ticarət və texnologiya məsələlərini siyasiləşdirməyə son qoymağa və məlum sərəncamı ləğv etməyə çağırır.

Mütəxəssislər bildirirlər ki, Ağ evin qərarından ABŞ-ın vençur kapitalı şirkətlərinə güvənən startaplar əziyyət çəkəcəklər. Çinin də bundan zərər çəkəcəyi şübhə doğurur. Məsələn, Çin bu ilin ikinci rübündə ölkəyə birbaşa xarici investisiyaların keçən ilin eyni dövrü ilə müqayisədə 89 faiz azalaraq 4,9 milyard dollar təşkil etdiyini bildirir. Belə görünür, sərmayə azalması daha da sürətlənəcək. Amma bundan dünya iqtisadiyyatı nəsə əldə edəcəkmi? Birmənalı cavab vermək çətindir, ancaq dəqiq demək olar ki, Çin hazırda bir növ “dünya fabriki”dir və bu fabrikin hansısa sexində baş verəcək nasazlıq izsiz ötüşməyəcək. Odur ki, ABŞ–Çin qarşıdurmasının iqtisadi-ticari müstəvidə dərinləşməsi dünya iqtisadiyyatı üçün yaxşı heç nə vəd etmir.

***Səbuhi MƏMMƏDOV,***
***“Xalq qəzeti”***

# Elm və mədəniyyət xəbərləri

**Türkiyənin Akdeniz Universitetinin professoru, Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun laboratoriya müdiri, Türkiyə Respublikası Səhiyyə Nazirliyinin Sağlamlıq İnstitutları Başkanlığının Vaksin Elmi Komitəsinin üzvü, AMEA-nın müxbir üzvü Tərlan Məmmədovun rəhbərlik etdiyi qrup növbəti uğura imza atıb.**




Qrupun COVID-19-a qarşı peyvənd hazırlanması ilə bağlı uzun müddət apardığı tədqiqatların nəticələrini əks etdirən “Bitki mənşəli RBD və kokteyl əsaslı peyvənd namizədləri yeni variantlardan asılı olmayaraq, SARS-CoV-2-yə qarşı yüksək effektivliyə malikdir” adlı yeni məqalə nüfuzlu “Frontiers in Plant Science” jurnalında dərc olunub.

Məlumdur ki, Yer kürəsində 7 milyondan çox insanın ölümünə səbəb olan və hələ də hər gün dünyada 300-400 nəfərin həyatını itirməsi ilə nəticələnən SARS-CoV-2/COVID-19-un bütün variantlarına, xüsusən də hazırda dominant olan Omikron variantına qarşı indiyədək heç bir təsdiq olunmuş effektiv peyvənd hazırlanmayıb. Milyonlarla insan üçün istifadə olunmuş Pfizer-BioNTech COVID-19 peyvəndi iki dozadan sonra (yəni insan orqanizminə 60 mikroqram sintetik mRNT vurulduqdan sonra) belə Omikron variantına qarşı təsirsizdir.

Aparılan tədqiqatlar göstərmişdir ki, professor Tərlan Məmmədovun rəhbərliyi ilə hazırlanmış protein əsaslı peyvənd Omikron da daxil olmaqla bütün variantlara qarşı təsirlidir. Qeyd olunmalıdır ki, bu peyvənd artıq 2020-ci ilin avqust ayında insanlar üzərində klinik sınaqların aparılması üçün hazır idi və Ümumdünya Səhiyyə Təşkilatının siyahısına salınmışdı. Hazırda dərc edilən məqalə vaksinin yüksək effektivliyinin daha bir sübutu hesab edilə bilər.

Qürurvericidir ki, bu məqalə Delta və Omikron da daxil olmaqla SARS-CoV-2-nin bütün ortaya çıxan variantlarına qarşı əhəmiyyətli dərəcədə effektiv olan peyvəndin təsviri haqqında dünya üzrə ilk hesabatlardandır.

***

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Fizika İnstitutunun baş direktoru, akademik Arif Həşimov tərəfindən özbəkistanlı alimlərə sertifikatlar təqdim olunub.**



Ş.Raşidov adına Səmərqənd Dövlət Universitetinin əməkdaşları – kimya üzrə fəlsəfə doktoru, dosent Xurşid Taşpulatov və aspirant Firdavsi Tursunov bir aylıq elmi tədqiqatlarını uğurla başa vurduqları üçün sertifikata layiq görülüblər.

Ezamiyyət müddətində özbəkistanlı alimlər Yüksək gərginliklər fizikası və texnikası laboratoriyasının müdiri, fizika elmləri doktoru, dosent Təranə Nurubəylinin rəhbərliyi ilə neft və qaz yataqlarının geokimyəvi metodlarla axtarışı və kəşfiyyatı istiqamətində təlimlər keçib və birgə elmi tədqiqatlar aparıblar.

***

**Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Hüqo Gevara Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin qonağı olub.**



Muzeyin Ekspozisiya şöbəsinin müdiri Tomiris Babanlı qonağa zəngin Azərbaycan ədəbiyyatı haqqında ətraflı məlumat verərək, əsrlər boyu müxtəlif dillərdə və əlifbalarda yaradılmış elmi və bədii əsərlərimizlə tanış edib, bu ədəbiyyatı yaratmış görkəmli şəxsiyyətlərin ana dilimiz, milli ədəbiyyatımız və mətbuatımız uğrunda göstərdiyi fəaliyyəti diqqətə çatdırıb.

Hüqo Gevara muzeyin ekspozisiyasını bəzəyən tablolar, xalçalar, miniatürlər, xatirə əşyalarına böyük maraqla tamaşa edərək, belə bir muzeyin yaradılmasının Azərbaycan ədəbiyyatına böyük töhfə olduğunu qeyd edib. O, Nizami muzeyinin timsalında Azərbaycan xalqının öz milli sərvətlərinə necə qayğı ilə sahib çıxdığının bir daha şahidi olduğunu söyləyib. Aldığı hər bir məlumatı böyük həvəs və maraqla dinləyən qonaq Nizami muzeyinin həqiqətən dünya səviyyəli bir mədəniyyət ocağı olduğunu vurğulayıb.

Sonda qonağa müxtəlif kitablar və bukletlər hədiyyə olunub.

***Ə.ƏLİYEV,***
***“Xalq qəzeti”***

SON SƏHİFƏ

# Xalq qəzeti

Xalqın qəzeti!

№ 169 (30285) 11 avqust 2023-cü il, cümə

veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## İlham Zəkiyev gümüş medal qazanıb

**Azərbaycan təmsilçilərinin Niderlandın Rotterdam şəhərində keçirilən Avropa paralimpiya çempionatında uğurlu çıxışı davam edir.**




Azərbaycan Milli Paralimpiya Komitəsindən "Xalq qəzeti"nə bildirilib ki, komandamızın aktivinə növbəti medalı ikiqat paralimpiya çempionumuz İlham Zəkiyev (+90 kq) qazandırıb. İdmançımız yarışda gümüş medala sahib olub.

Qeyd edək ki, bundan əvvəl qadın cüdoçumuz Xanım Hüseynova (70 kq), Şəhanə Hacıyeva (48 kq) bütün rəqiblərinə qalib gələrək çempion adını qazanıblar. Dürsədəf Kərimova (+70 kq), Namiq Abaslı (73 kq) gümüş, Xatirə İsmiyeva (+70 kq) İsmayıl Muradov (60 kq) bürünc medala sahib olublar.

## Nicat Abasov tay-brekdə mübarizə aparacaq

**Bakıda keçirilən şahmat üzrə dünya kubokunda 1\16 final mərhələsinin ilk oyunları keçirilib.**



Mötəbər yarışda mübarizəni davam etdirən yeganə şahmatçımız Nicat Abasov 1\16 finalda FIDE adından çıxış edən Pyotr Svidlerlə ikinci matçda da heç-heçə edib.

Şahmatçılar tay-brekdə qalibi müəyyən edəcəklər.

## II MDB Oyunları: Komandamızdan 35-ci medal




**Belarusda II MDB Oyunlarında Azərbaycan komandasının uğurlu çıxışı davam edir.**

Dünən Azərbaycan boksçuları yarımfinal döyüşləri keçiriblər. Məhəmmədəli Qasımzadə (60 kq), Fərhad Şeydayev (75 kq) və Ziya Həsənov (71 kq) rəqiblərinə qalib gələrək finala yüksəliblər. Ömər Aslanlı (54 kq) və Aslan Quliyev (63,5 kq) isə məğlub olduqlarından bürünc medalla kifayətləniblər.

Atıcımız Leyli Əliyeva isə pnevmatik tapançadan 25 metr məsafəyə atəş açma üzrə 567 xal toplayaraq finala yüksəlib.

Qeyd edək ki, Leyli Əliyeva bundan əvvəl pnevmatik tapançadan 10 metr məsafəyə atəş açma üzrə qızıl medal qazanıb.

Avqustun 15-dək davam edəcək yarışa ölkəmiz 16 idman növündə 177 idmançı ilə təmsil olunur.

*Leyla SABİRQIZI, "Xalq qəzeti"*

*Texnologiya yenilikləri*

## Süni zəka pandemiyanı proqnozlaşdıra biləcək

**ABŞ-ın Şimal-Qərb Universitetinin mütəxəssisləri və "Scripps Research" (Skripps Araşdırması) adlı elmi-tədqiqat institutu gələcəkdə baş verə biləcək hər hansı pandemiya zamanı təhlükəli virusları aşkarlayacaq süni zəka sistemini yaradıblar. Yeni sistem (Early Warning Anomally Detection) (Anomaliyanın Erkən Aşkarlanması Xəbərdarlığı) adlanır.**



"EWAD" müxtəlif virusların dünyada yayılması çərçivəsində onların genetik ardıcıllığını, tezliklərini və ölümə səbəb olan nisbətlərini "machine learning"dən (maşinal öyrənmə) istifadə edərək təhlil edir. Mütəxəssislər aşkar ediblər ki, sistem virusun mutasiyası prosesi zamanı hansı problemli versiyaların yarana biləcəyini əvvəlcədən proqnozlaşdıra bilir.

Mütəxəssislərin fikrincə, "EWAD" virusların baza biologiyalarını və onların ətraf mühitə necə "adaptasiya" olduqlarını çözməkdə yardımçı ola bilər. Bu isə öz növbəsində viruslarla mübarizədə daha səmərəli üsullardan istifadə olunmasına kömək edəcək.

*Səadət RZAYEVA, "Xalq qəzeti"*

*Maraq dünyamız*

## Hindistanda albinos ailəsi

**Dehlidə unikal albinos ailəsi yaşayır. Pullan ailəsinin 10 üzvünün hamısı son dərəcə solğun dəriyə və tamamilə ağ saçlara malikdir. Razılaşın ki, Hindistanın isti iqlimi üçün bu çox fərqli görünüşdür. Bununla belə, Pullan ailəsi fiziki narahatlığa baxmayaraq, belə bir xüsusiyyəti "yuxarı"dan bir hədiyyə hesab edirlər.**



Bütün albinoslar kimi, ağdərili hindlilərin də görmə problemləri var və güclü günəş kremi olmadan onların zərif dəriləri dərhal qabarır. Bəs dəridə yaranan problem nə ilə bağlıdır? Bu ilk növbədə dəridə onun rəngini yaradan piqmentin olmamasıdır. Daha doğrusu dəridə milanim yaradan milasitlər olmur. Belə ki, milanim həm də dərini günəş şüalarından qoruyur. Bu səbəbdən də günəş şüaları albinoslar üçün dəri xərçənginə tutulma riski deməkdir. Təəssüf ki, albinizmin müalicəsi tibbdə tapılmamışdır.

Yerli əhali Pullanları çox da sevmir. Qonşularının hind mənşəli olmasına inanmırlar və onları əcnəbi hesab edirlər.

## Bilirsinizmi?..

**...Ölüm anında qurbanının üzündə təbəssüm yaradan zəhərli bitki (Oenanthe crocata) var.**

...Dünyanın ən məşhur içkisi qəhvədir. Hər il insanlar təxminən 400 milyard fincan qəhvə içir.

...Dünyanın ən böyük gecə kəpənəyi "Agrippina Scoop"dur. Onun qanad genişliyi 28 santimetrdir.

...Təbiətdə qoyun ovlayan tutuquşular var. Bu yırtıcıların adı Keadır.

...İnsan tərəfindən uzunluğu ölçülən ən böyük meduza 50 metr olub. Meduzaların beyinləri və qan damarları yoxdur.

...Bir çay qaşığı bal 12 arının ömür boyu əməyinin nəticəsidir.



...Dünyanın ən böyük mirvarisinin çəkisi 6 kiloqrama çatır.

...Püskürmədən sonra yayılan lavanın sürəti itin qaçış sürətinə yaxındır.

...Antarktidada yalnız bir çay var - Oniks, ildə cəmi 60 gün axır.

*P. ƏFƏNDİ, "Xalq qəzeti"*

Sənət inciləri

## Qabarlı əllərdə qızılgül...

**Azərbaycan təsviri sənəti, rəssamlığı dedikdə ilk növbədə ağlımıza gələnlərdən biri böyük rəssam Tahir Salahovdur. Məlum olduğu kimi, dahi sənətkar ölməz əsərlərində neft sahəsində çalışan əməksevər insanlara xüsusi yer ayırıb.**



Rəssam məşhur "Təmirçilər" əsərini 1960-cı ildə ərsəyə gətirib.

Bu əsərdə biz çətin, sərt peşə sahibi olan təmirçilərin simalarıda yorğunluğu, onların dənizdə növbə başında çəkdikləri əzab-əziyyəti görürük.

Bütün bunlara baxmayaraq, əsərdə kiçik bir qızılgül detalı da diqqət çəkir. Belə ki, tablodakı fədakar təmirçilərdən biri öz qabarlı əllərində kiçik bir ağ qızılgül gizlədib. Bu gül əsərdə simvolik məna daşıyır. Axı təmirçilər sevimli ailələrindən uzaqda olarkən gülləri özləri ilə xatirə kimi götürürlər... Təsirli səhnədir, elə deyilmi?

"Təmirçilər" əsəri hazırda Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasında qorunub saxlanılır.

*Leyla HADİ,*
*tələbə-jurnalist*

## Fırıldaqçılıq halları artır

**Son vaxtlar "WhatsApp"da fırıldaq halları çoxalıb. Bir çox insanın nömrəsinə Seneqal, Nigeriya, Filippin, Pakistan, Hindistan kimi ölkələrdən "WhatsApp" zəngləri gəlməyə başlayıb.**



Axtarışlar nəticəsində fırıldaqçıların daha çox məşhur aktyor və ya müğənnilərin fotolarından istifadə edərək insanları aldatdıqları ortaya çıxıb. Müəyyən ödəniş müqabilində kredit kartı nömrəsini istəyir və ya yalandan iş təklifi edirlər.

İnformatika mütəxəssisləri xəbərdarlıq edir ki, dələduzlar, həmçinin "WhatsApp" hesablarınızı və kontaktınızda olan bütün insanların məlumatlarını ələ keçirə bilərlər.

*F. HÜQUQQIZI,*
*"Xalq qəzeti"*

Sağlamlıq

## Qarpızı soyuq yemək təhlükəlidir

**Hazırda qarpız mövsümüdür. Elə insan var ki, hər gün qarpız yeməsə dayana bilmir. Bu yaxşıdır, çünki qarpız orqanizmin su ilə təminatını dəstəkləyir, xərçəngin qarşısını almağa kömək edir, iltihabı və oksidləşdirici stresi azaldır, ürəyə yaxşı təsir göstərir. Qarpızın orqanizmə faydaları çoxdur. Onu daha çox soyuq yeməyi sevdiyimizdən əks-təsirindən xəbərsizik.**



Rusiyalı terapevt Lyudmila Lapanın fikrincə, soyuq qarpız yemək immuniteti zəif olan insanların sağlamlığına ciddi ziyan vurur. O deyib ki, soyuq halda yeyilən qarpız insan orqanizmində problemlərə, xüsusən ağız boşluğunda inkişaf edən infeksiyaların çoxalmasına, habelə periodontal (ağız-damaq) xəstəliklərin şiddətlənməsinə səbəb ola bilər.

Həkim bildirib ki, immuniteti zəif olanlarda xəstəliklər ağız və boğazın selikli qişasında yuva quran infeksiyalar səbəbindən yaranır. Belə ki, ağız boşluğundakı toxumaların soyumasına səbəb olan soyuq qarpız iltihablı və yoluxucu proseslərin inkişafını sürətləndirən mexanizmə çevrilə bilər.

Buna görə də, xüsusən, yaşlı insanlar, uşaqlar və hamilələr soyuq qarpızdan uzaq durmalıdırlar. Çünki onların immun sistemi bir qədər zəif olur.

*Z.HÜSEYNLİ, "Xalq qəzeti"*

Proqnoz




**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən avqustun 11-də Bakıda və Abşeron yarımadasında yağmursuz keçəcək. Səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim cənub-şərq küləyi əsəcək. Gecə 24-28°, gündüz 35-39°, bəzi yerlərdə 41-42° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 753 mm civə sütunu, nisbi rütubət gecə 70-80 , gündüz 30-40 faiz olacaq.**

Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 27-28°, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 28-29° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 23-28°, gündüz 35-40°, bəzi yerlərdə 42-44°, dağlarda gecə 15-20°, gündüz 28-33° isti olacaq.

*Q. QASIMOV,*
*"Xalq qəzeti"*

## Balaca bir damcı çox şeyi dəyişəcək

**Makkuori Universitetinin Avstraliya mühəndisləri nanosensorların hazırlanması prosesində yenilik ediblər. "ScitechDaily" saytı xəbər verir ki, mühəndislər köhnə texnologiyanı hər bir sensorun əvəzinə bir damcı etanol istifadə edərək yeniləmə üsulu kəşf ediblər. Az miqdarda etanol cihazın yüksək tempuratura qədər qızması zamanı enerji itkisinin qarşısını alır.**

Makkuori Universitetinin Mühəndislik Məktəbinin Nanotexnologiya laboratoriyasının rəhbəri, dosent Nouşin Nasiri deyir ki, yeni yaradılan nanosensorlar indiki halda ənənəvi sensorun səthinə yerləşdirilən milyardlarca nanohissəciklərdən ibarətdir. Bu mexanizmin çatışmayan cəhəti isə ondan ibarətdir ki, sensorların əksəriyyəti ilk dəfədən işləmir.

Nanohissəcikər ilkin vəziyyətdə özlərini zəif bağlarla birləşən şəbəkəyə yığırlar, bu da hissəciklər arasında siqnalları ötürə bilməyəcək qədər boşluq yaradır, ona görə də sensor işləmir. Alimin sözlərinə görə, problemi ikinci mərhələdə aşkar edib həll etmək mümkündür, lakin tədqiqatçılar nanohissəciklərdə bu xətanı ilk dəfədən yox etmək üzərində işləyirlər.



*Leyla İLKİNQIZI,*
*tələbə-jurnalist*

✓ 2009--cu ildə Ukraynanın Milli Mülki Müdafiə Universiteti tərəfindən Əzizov Əfqan Tapdıq oğlunun adına verilmiş DI-022960 nömrəli bakalavr diplomuna əlavə edilmiş qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4872
SİFARİŞ 1943
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır
00:00